**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTU**

**Rasim Əliquliyev**

**İradə Ələkbərova**

# VİKİPEDİYA

## virtual ensiklopediya

- 10071 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Bakı – 2010**

Əliquliyev R.M., Ələkbərova İ.Y. Vikipediya. Virtual ensiklopediya. Bakı: "İnformasiya texnologiyaları" nəşriyyatı, 2010, 184 səh.

İlk dəfə nəşr olunan "Vikipediya. Virtual ensiklopediya" kitabında Vikipediyanın yaranma tarixi, hazırkı vəziyyəti haqqında məlumat verilir və mövcud problemlərə toxunulur. Kitabda ensiklopedik məqalələrin yaradılması üçün tətbiq edilən qayda və mexanizmlər geniş şərh edilir. Bununla yanaşı Vikipediyanın müxtəlif törəmə layihələri və İnternetdə yerləşdirilmiş bir sıra populyar ensiklopediyalar haqqında məlumatlar da vəsaitdə öz əksini tapmışdır. Vikipediyadan informasiyanı daha asan əldə etmək imkanları, həmçinin yeni məqalələrin yaradılması və redaktəsi üçün daha optimal üsullar göstərilir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

*AMEA İnformasiya Texnologiyaları İnstitutunun Elmi Şurasının qərarı ilə çapa tövsiyə olunmuşdur.*

**Elmi redaktor:** AMEA İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, dosent Ə.Q. Əliyev

**ISBN: 978-9952-434-21-7**

© "İnformasiya Texnologiyaları" nəşriyyatı, 2010

## MÜNDƏRİCAT

GİRİŞ ........ 5

**FƏSİL 1. VİKİ TEXNOLOGİYASI** ........ **12**
1.1. Virtual məkanda vəziyyət ........ 12
1.2. Viki texnologiyası – sürətli informasiya texnologiyası ........ 13
1.3. CMS MediaWiki sistemi ........ 15

**FƏSİL 2. VİKİPEDİYANIN ƏHƏMİYYƏTİ VƏ İMKANLARI** ........ **19**
2.1. Vikipediya nədir? ........ 19
2.2. Vikipediyanın əhəmiyyəti ........ 22
2.3. Vikipediya fəlsəfəsi ........ 25
2.4. Vikipediya əhalisi ........ 32

**FƏSİL 3. VİKİMEDİA FONDU** ........ **35**
3.1. Vikimedia Fondunun serverləri ........ 36
3.2. GFDL lisenziyası ........ 38
3.3. Vikilayihələr ........ 39
3.4. Vikimaniya ........ 46

**FƏSİL 4. VİKİPEDİYADA MƏQALƏLƏRİN YARADILMASI QAYDALARI** ........ **49**
4.1. Qeydiyyatdan keçmə qaydası ........ 50
4.2. Məqalə üçün mövzunun və adın seçilməsi ........ 51
4.3. Məqalənin ensiklopediyada axtarışı ........ 52
4.4. Məqalənin yaradılmasının ümumi qaydaları ........ 53
4.5. Mənbənin göstərilməsi ........ 58
4.6. Məqaləyə kateqoriyanın əlavə olunması ........ 60
4.7. Məqaləyə interviki linklərinin daxil edilməsi ........ 61
4.8. Mətnin formatlaşdırılması ........ 62
4.9. Keçidlərin yaradılması ........ 65
4.10. Şəkillərin və media fayllarının daxil edilməsi ........ 66
4.11. Məqalələrin birləşdirilməsi ........ 68
4.12. Səhifənin izlənməsi ........ 68
4.13. Müzakirə səhifələri ........ 69

**FƏSİL 5. ŞABLONLAR VƏ ONLARDAN İSTİFADƏ QAYDALARI** ........ **71**
5.1. Ümumi şablonlar ........ 71
5.2. Qaralama halında olan məqalələrə daxil edilən şablonlar ........ 72
5.3. Kateqoriyalara daxil edilən şablonlar ........ 75
5.4. Silinəcək məqalələrə daxil edilən şablonlar ........ 76
5.5. Milli atributlarla bağlı şablonlar ........ 78
5.6. İstifadəçiləri xüsusi kateqoriyalara ayıran şablonlar ........ 79
5.7. Müzakirə şablonları ........ 81
5.8. Səsvermə şablonlari ........ 82
5.9. Lisenziya şablonları ........ 82

**FƏSİL 6. VİKİPEDİYA CƏMİYYƏTİN AYNASIDIR** ........ **87**
6.1. Vikipediyada informasiya müharibəsi ........ 87
6.2. Vikipediya üzrə statistik göstəricilər ........ 89
6.3. Vikipediyanın qadağan edildiyi ölkələr ........ 98
6.4. İKT-nin inkişaf tempinin Vikipediyaya təsiri ........ 99
6.5. Dilin qorunması və inkişafında Vikipediyanın rolu ........ 101
6.6. Vikipediya təhsildə ........ 103
6.7. Vikipediya və Azərbaycan ........ 104

**FƏSİL 7. VİRTUAL ENSİKLOPEDİYALAR** ........ **114**
7.1. Viki texnologiyası ilə fəaliyyət göstərən ensiklopediyalar ... 114
7.2. Digər ən populyar İnternet-ensiklopediyalar ........ 135
7.3. Virtual ensiklopediyalar akademik portallara çevrilməkdədirlər ........ 151

**ƏDƏBİYYAT** ........ **154**

**POPULYAR ENSİKLOPEDİYALARIN İNTERNET ÜNVANLARI** ........ **158**

**VİKİPEDİYA ÜZRƏ QLOSSARİ** ........ **160**



## GİRİŞ

*İnformasiya texnologiyalarının inkişafı, cəmiyyətin ayrı-ayrı sahələrinə inteqrasiyası və ümumiyyətlə, informasiya cəmiyyətinin (İC) formalaşması ilə əlaqədar insanların informasiyaya, İnternetə münasibəti dəyişməkdədir. Bu gün İnternet cəmiyyətdə mühüm fenomenə çevrilməkdədir. İnternet hər kəsə siyasi, mədəni, sosial və digər qlobal məsələlərin həllinə öz töhfəsini vermək imkanı yaradır.*

*Virtual məkanda hər bir dövlətin gücü və qüdrəti onun malik olduğu elektron informasiya resurslarının xüsusi çəkisi ilə ölçülür. Təsadüfi deyildir ki, hazırda dünyanın bir çox inkişaf etmiş dövlətləri virtual məkanda siyasi baxışlarını və maraqlarını təbliğ etmək üçün sistemli və ardıcıl iş aparırlar.*

*XXI əsrdə informasiya təhlükəsizliyi məsələsi hər bir dövlətin xarici və daxili siyasətində mühüm rol oynayır. Dövlətin iqtisadi inkişafı və beynəlxaq aləmdə uğurları, eyni zamanda ona qarşı yönəlmiş informasiya təcavüzünün qarşısının alınmasından da asılıdır. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, mədəni dəyərlərimizin tanınmasında, dilimizin inkişafında İnternetin özünəməxsus yeri vardır. Respublikamız haqqında məlumatların virtual məkanda yayımı müasir informasiya texnologiyaları ilə silahlanmış, yüksək səviyyəli mütəxəssislərin sayının artırılması nəticəsində mümkündür.*

*Xalqımızın milli maraqları Respublika Prezidenti İlham Əliyevin 2007-ci ildə imzaladığı Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında qeyd olunduğu kimi*

*ölkəmizin maraqları təkcə real dünyada yox, həm də virtual dünyada təmin olunmalıdır.*

*Azərbaycanın informasiya mühitinin təhlükəsizliyini təmin etmək, onu virtual təcavüzdən, informasiya hücumlarından müdafiə etmək üçün, ilk növbədə, İnternet məkanda fəal olmalıyıq. Virtual məkanın bir seqmenti kimi Virtual Azərbaycanın formalaşması və genişlənməsində hər bir azərbaycanlının, xüsusən, gənclərin iştirakı vacibdir. Bu gün İnternet mühitində müxtəlif layihələr həyata keçirilir. Belə nəhəng layihələrdən biri də Vikipediya (Wikipedia) virtual ensiklopediyasıdır.*

*Vikipediya ensiklopediyası 15 yanvar 2001-ci ildə fəaliyyətə başlamış, İnternet şəbəkəsində yerləşdirilməsindən bir-neçə il sonra dünyanın ən populyar 10 saytı sırasına daxil olmuşdur. 2009-cu ildə isə Vikipediya ensiklopediyası İnternetdə fəaliyyət göstərən təxminən 230 milyon sayt arasında müraciətlərin sayına görə birinci yeri tutmuşdur. 2010-cu ilin may ayına olan məlumata görə, Vikipediya ensiklopediyasında 15,7 mln. məqalə yer alır. Bu gün Vikipediya müxtəlif sosial sahələr üçün nəzərdə tutulmuş yeni, zəngin informasiya resursudur. Vikipediya ensiklopediyasında əsas məqsəd informasiyanın sərbəst, maneəsiz paylanması, tez bir zamanda dolğun biliyin əldə edilməsi olduğundan, dünyada bu virtual ensiklopediyaya maraq artmaqdadır.*

*Vikipediya virtual ensiklopediyası İnternet mühitindəki layihələrdən tamamilə fərqli olan, biliklərini paylaşmağa hazır insanlar sayəsində formalaşan, dünyanın ən dolğun on-line*



*ensiklopediyasıdır. Vikipediyanın populyarlaşmasının əsas səbəbi onun dinamik və daima yenilənən olmasıdır. Yəni digər ənənəvi ensiklopediyalarda son hadisələr haqqında məlumat əldə etmək mümkün deyil. Vikipediyada isə müvafiq informasiya, artıq hadisənin baş verdiyindən bir-neçə dəqiqə sonra ensiklopediyaya daxil edilir.*

*Son zamanlar Vikipediyaya təcrübəli, yüksək intellektli istifadəçilərin cəlb edilməsi bu ensiklopediyadakı məqalələrin daha dolğun və obyektiv olmasına səbəb olmuşdur. Nəzərə almaq lazımdır ki, dünyanın ən tanınmış kütləvi informasiya vasitələri nümayəndələri, siyasətçilər, hüquqşünaslar və digər peşə sahibləri hər hansı informasiyanı İnternetdən tez əldə etmək üçün birinci növbədə Vikipediyaya müraciət edirlər.*

*Vikipediyada yüksək səviyyədə təmsil olunmaq inkişaf etmiş dövlətlərin siyasətində mühüm yer tutur. Bu layihədə fəal iştirak etmək Azərbaycan üçün də çox vacibdir. Ölkəmizdə İC istiqamətində əldə olunan nailiyyətlər Azərbaycan haqqında müxtəli məzmunlu məlumatların Vikipediyada yerləşdirilməsi, vətənimizin dünyada daha yaxşı tanınması üçün real zəmin yaratmışdır.*

*Vikipediya vasitəsi ilə Azərbaycanın maraqlarının beynəlxalq aləmdə təbliğinə xidmət edən, müasir kompyuter və İnternet texnologiyalarından istifadə etməyi bacaran gənclərə böyük ehtiyac vardır. Həmçinin Azərbaycanın alim və mütəxəssisləri zaman-zaman əldə etdikləri təcrübə və biliklərini Vikipediyada yerləşdirməklə virtual Azərbaycanın formalaşmasına və təbliğinə xidmət etmiş olarlar.*

*Xalqların milli-mənəvi dəyərlərinin daşıyıcısına çevrilmiş Vikipediya dünyanın müxtəlif yerlərində yaşayan, Azərbaycan dilindən, mədəniyyətindən uzaq düşmüş həmvətənlərimizi "bir yerə toplamaq", ana dilində müzakirələr aparmaq, problemlərini bölüşdürmək üçün əvəzolunmaz layihədir. Vikipediyanın Azərbaycan bölməsini virtual vətənin bir parçası da adlandırmaq olar. Son zamanların müşahidələri göstərir ki, Vikipediya dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlıların "toplandığı yerə" çevrilmişdir. Əgər real dünyada gedən tarixi proseslər nəticəsində Azərbaycan coğrafi baxımdan parçalanaraq, müxtəlif dövlətlərin ərazilərinə daxil edilmişdirsə, Vikipediyada virtual Azərbaycan bütövdür.*

*Xalqımızın tarixi, adət-ənənələri, musiqisi, mətbəxi və s. özəllikləri haqqında məlumatların dünyada tanınması və qorunması üçün İnternet resurslarında, ilk növbədə Vikipediyanın bütün layihələində aktiv iştirakımız vacibdir. Bu baxımdan, Azərbaycan haqqında obyektiv, operativ, dolğun informasiyanın, audio-video materialların Vikipediyaya daxil edilməsi yeni dövrün tələbi kimi qarşımızda durur. Unutmamalıyıq ki, Vikipediya vasitəsilə hansı millət öz dəyərləri və həqiqətlərini geniş təbliğ edirsə, o, İnternet mühitində mövcud olan informasiya qarşıdurmasında da üstünlük əldə edir. Şübhəsiz, bu prosesdə təkcə Azərbaycan vətəndaşları deyil, həm də dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimiz də yaxından iştirak etməlidirlər. Bununla yanaşı Vikipediyada milli-mənəvi dəyərlərimiz haqqında yalnız Azərbaycan dilində yox, həmçinin dünya*



*xalqlarının dillərində, xüsusən də, populyar dillərdə çoxlu sayda kontentlər yerləşdirilməlidir.*

*Məlumdur ki, müxtəlif ölkələrdə yaşayan soydaşlarımız övladlarının Azərbaycan dilində təhsil almasını arzulasa da, bu heç də hamıya nəsib olmur. Vikipediya eyni zamanda Azərbaycan dilinin İnternetdə daha geniş yayılmasına və bu dildə danışan insanların, dünyanın hansı yerində yaşamasından asılı olmayaraq, bir araya gəlməsinə yardım göstərən bir virtual məktəb rolunu oynayır.*

*Qeyd etmək lazımdır ki, Vikipediyaya ensiklopedik məqalələrdən başqa xəbərlər, dərsliklər, elmi məqalələr, kitablar, monoqrafiyalar, şəkil, audio və video fayllar daxil etmək mümkündür. Bu məqsədlə Vikipediyada müxtəlif layihələr fəaliyyət göstərir: Vikilüğət, Vikisitat, Vikikitablar, Vikimənbə, Vikixəzinə, Vikinövlər, Vikixəbərlər, Vikiversitet, Metaviki.*

*Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunda Vikipediya ilə bağlı tədqiqatlar aparılır, gənc tədqiqatçılara Vikipediya layihələrində müxtəlif kontentlərin yaradılması qaydaları tədris olunur, ictimaiyyətin bu istiqamətdə maariflənməsi üçün məqsədyönlü işlər həyata keçirilir. Son zamanlar Vikipediya ensiklopediyasının müxtəlif dil bölmələrində azərbaycanlı istifadəçilərin sayının hissediləcək dərəcədə artması və aktiv fəallığı müşahidə olunur. Belə ki, əgər 2007-ci ildə Vikipediyanın Azərbaycan dili bölməsində məqalələrin sayı cəmi 3 min idisə, 2010-cu ildə məqalələrin sayı artıq 35 minə çatmışdır.*

*Bütün bunları nəzərə alaraq demək olar ki, təqdim olunan kitabda göstərilən təlimatlardan istifadə edən oxucuların Vikipediyada daha fəal iştirakı Azərbaycan həqiqətlərinin virtual məkanda geniş təbliğinə xidmət edəcəkdir.*

*Kitabda Viki texnologiyası və CMS MediaWiki sistemi haqqında araşdırmalar da öz əksini tapmışdır. Eyni zamanda, Vikipediya fəlsəfəsi, Vikipediya layihəsini idarə edən Vikimedia Fondunun fəaliyyəti və Vikipediyanın törəmə layihələri haqqında geniş məlumat verilmişdir. Kitabda Vikipediyada məqalələrin yaradılması qaydalarına və ensiklopediyada qəbul olunmuş ümumi şablonlara həsr edilmiş məlumatlar da mövcuddur ki, onlardan istifadə etməklə sərbəst, müxtəlif mövzulara həsr edilmiş məqalələr yaratmaq və redaktələr etmək mümkündür. Kitabda həmçinin Vikipediyada baş verən informasiya müharibələri haqqında da geniş danışılır, bununla bağlı problemlər açıqlanır və İnternet mühitində fəaliyyət göstərən digər populyar ensiklopediyalar haqqında da zəruri məlumatlar verilir.*

*Vikipediya aləminə daxil olan, dünyanın ən nəhəng "kollektiv beyni" adlanan bu xəzinəyə öz töhfəsini verən hər bir azərbaycanlı unutmamalıdır ki, bu fəaliyyəti ilə o, ilk növbədə öz vətəninə xidmət etmiş olur. Bu baxımdan Azərbaycan maraqları təkcə real yox, həm də virtual dünyada təbliğ olunmalıdır. Beləliklə, hörmətli həmvətənlər, biz istəyiriksə ki:*

- *Azərbaycanın maraqlarını dünya ictimaiyyətinə catdıraq;*
- *dünya azərbaycanlılarını "bir yerə yığaq", ümumi informasiya məkanı yaradaq;*



- *tariximizi, dilimizi, müsiqimizi, ədəbiyyatımızı, adət-ənənəmizi qoruyub saxlayaq;*
- *bizlərə mənsub dəyərlər təhrif olunmasın, başqaları tərəfindən saxtalaşdırılmasın, oğurlanmasın;*
- *kimlərinsə əlində olan, yeganə qramafon valında və ya kasetdə saxlanılan nadir musiqi nümunələrimiz, nəğmələrimiz itməsin, qiymətli kitablar, tarixi sənədlər, eksponatlar və s. kimi incilərimiz zaman keçdikcə müxtəlif aşınmalar nəticəsində məhv olmasın, əbədiyyətə qovuşsun, onlardan indiki və gələcək nəsillər istifadə edə bilsin;*
- *bizə qarşı informasiya hücumlarının qarşısını alaq, virtual təcavüzlərlə, yalanlarla, bötanlarla fəal mübarizə aparaq;*
- *virtual məkanda sizləri, sizlərin daxili dünyasında mövcud olan "məni" tanısınlar,*

*Vikipediya dünyasına daxil olmalıyıq, onun imkanlarından geniş istifadə etməli, ümumiyyətlə, Virtual Azərbaycanı formalaşdırmalıyıq.*

*Sizlərə bu fəaliyyətinizdə uğurlar diləyirik.*

# FƏSİL 1. VİKİ TEXNOLOGİYASI

## 1.1. Virtual məkanda vəziyyət

Kompyuter inqilabının əsas hissəsini İnternet təşkil edir. İnternet-texnologiyalar siyasətə, biznesə və dövlət idarəçiliyinə sürətlə tətbiq olunmaqla yanaşı, cəmiyyətdə insanlar arasında münasibətlərin xarakterini, biznes prinsiplərini və dövlət idarəçiliyini dəyişir. Virtual on-line cəmiyyəti formalaşır, informasiya münasibətləri yaradılır, müəyyən informasiya maraqları üzrə istifadəçilərin qruplaşması baş verir.

Bu gün İnternetdən lazım olan informasiyanın və biliyin əldə edilməsi heç də asan baş verən proses deyildir. Zaman keçdikcə virtual məkan pərakəndə resurslarla necə gəldi yüklənir, axtarış sistemləri isə tələb olunan resursların hamısını əhatə edə bilmir. Nəticədə veb – axtarış sistemlərindən kənarda fəaliyyət göstərən "gizli" resursların sayı gündən-günə artır. İnternetdə informasiyanın axtarışına çıxan istifadəçi, adətən, ilk növbədə populyar axtarış sistemlərinə müraciət edir. Məsələn, Yahoo, Google, Yandex və s. axtarış sistemlərini misal göstərə bilərik. Müxtəlif sorğular fikirləşir və bu sorğular nəticəsində brauzerə gətirilən, formal olaraq relevant sayılan məlumatlar içində itib batır. Minlərlə veb-sayt içində lazım olan biliyin əldə edilməsi vaxt tələb edir və bəzən istənilən nəticəni vermir.



İnternetin əsasını qoyarkən mütəxəssislər "qlobal biliklər bazası" və ya "kollektiv bilik" əldə etmək arzusunda idilər. Lakin bunun əvəzinə bu gün İnternet qlobal xaosa çevrilmişdir. Odur ki, on-line rejimində istifadəçinin lazım olan informasiya əldə etməsi və operativ dəyişdirməsi bu gün virtual məkanda ən aktual problemdir. Bu problemi həll etmək üçün mütəxəssislər şəbəkədə yeni-yeni layihələr, texnologiyalar yaratmaqdadırlar: çat, veb-forum, bloq. Bu texnologiyalar informasiya mübadiləsi



aparmağa imkan versə də, onlardan heç biri ilə mükəmməl sayt yaratmaq mümkün deyildir. Yeni texnologiyalardan biri olan **Viki texnologiyası** isə bu problemlərin öhdəsindən uğurla gəlməkdədir [1].

## 1.2. Viki texnologiyası – sürətli informasiya texnologiyası

Viki konsepsiyası ilk dəfə 25 mart 1995-ci ildə ABŞ-ın Oreqona ştatının Portlend şəhərində yaşayan Vord Kenninqem (Ward Cunningham) (şəkil 1) tərəfindən işlənmiş və veb-səhifələrin idarəsi, birbaşa veb-brauzerdən redaktə olunması üçün nəzərdə tutulmuşdur.



*Şəkil 1. Viki konsepsiyasının yaradıcısı Vord Kenninqem (Ward Cunningham)*




*Şəkil 2. Havay aeroportunda sərnişin avtobusları*

Viki havay dilində "daha tez" deməkdir. Havay aeroportunda sərnişinləri avtobuslara çağıran sürücülərin "viki-viki" deyərək adamları tələsdirmələri ezamiyyətini orada keçirən Kenninqemin diqqətini cəlb etmiş və yaratdığı texnologiyanı "Viki texnologiyası" adlandırmaq qərarına gəlmişdir (şəkil 2). Bunun üçün o, əvvəlcə Apple Hypercad proqramından istifadə etmişdir. Hər dəfə səhifələrdəki mətn redaktə olunarkən, bütün versiyaların xüsusi verilənlər bazasında (VB) saxlanılması proqramın əsas funksiyasını təşkil

edir. Belə ki, istənilən versiyanın VB-dan çağırılaraq yenidən tez bir zamanda veb-səhifədə bərpa olunması Viki texnologiyasının əsas prinsipidir.

"Viki texnologiyası" dedikdə, "sürətli informasiya texnologiyası" başa düşülür. Bəzən Viki texnologiyasını "canlı sənədlər texnologiyası" da adlandırırlar. Bir çox istifadəçilər "Wiki" sözünün "what I know is" ifadəsindən alındığını hesab edirlər ki, bu da "mən nə bilirəm" mənasını verir. Bu ifadə Viki texnologiyasının mənasını təyin edir: hər hansı biliyə malik olan istifadəçi həmin informasiyanı veb-saytda çap etməklə bu biliyi başqaları ilə bölüşdürür [2].

Viki texnologiyası İnternet istifadəçisinin veb-saytlarla qarşılıqlı əlaqəsini, İnternetdən çıxmadan səhifənin dəyişdirilməsini, informasiyanın strukturlaşdırılmasını və redaktə olunmasını nəzərdə tutur. Viki texnologiyası virtual məkanda müzakirələr aparmaq, VB, faylların saxlandığı xəzinə yaratmaq, poçt sistemindən istifadə və əməkdaşlıq etmək üçün alətdir. Viki texnologiyası əsasında qurulan virtual ensiklopediya bir axtarış sistemi kimi istifadəçilərin sorğuları əsasında tez bir zamanda informasiya xidməti göstərmək məqsədini daşıyır. Sistemdə verilən informasiya konkret olmaqla, yalnız hər hansı obyekt haqqında məlumat verilir.

Viki texnologiyasını təyin edən əsas şərtlər:

- veb-səhifələrdəki informasiyanın veb-brauzerdə birbaşa dəyişdirilmə imkanının olması və bütün versiyaların serverdə yadda saxlanılması;
- hiperistinadların generasiyasının avtomatlaşdırılması və veb-səhifələr arasında onların aktuallığının dəstəklənməsi;
- mətnlər üçün HTML dili əvəzinə ona oxşar, lakin daha sadə dilin istifadə edilməsi;
- düzəlişlər tarixçəsinin olması – viki-məqalələrin yarandığı andan başlayaraq istənilən dəyişikliyə baxmaq və bərpa etmək imkanının olması;
- hər kəs tərəfindən veb-məqalələrin redaktə oluna bilməsi.



Viki texnologiyası ilə fəaliyyət göstərən ən populyar İnternet-layihə Vikipediya (http://wikipedia.org) virtual ensiklopediyasıdır [3].

### 1.3. CMS MediaWiki sistemi

Viki layihələrin yaradılması və idarə olunması üçün proqram mexanizmi kimi **CMS MediaWiki** (http://www.mediawiki.org) sistemi istifadə olunur. CMS istifadəçi ilə veb-sayt arasında qarşılıqlı əlaqə texnologiyasıdır və informasiyanın kollektiv işlənməsi, saxlanması, strukturlaşdırılmasını nəzərdə tutur ("MediaWiki" sözü *multimedia* və *wiki* sözlərindən yaranmışdır).

MediaWiki saytının loqotipində kvadrat mötərizələrin göstərilməsi, proqramda keçidlərin yaradılmasında bu üsuldan («[[», «]]») istifadə edildiyini göstərir. Bu isə o deməkdir ki, o, HTML sintaksisi ilə müqayisədə daha sadədir [4].

MediaWiki proqramı alman tələbəsi Manqus Manke tərəfindən xüsusi Vikipediya üçün yazılmışdır. Əvvəl Perl dilində yazılmış UseModWiki proqramı istifadə edilirdisə, sonralar proqramın PHP dilində yazılması qərara alınır və MediaWiki adlandırılır.

CMS MediaWiki proqramının əsas təyinatı veb-səhifələrin idarə olunmasıdır. MediaWiki veb-saytlarla yanaşı şəkil və multimedia faylları ilə də işləyir. Həddən artıq çox istifadəçilərin fəaliyyət göstərdikləri böyük viki-saytlarda MediaWiki keşləmə əməliyyatını dəstəkləyir və Squid proksi-serverdən istifadə edir.

*Qeyd: Keşləmə, tələb olunma ehtimalı daha çox olan informasiyanın surətlərinin çıxarılması və xüsusi qovluqlarda yaddaşda saxlanması deməkdir.*

CMS MediaWiki sistemdən istifadə edərək İnternet məkanında veb-səhifələr yaradılır. CMS MediaWiki sistemi üçün nəzərdə tutulan proqram təminatları:

- veb-serverlər: Apache və ya IIS;

- PHP-nin 5.0 və onun yuxarı versiyaları;
- VB serveri – My SQL 4.0 verilənlər bazalarının idarəetmə sistemləri (VBİS) və onun yuxarı versiyaları;
- Postgru SQL 8.1 və yuxarı versiyaları.

Viki texnologiyası ilə yaradılan veb-səhifələrə riyazi düsturların daxil edilməsi üçün serverə LaTeX, Dvips və İmageMagick proqram paketlərinin daxil edilməsi vacibdir. Nəzərə almaq lazımdır ki, PHP 4.0 proqramı ilə yalnız Media Wiki 1.6.8 sistemini işlətmək mümkündür. VB serverinin daha rahat idarə olunması üçün PHP MyAdmin (MySQL) və ya PHP PgAdmin (Postgres) proqramlarından istifadə edilir.

Açıq redaktə imkanına malik olma MediaWiki sisteminin əsas üstünlüyü olub, digər layihələrin də yaradılmasında ondan istifadə olunmasına haqq verir. Viki-məqalələrdə aparılan bütün redaktələr Vikimediyanın VB-da saxlanılır. İstənilən redaktəni geri qaytarıb baxmaq və bərpa etmək mümkündür ki, bu da MediaWiki proqramının əsas üstün cəhətlərindən biridir. Lakin sistemin imkanları digər mənfi amillərin ortaya çıxmasına şərait yaradır:

- veb-səhifələrə müraciətin hər hansı mürəkkəb məhdudiyyət mexanizminin olmamağı;
- MediaWiki əsasında yaradılmış səhifələrdə hədsiz dərəcədə çox hiperistinadların olması və onların da müəyyən hissəsinin tam olmayan və ya ümumiyyətlə mövcud olmayan səhifələrə aid olması;
- istifadəçilərə redaktə azadlığı verən layihələrdə müəyyən qarışıqlığın, sistemliliyin pozulma hallarının olması və s.

MediaWiki İnternet üçün nəzərdə tutulmuş digər proqram təminatları kimi səhvlər və təhlükəsizlik problemlərinə malikdir. Odur ki, təhlükəsizlik tam təmin olunmursa və nəzarətdə saxlanılmırsa MediaWiki proqramının yüklənməsi məsləhət görülmür.



fooff

MediaWiki proqram mexanizmi ilə yaradılan populyar layihələrə əsasən İnternet-ensiklopediyalar daxildir: Sitizendium, Vikiinfo, Letopisi, Vikiznaniye, Vikitravel və s. Lakin MediaWiki proqram təminatı ilə yaradılmış ən nəhəng layihə Vikipediya azad, on-line ensiklopediyasıdır. Əgər ilk vaxtlar CMS MediaWiki yalnız Vikipediya üçün nəzərdə tutulmuşdursa, sonralar bu sistemdən GNU lisenziyası əsasında Vikimedia Fondu (http://wikimediafoundation.org – Wikimedia Foundation Inc.) qeyri-hökumət təşkilatı tərəfindən müxtəlif layihələrin və saytların yaradılmasında istifadə olunmağa başlanır.

MediaWiki azad proqram təminatı olduğundan, hər kəs bu proqramı İnternetdən öz kompyuterinə pulsuz yükləyərək ondan istifadə edə bilər. Bunun üçün proqramın sahibi olan Vikimedia Fondunun Mediawiki (www.mediawiki.org/wiki/Download/), veb-saytına daxil olaraq, "Dowload" düyməsindən istifadə etmək lazımdır. Digər proqram təminatlarında olduğu kimi MediaWiki proqramının yüklənməsində də problemlər ola bilər. Problemin yaranmasında əsas səbəb onun yüklənmiş olduğu serverin zəif olması və ya serverdə təhlükəsizlik problemlərin aradan qaldırılmaması ola bilər. Odur ki, proqramı yükləməzdən əvvəl serverin təhlükəsizliyi təmin edən məsələlər həll olunmalıdır [5].

Vikimedia Fondu MediaWiki proqramına heç bir zəmanət vermir. Odur ki, proqramı yükləməzdən öncə saytda MediaWiki ilə əlaqəli xəbərdarlıqlarla tanış olmaq vacibdir. Veb-saytda MediaWiki azad proqram təminatının bir-neçə versiyası təklif olunur. Proqramın istənilən versiyasını, 1.9.x və 1.10.x, həmçinin 1.9.0-dan əvvəlki versiyaları http://download.wikimedia.org/mediawiki/ saytından yükləmək mümkündür. Proqramın yüklənməsi və idarə olunması zamanı problemlər yarandıqda, digər köməkçi sistemə – irc.freenode.net serverinə (irc://freenode.net/mediawiki/) müraciət etmək olar.

MediaWiki proqramı Vikipediya və digər viki-layihələri idarə edən böyük serverlər qrupu üçün nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Proqramdan istifadənin sadəliyi, məhsuldarlığı, müxtəlif imkanlara malik olması və s. üstünlükləri bu proqramdan bir çox rəsmi və qeyri-rəsmi təşkilatların geniş istifadəsinə səbəb olmuşdur.

MediaWiki proqramından başqa, digər viki-proqramlar da mövcuddur: Wikka Wiki, WackoWiki, WikiNi, ZWiki, DokuWiki, PmWiki, WikidPad, TiddlyWiki, GTDTagglyWiki, FlexWiki, DidiWiki, JSPWiki və s. Son illər korporativ şəbəkələr üçün viki-proqramlar yaratmaqla məşğul olan müxtəlif kompaniyalar meydana gəlməkdədir: Confluence, Jot, Near-Time və s. Microsoft firması da artıq Viki texnologiyası ilə maraqlanmağa başlamışdır. Hal-hazırda Viki texnologiyasına Lockheed Martin, Telenor, Citigroup, Sony, Toshiba kimi məşhur şirkətlər müraciət edirlər [6].



# FƏSİL 2. VİKİPEDİYANIN ƏHƏMİYYƏTİ VƏ İMKANLARI

## 2.1. Vikipediya nədir?

Vikipediya layihəsi – Viki texnologiyası ilə, könüllülər tərəfindən yaradılan, dünyanın bir çox dillərində İnternet şəbəkəsi vasitəsilə azad yayımlanan ensiklopediyadır. Vikipediya ilk dəfə 15 yanvar 2001-ci ildə, ingilis dilində fəaliyyətə başlamışdır (şəkil 3).




*Şəkil 3. Vikipediynın loqotipi*

Vikipediyanın yaradıcıları amerikalı sahibkar **Cimmi Uels (Jimmy Wales)** (şəkil 4) və Ohayo universitetinin fəlsəfə doktoru **Larri Sanqerdir (Larry Sanger)** (şəkil 5). Onlar biliklərini paylaşan insanlar sayəsində meydana gələcək, dünyanın ən dolğun on-line ensiklopediyasını yaratmaq istəyirdilər. Bu təşəbbüs özünü doğrultmuş və bir neçə ildən sonra Vikipediyanı dünyanın ən populyar 10 saytı sırasına daxil etmişdir.

Vikipediya layihəsinin məqsədi dünyanın bütün dillərində informasiyaya malik olan ən nəhəng virtual ensiklopediya yaratmaqdır.

Vikipediya ensiklopediyası dünya İnternet istifadəçilərinin "kollektiv beynidir". Viki texnologiyası ilə yaradılan ensiklopediya sayta daxil olan hər bir kəsə istənilən informasiyanı dəyişmək imkanı verməklə, bu dəyişikliyi digər İnternet istifadəçilərində görünməsini təmin edir. Vikipediya – "Wikimedia Foundation İnc." qeyri-hökumət təşkilatı tərəfindən yaradılan və idarə edilən İnternet ensiklopediyasıdır.





*Şəkil 4. Amerikalı sahibkar Cimmi Uels (Jimmy Wales)*

*Şəkil 5. Fəlsəfə doktoru Larri Sanqer (Larry Sanger)*

Vikipediyanı İnternet istifadəçilərinin stolüstü kitabı adlandırırlar. Hal-hazırda 271 dildə fəaliyyət göstərən bu ensiklopediyada ay ərzində 4 mlrd. səhifə oxunur (şəkil 6).

Vikipediya on-line ensiklopediyası daxil olunan şəkil və media fayllarına görə bütün ensiklopediyaları xeyli arxada qoymuşdur. Elektron ensiklopediyanın multimedia imkanları yalnız şəkillər daxil etməklə kifayətlənmir, eyni zamanda məqalələri səsləndirməyə şərait yaradır. Vikipediyada nəşr edilmiş şəkillərin sayı 2010-cu ilin məlumatına görə artıq 4,7 milyondur. Ümumi halda isə Vikipediya layihələrində 6,7 mln. şəkil və video-fayllar yerləşdirilmişdir.

Vikipediya artıq praktiki olaraq bütün vacib sahələr haqqında müəyyən dərəcədə informasiyaya malikdir. Vikipediyada məqalələrin sayının digər ensiklopediyalarla müqayisədə həddən artıq çox olmasına baxmayaraq, bütün məqalələri düzgün və dolğun hesab etmək olmaz. Qaydaların çox sərt və bir çox dil bölmələrində onların daha da sərtləşdirməsi həyata keçirilsə də, hər hansı bir ensiklopediyada olduğu kimi Vikipediyada da təhrif olunmuş məlumatlar vardır.



Odur ki, məqaləni oxuyarkən onun hansı mənbəyə istinad etdiyinə də diqqət yetirilməlidir. Belə ki, həmin mənbələr etibarlı olmalı, məlumat kiminsə şəxsi bloquna və ya foruma istinad etməməlidir.




*Şəkil 6. Vikipediya 271 dildə fəaliyyət göstərən ən nəhəng ensiklopediyadır*

Vikipediyada bir çox hallarda bir cümlədən və ya bir neçə sözdən ibarət məqalələrə də rast gəlinir. Bu cür məqalələrin aşağı hissəsində "məqalə tam deyil, işlənməyə ehtiyacı var və s." sözlər yazılır. Bu səhifələri məqalə adlandırmaq düzgün olmasa da, onlar məqalə kimi ümumi məqalələr siyahısına daxil edilirlər. Lakin digər tərəfdən bu cür yalançı məqalələrin də yaradılmasının üstün cəhətləri vardır. Birinci, bu məqalələr istər-istəməz istifadəçinin diqqətini cəlb edir və oraya yeni informasiyanın daxil edilməsinə sövq edir. Digər tərəfdən istifadəçidə məqalədəki mövzu ilə bağlı maraq oyadır. Üçüncü, məqalənin yaradılmasını sürətləndirir. Müşahidələr göstərir ki, bu cür məqalələrin çoxu tez zamanda doldurulur. Vikipediya əhalisi artdıqca bu cür məqalələrin də sayı azalmaqdadır.

Vikipediya könüllü istifadəçilər tərəfindən daxil edilən məqalələr hesabına zənginləşir. Vikipediyada yerinə yetirilməsinə icazə verilən əməliyyatların siyahısı aşağıda göstərilmişdir:

1. İstənilən mövzuda məqalələr yaratmaq;
2. Mövcud olan məqalələrə əlavə mətn daxil etmək;
3. İnformasiyanı tam dəyişdirmək;
4. Orfoqrafik səhvləri düzəltmək;
5. Mövcud olan məqalələrə şəkillər əlavə etmək;
6. Faktiki informasiyanı pozmaq;
7. Mövcud olan məqalələri başqa dillərə tərcümə etmək.

İngilis, alman, fransız, rus və bir çox dillərdə fəaliyyət göstərən Vikipediya bölmələrində məqalələr Azərbaycan bölməsindəki məqalələrin sayından bir-neçə dəfə çoxdur. Odur ki, Azərbaycan dilində yeni məqalə yazarkən, həmin mövzuda digər dillərdə yazılmış məqalələrlə tanış olmaq mümkündür.

## 2.2. Vikipediyanın əhəmiyyəti

Vikipediya dünyanın ən böyük ensiklopediyasıdır. Onu İnternet istifadəçilərinin stolüstü kitabı adlandırırlar. 2008-ci ilin məlumatına görə Vikipediya müraciətlərin sayına görə sorğu resurslardan sonra ikinci yeri tuturdu. "Hitwise" sayğacının informasiyasını yayımlayan ClickZ (http://www.clickz.com/) saytının xəbər verdiyinə görə Vikipediya layihəsi İnternet mühitindəki sorğu saytlarının bütün trafiklərinin 3,84 %-ni əhatə edirdi. Birinci yerdə isə 4,46 % trafiklə Dictionary.com (http://dictionary.reference.com/) saytı dururdu. 2009-cu ilin məlumatında isə göstərilmişdir ki, trafiklərin sayına görə Vikipediya artıq bütün veb-saytlar içərisində birinci yerdə durur.

*Qeyd: Trafik dedikdə, müəyyən vaxt ərzində (gün, ay və s.) veb-sayta və ya onun müəyyən səhifəsinə daxil olan istifadəçilərin sayı nəzərdə tutulur.*

Nəzərə alsaq ki, "Wordsmith Merriam-Webster" lüğətinin on-line variantı (http://www.m-w.com/) 1,35 % trafikə malikdir, "Hitwise" şirkətinin mütəxəssislərinin bildirdiklərinə



görə Vikipediyanın bazardakı payı son bir il ərzində xeyli artmışdır [7].

Vikipediyanın populyar olmasının əsas səbəbi onun dinamik olmasıdır. Yəni digər ensiklopediyalarda son hadisələr haqqında, məsələn, hər hansı idman növü üzrə son yarışda kimin qalib gəldiyini öyrənmək operativ olaraq çətindir. Vikipediyada isə yarışların nəticəsi artıq bir-neçə dəqiqədən sonra məlum olur. Hətta bəzən hər-hansı cinayət hadisələri haqqında məlumatlarin Vikipediyaya polislərin xəbər tutmasından qabaq yazılması hallarına da rast gəlinmişdir [8].

Bir çox şirkət və təşkilatlar, eləcə də tanınmış şəxslər özləri haqqında müəyyən məlumatların Vikipediyada olmasında maraqlıdırlar. Məsələn, Microsoft korporasiyası özü və məhsulları haqqında məqalələrdə düzəlişlər aparmaq üçün xüsusi bu işə cəlb edilmiş mütəxəssislərə küllü miqdarda pul ödədiyini etiraf etmişdir. Hətta ABŞ konqresinin bəzi əməkdaşlarının siyasi mövzularda məqalələrə düzəlişlər etdiyi məlum olmuşdur. Göründüyü kimi Vikipediyada yaradılan informasiyanın qeyri-rəsmi olmasına baxmayaraq, onların məzmunu çoxlarını düşündürür və narahat edir.

Vikipediyadakı müşahidələr göstərir ki, Rusiya, Baltikyanı və bir çox digər Avropa ölkələrində Təhsil və Sənaye Nazirlikləri Vikipediyaya daxil edilmiş, özləri haqqında məlumatların məzmumunda maraqlıdırlar. Hətta Almaniyanın Yeyinti Sənayesi, Kənd Təsərrüfatı Nazirlikləri və bir sıra nazirliklər Vikipediyanın alman dili bölməsində informasiyanın keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə həyata keçirilən layihəni maliyyələşdirməyə hazırlaşırlar. Vəsait müəyyən sahədə məqalələrin təkmilləşdirilməsində və yeni məqalələrin yaradılmasında iştirak edən mütəxəssislərin axtarışına və onların maaşlarının ödənilməsinə sərf ediləcəkdir. Layihənin rəhbəri olan Florian Qerlax bildirmişdir ki, Vikipediyanın populyarlığının artması məqalələrin yaradılmasında və redaktəsində iştirak edən müəlliflərinin sayının artırılmasını tələb edir [9].

Vikipediyanın əhəmiyyətindən danışarkən, ilk növbədə nəzərə alınmalıdır ki:

1. Vikipediya müxtəlif dillərə malik olduğundan və məqalələrə müxtəlif hipermətnlər daxil edildiyindən hər kəs virtual ensiklopediyanın təşkilində iştirak edə bilər. Hər bir məqalə digər dillərdə analoqa malik olduğundan beynəlxalq istinadlardan istifadə etməklə onlara əsaslanmaq mümkündür [10].
2. Vikipediyadakı məqalələr azad istifadəyə və düzəlişə malikdirlər. Ensiklopediyanın bütün məqalələri və faylları sayta GNU FDL (http://www.gnu.org/licenses/fdl.html) lisenziyası altında daxil edildiyindən, bu məqalələrdən götürülmüş hər-hansı mətn də həmin lisenziyaya malik olmalıdır [11].
3. Vikipediyada müəyyən edilmiş «neytral mövqe» qaydası hadisə və fikirlərin plüralizmə uyğun və qərəzsiz işıqlandırılmasını tələb edir.
4. Vikipediyaya daxil edilmiş informasiya tədricən dəyişilmək tendensiyasına malikdir.
5. Xüsusiləşdirilmiş, müxtəlif növ informasiyanı (mətn, şəkil, səs) Vikipediyada çəkinmədən saxlamaq olar.
6. Mübahisəli məqalələr və münaqişə yaradacaq informasiya Vikipediyada çox azdır və müraciət olunduqda onların ləğv edilməsi mümkündür. Vikipediyada neytral məqalələr daha davamlıdırlar.

İnternet, ilk növbədə isə Vikipediya, passiv informasiya toplanması üçün nəzərdə tutulmayıbdır və onun müxtəlif mövzulu inşaların, kurs işlərinin, məqalələrin və s. elmi sənədlərin hazırlanmasında istifadə edilməsi artıq adi haldır. Vikipediya on-line ensiklopediyası istifadəçiləri yeni texnologiyalarla, son tədqiqat nəticələri ilə, elmi dairələrdə istifadə olunan yeni mənbələrlə tanış etməklə yanaşı, istənilən mövzuda daha düzgün və əsaslandırılmış rəy əldə etmək üçün müzakirələrdə istifadə etməyə, müqayisəli və tənqidi analiz aparmağa icazə verir [12].



**2.3. Vikipediya fəlsəfəsi**

Ensiklopediyanın əsas tələbi yazılan məqalələrin və əlavə edilən biliklərin neytral nəzər nöqtəsindən (NPOV – http://en.wikipedia.org/wiki/Wikipedia:Neutral_point_of_view) çıxış etməsidir. Yəni burada "...ən gözəl şəhər Bakıdır" kimi şəxsi fikirlərə yer olmamalıdır.

Daha bir vacib məqam müəllif hüquqlarıdır. Əgər əlavə edilən məqalə, şəkil və ya media faylının müəlliflərinin adı göstərilmirsə onun ensiklopediyadan xaric olunma ehtimalı böyükdür. Vikipediyanı vandallardan qorumaq məqsədi ilə xüsusi prinsiplərə riayət etmək hər bir Vikipediya istifadəçisinə tövsiyə edilir. Vandal dedikdə, Vikipediyadakı səhifələri və mövcud olam məqalələri bilərəkdən korlayan istifadəçilər nəzərdə tutulur.

Vikipediyada sadə məqalələrin yazılması olduqca asandır və HTML səhifələrindən fərqli olaraq, xüsusi biliklər tələb etmir. Mündəricatın yaradılması, keçid və şəkillərin əlavə edilməsi, şablonlar və digər funksiyalar avtomatlaşdırıldığından məqalələri qısa müddət ərzində asanlıqla yaratmaq mümkündür. Daha mürəkkəb məqalələr yaradarkən HTML teqlərindən və PHP dilindən istifadə etmək mümkündür [13].

*Qeyd. HTML (Hypertext Markup Language) – veb-səhifənin növünü və funksiyasını təyin edən diskriptorlar əsasında yaradılmış dildir. Deskriptor (teq) – kodlaşdırılmanın əsas elementi kimi HTML standartında qəbul olunmuş işarələrdir.*

***2.3.1. Vikipediyanın beş əsas prinsipi***

Vikipediya virtual cəmiyyət olduğu üçün onun öz qaydaları və məhdudiyyətləri vardır. Belə ki, Vikipediya maraqlara xidmət edən klub deyil və Vikipediya iştirakçıları arasında şəxsi münasibətlər Vikipediyada müzakirə oluna bilməz.

Vikipediyada baş verən bütün müzakirələr yalnız Vikipediyanın inkişafı naminə olmalıdır və müzakirələrin sonunda konsensus əldə edilməlidir. Odur ki, şəxsi müstəviyə

keçən bər hansı bir müzakirə idarəçilər tərəfindən dayandırılır. Vikipediyanın əsas qaydasına görə müzakirələrdə müəllif deyil, məqalə müzakirə edilməlidir. Müzakirə zamanı digər istifadəçilərə qarşı təhqir, istehza, böhtan dolu yazılarla çıxış edən istifadəçilərə isə xəbərdarlıq edilir. Vikipediyadakı müzakirələr açıq aparılır – müzakirə yazılarını hər kəs oxuya və müzakirəyə qoşula bilər. Odur ki, şəxsi münasibətlər və təhqirlər Vikipediyanın ümumi işinə xələl gətirir və digər istifadəçiləri işlərindən yayındırır.

Vikipediyanın qaydalarında deyilir: "Hər bir istifadəçi layihədə normal işgüzar əhval-ruhiyyənin yaradılmasına xidmət etməlidir. Müzakirələr zamanı istifadəçiyə təzyiq göstərmək, münaqişələrə başlamaqla Vikipediyaya yaraşmayan ab-hava yaratmaq qadağandır və istifadəçinin cəzalanmasına səbəb ola bilər. Vikipediyada fəaliyyət göstərən hər bir istifadəçinin fəaliyyəti Vikipediyanın ümumi nüfuzuna təsir edir. Qayğıkeş olun, nizam-intizama riayət edin, istifadəçilərin ləyaqətinə hörmət edin. Müzakirələr zamanı şəxsi zəmində təhqiredici və alçaldıcı replikaların istifadəsi qəti qadağandır.

Bu hal müşahidə olunarsa istifadəçi ilkin müzakirə aparmadan dərhal uzunmüddətli və ya qeyri-müəyyən müddətə bloklana bilər".

Vikipediyada istifadəçilərə qarşı təhqiredici və alçaldıcı fəaliyyətlər hesab edilir:

- istifadəçinin məqalə yaza bilməməsini və Vikipediyaya layiq olmamasını yazmaq;
- istifadəçinin yaşı, cinsi, milli mənsubiyyəti, dini, mənsub olduğu sosial qrup, ixtisası ilə bağlı istehzalara yol vermək və təhqir etmək;
- sübut olmadan istifadəçini yalançılıqda və ya düzgün redaktə edə bilməməkdə günahlandırmaq;
- istifadəçilərin ünvanına təhqiredici yazılar yazmaq və ya özünü onlardan üstün saymaq;
- bilərəkdən istifadəçinin adını təhrif etmək;



- istifadəçinin fiziki və əqli qüsurllara malik olmasını bildirmək və s.

Vikipediyanın fəaliyyəti beş əsas prinsipə söykənir:

1. *Vikipediya bir ensiklopediyadır.* Vikipediya mübahisə meydanı, şəxsi İnternet səhifəsi, hər hansı qəzet saytı, reklam lövhəsi, xatirələr kitabçası, sınaq "poliqonu", hiperlinklər (həm xarici, həm də daxili) toplusu deyil. Burda şəxsi düşüncələr yazmaq, fikirlər yürütmək, subyektiv mülahizələrinizi bölüşmək olmaz. Vikipediya mümkün qədər dəqiq və şəffaf informasiya bazası olmalıdır.

2. *Vikipediyada məqalələr bitərəflik nöqteyi nəzərindən yazılmalıdır.* Bu o deməkdir ki, məqalə yazılarkən maksimum obyektiv olmaq lazımdır. Məqalədə subyektivliyə yol verilməməlidir. Əgər hər hansı mövzuya dair bir neçə versiya mövcuddursa, onların hər biri bərabər hüquqlu sayılmalı, bir versiyanın doğru, digərinin isə səhv olduğu iddia edilməməlidir.

3. *Vikipediya sərbəst və pulsuzdur.* Vikipediya GFDL – "Azad Sənədlər Lisenziyası"na tabedir və uyğun şəkildə paylana və köçürülə bilər. Vikipediya heç bir rəsmi qurumun nəzarəti altında deyil və hər bir cümlə və ya söz digər istifadəçilər tərəfindən dəyişdirilə bilər. Müəllif hüquqlarını və GFDL lisenziyası pozuntusuna yol açan informasiyanın daxil edilməsi qadağandır.

4. *Vikipediyada mübahisəli məqalə ətrafında müzakirə aparıla bilər.* Bu mübahisələrdə Vikipediya iştirakçıları ilə hər zaman hörmətlə rəftar edilməlidir. Mübahisə zamanı istifadəçi fikrini isbat edə biləcək mənbələrə malik olmalıdır. Əgər onlar yoxdursa administrator digər tərəfin haqlı olduğunu düşünə bilər. Səsvermə və ya buna bənzər hallarda müxtəlif istifadəçi adlarından istifadə etmək qadağandır. İstifadəçi fikrini açıq və rahat bir şəkildə ifadə edə bilməlidir.

5. *Vikipediyanın xüsusi qanunları yoxdur,* yalnız bu beş prinsipə əməl etmək kifayətdir. İstifadəçi məqalələrə düzəlişlər etməkdən, bu məqalələrə əlavə edilən informasiyanın səhv olacağından qorxmamalıdır. İstənilən məqalənin köhnə versiyası yaddaşda saxlanılır. Heç kimin onu silməyə ixtiyarı

yoxdur. Yəni istifadəçi bilərəkdən və ya təsadüfən Vikipediyada hər hansı məqaləni korlamış olarsa, bu məqaləni hər zaman bərpa etmək mümkündür. Belə ki, ensiklopediyaya daxil edilən hər hansı məqalə, şəkil, media-fayl və redaktələr Vikipediyanın yaddaşında saxlanılır və hətta administratorlar onları silsələr belə, bu materiallar Vikipediyanın arxivinə "göndərilir" və lazım olduqda bərpa edilir [14].

### *2.3.2. Vandalizm*

Vandalizm Vikipediyanın mötəbərliyinə və nüfuzuna qəsdən xələl yetirmək məqsədi ilə məqalələrin məzmununun silinməsi, zərərli əlavələrin edilməsi, Vikipediya istifadəçilərinin təhqir edilməsi məqsədini güdən fəaliyyətdir. Vandalizm özünü əsasən məqalələrə yalan məlumatların daxil edilməsində və ya məqalənin mövzusuna tamamilə yad olan mətn və şəkillərin səhifədə dəyişdirilməsində göstərir. Təcrübəsizlikdən və ya bilməyərəkdən məqalənin məzmununda yanlış düzəlişlərin edilməsi vandalizm kimi dəyərləndirilmir. Belə hallar baş verdikdə istifadəçilərə müəyyən xəbərdarlıqlar edilir.

Əslində, vandalizm Vikipediya üçün elə də böyük təhlükə deyil. Yuxarıda deyildiyi kimi, məqalədə edilmiş bütün dəyişikliklər xüsusi VB-da saxlanılır. Nəticədə vandal informasiyanı birdəfəlik məhv edə bilmir. Məqalədə vandalizm əlamətlərini görən istənilən istifadəçi onun sonuncu versiyasından imtina edərək əvvəlki normal versiyanı bərpa edə bilər. Statusundan asılı olmayaraq bütün istifadəçilər bu hüquqa malikdirlər. Vandala xəbərdarlıq etmək üçün onun müzakirə səhifəsinə "{{Vandalizm}}" şablonu yerləşdirmək kifayətdir.

Hazırda Vikipediyada hətta ən böyük vandalizmin nəticələri belə, bir qayda olaraq, qısa zaman içində aradan qaldırılır. Vandalizmlə məşğul olanların saylarının Vikipediyanın inkişafına təmənnasız xidmət edənlərin sayından az olması və ya təxminən eyni olması, istifadəçilərə yaradılmış müxtəlif şərait və verilmiş hüquqlar sonda ikincilərin xeyrinə işləyir. Belə ki, məqalələrə zərər vurmaq bu zərəri aradan



qaldırmaqdan daha çox vaxt tələb edir. Vikipediyada təsadüf edilən vandalizm halları məqsəd və üsullarına görə müxtəlif ola bilər [15].

***Məqsədlərinə görə vandalizmin növləri:***

* Zarafat xatirinə vandalizm – məzmunu zarafatdan ibarət olan məqalələrin yaradılması və ya mövcud məqalələrə bu tip mətnlərin əlavə edilməsi.

* Diqqəti cəlb etmək məqsədi ilə törədilən vandalizm – məqalələrə təhqiredici mətnlərin, şəkillərin əlavə olunması, təhqiramiz məqalələrin yaradılması.

* Spam-vandalizm – reklam məqsədi ilə məqaləyə onun məzmununa uyğun gəlməyən xarici keçidlərin əlavə olunması.

* İdeoloji vandalizm – Vikipediyanın tərəfsizlik prinsipinə xələl gətirən təhqiramiz məqalələrin yaradılması, düzəlişlərin edilməsi.

* Mistifikasiya – Vikipediyanın adına zərbə vurmaq və ondan istifadə edənləri xoşagəlməz vəziyyətdə qoymaq məqsədi ilə yalan məlumatların əlavə olunması.

* Qisas məqsədi ilə törədilən vandalizm – müxtəlif səbəblərlə Vikipediya cəmiyyətindən və ya onun müəyyən üzvlərindən qisas almaq üsulu.

* Robin Qud vandalizmi – "xeyir vermək naminə zərər vurmaq", məqalənin düzgün olmadığını nümayiş etdirmək üçün müəyyən qanunların pozulması, məqalələrin qeyri-normativ leksikalı, naturalistik təsvirlərlə zəngin hissələrinin silinməsi.

***Üsullarına görə vandalizmin növləri:***

* Uşaq vandalizmi – dəfələrlə təkrar-təkrar eyni mətnin əlavə olunması və ya səhifənin bütün məzmununun silinməsi. Adətən, Vikipediyanın imkanlarını yoxlamaq və ya arzuolunmaz məqaləni silmək məqsədi ilə törədilir.

* Çətin müəyyən olunan vandalizm (çox vaxt həm də nankor vandalizm adlandırılır) – qəsdən az sayda yalan informasiyanın əlavə olunması və ya mövcud informasiyanın (keçidlərin, tarixlərin, ayrı-ayrı simvolların) dəyişdirilməsi.

* Görünməz vandalizm – səhifənin başlanğıc koduna veb səhifənin özündə görünməyən təhqiramiz əlavələrin edilməsi və ya yalan məlumatların qeyd olunması.

* Ad dəyişdirmə vandalizmi – səhifələrin adlarının təhqiramiz, mənasız və ya açıq-aydın məqalənin məzmununa uyğun gəlməyən adlara dəyişdirilməsi.

* İstiqamətləndirmə vandalizmi – istiqamətləndirmənin təhqiramiz məqalələrə və ya şəkillərə yönəldilməsi, eləcə də mənasız və təhqiredici istiqamətləndirmələrin yaradılması.

* Şəkil yüklənilməsi vandalizmi – ədəbsiz və ya təxribatçı şəkillərin yüklənilməsi.

* Müəllif hüquqları vandalizmi – zərər vurmaq məqsədi ilə müəllif hüquqları ilə qorunan mətnin müəllifin icazəsi olmadan təkrar-təkrar məqaləyə əlavə olunması.

* Bot vasitəsilə vandalizm – çoxlu sayda (yüzlərlə, minlərlə) səhifənin xüsusi proqram (bot) vasitəsilə dəyişdirilməsi. Bu cür vandalizmin zərərli nəticələri də adətən avtomatik (xüsusi proqramlarla) aradan qaldırılır.

* Geriyə qaytarma vandalizmi – düzgün redaktələrin geri qaytarılaraq ləğv edilməsi, eləcə də vandalizm xarakterli redaktələrin bərpa olunaraq səhifəyə qaytarılması.

* Şablonların və istifadəçi qutularının vandalizmi. Bu cür vandalizm eyni vaxtda müvafiq şablonların istifadə olunduğu bütün səhifələrə zərər vurduğuna görə təhlükəlidir.

### *2.3.3. Vandalizm hesab edilməyən fəaliyyət*

Bəzi hərəkətlər vandalizmə oxşasa da, vandalizm sayılmır. Bunlar aşağıdakılardır:

* Təcrübəsiz istifadəçinin sınaq dəyişiklikləri. Təcrübəsiz istifadəçi "redaktə et" düyməsini görərkən doğrudan da nəyisə redaktə edə biləcəyinə əmin olmaq üçün düyməyə basıb mətnə mənasız əlavələr edir. Belə olan halda daha təcrübəli istifadəçilər onu salamlamalı və ona qaralama dəftərinə istiqamətləndirmə verməlidirlər. Bunun üçün xüsusi şablonlardan istifadə edilir. Məsələn, təcrübəsiz istifadəçi bilmədən ensiklopedik məqalələrə lazımsız informasiya daxil



edərsə və ya başqalarının şəxsi səhifələrində redaktlər edərsə {{tövsiyə}} şablonundan istifadə olunur. Şablon çox zaman administratorlar tərəfindən istifadəçinin müzakirə səhifəsinə daxil edilir.

* Təcrübəsiz istifadəçinin genişləndirilmiş sınaq dəyişiklikləri. Bəzən təcrübəsiz istifadəçi məqaləni mənasız məqaləyə çevirə və ya tamamilə oxunaqsız hala sala biləcəyini yoxlamaq istəyir. Onun üçün sadəcə Viki texnologiyasının imkanlarını öyrənmək maraqlı olur. Əgər onun bu dəyişiklikləri ləğv olunsa və ya ona tövsiyə xarakterli informasiya göndərilsə bu fəaliyyətinə son qoyar. Amma təcrübəsiz istifadəçi bundan sonra da bu cür "sınaqlarını" davam etdirərsə, onun hərəkətləri artıq vandalizm sayılır.

* Vikinin imkanlarının öyrənilməsi. Bəzi istifadəçilər Vikipediyanın imkanlarını özləri üçün qısa zamanda müəyyənləşdirə bilmirlər. Bundan ötrü onlara daxili və xarici keçidlər, cədvəllər və s. üzərində sınaqlar aparmağa vaxt lazım olur.

* Tərəfsizliyə əməl olunmaması. Tərəfsizlik nöqteyi-nəzərindən məqalələr yazmaq o qədər də asan deyil. Hətta Vikipediyanın çox təcrübəli istifadəçiləri belə bəzən bu mənada qüsurlu məqalələr yaradırlar. Demək olar ki, hər bir insan öz qənaətlərini (bəzən səhv olan) digərlərinin qənaətlərindən üstün tutur. İnsan təbiətinin bu xüsusiyyəti müsbət xüsusiyyət kimi qiymətləndirilməsə də, vandalizm hesab olunmur.

* Cəsarətli redaktələr. Ən əsas Vikipediya prinsiplərindən biri - "cəsur ol!" prinsipidir. Bəzi vikipediyaçılar məqalələrin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə onlarda ətraflı düzəlişlər edirlər. Redaktə zamanı məqalədəki mətnin böyük bir hissəsinin silinməsi və ya ciddi surətdə redaktə olması heç də hər zaman vandalizm demək deyil. Əgər bu cür resaktələr məqalənin ümumi keyfiyyətinin yüksəlməsi üçün edilirsə, təctübəli vikipediyaçılar redaktələri yalnız alqışlayırlar.

* Şəxsi tədqiqatların əlavə olunması. Şəxsi tədqiqatların əlavə olunması Vikipediyada bu fəaliyyəti qadağan edən prinsipə zidd olsa da, vandalizm kimi dəyərləndirilmir.

* Səhvlər. Səhvlər vandalizm sayılmır. Bu zaman məqalə diqqətlə araşdırılmalı və mətndəki şübhəli məlumatlar məqalə müəllifləri ilə müzakirə edilməlidir.

* Qeyri-ensiklopedik redaktələr. Məqalələrə edilən qeyri-adi üslublu redaktələr onların müəlliflərini vandal adlandırmağa əsas vermir. Məsələn, istifadəçilərdən hansısa məqalədə dəyərli düzəlişlər edəndən sonra qısa xülasədə "Salam, mən Əliyəm!" yazırsa, o vandal deyil. Sadəcə təcrübəsiz istifadəçidir. Belə istifadəçilərə dostcasına qısa xülasəni nə formada yazmaq lazım olduğu başa salınmalıdır [16].

### 2.4. Vikipediya əhalisi

Vikipediyada ensiklopediyasının saytına daxil olan istifadəçiləri bir-neçə qrupa bölmək olar: passiv istifadəçilər, anonim istifadəçilər, qeydiyyatdan keçmiş istifadəçilər, administratorlar, bürokratlar, stüardlar (şəkil 7). Layihədə həmçinin, ayrıca psevdoistifadəçilər – botlar mövcuddurlar. Botlar avtomatik proqramlar olub məqalələrdə texniki səhvlərin düzəlişini aparırlar.

***Passiv istifadəçi*** – Vikipediyadan yalnız hər-hansı bir informasiya əldə etmək üçün istifadə edən şəxs nəzərdə tutulur. Passiv istifadəçilər ümumi Vikipediya istifadəçilərinin böyük hissəsini təşkil edir.

***Anonim istifadəçi (Ananimous)*** – Vikipediyada qeydiyyatdan keçmədən fəaliyyət göstərən – yeni məqalə yaradan, mövcud məqalələrdə redaktələr aparan (o halda ki, bu məqalə administrator tərəfindən xüsusi müdafiə olunmur), müzakirələrdə iştirak edən istənilən şəxs nəzərdə tutulur. Anonim istifadəçi digər istifadəçilərdən fərqli olaraq Vikipediya bazasına şəkil, video və audio fayl daxil edə bilməz. Anonom istifadəçilərin qeydiyyatdan keçmiş istifadəçilərdən fərqli olaraq şəxsi səhifəsi olmur.

***Qeydiyyatdan keçmiş istifadəçi*** – anonim istifadəçi ilə müqayisədə daha çox hüquqa malikdir. Məsələn, o, Vikipediyanın interfeysini şəxsən özü üçün quraraq, müzakirələrdə şəxsi imzası ilə iştirak edə bilər. Qeydiyyatdan



keçmiş istifadəçi öz şəxsi səhifəsini əldə edərək, bu səhifədə özü haqqında və öz şəxsi fikirləri haqqında söhbət aça bilər. Digər istifadəçilər isə istifadəçinin müzakirə səhifəsinə müxtəlif məlumatlar yazmaqla onu müzakirələrə dəvət edə bilər. Əgər qeydiyyat zamanı elektron ünvan göstərilmişdirsə, vacib xəbərlər birbaşa istifadəçinin e-mail ünvanına göndərilir. Qeydiyyatdan keçmiş istifadəçi “müşahidələrin siyahısı” adı altında xüsusi bölmə yarada bilir ki, buraya onu maraqlandıran səhifələr, nəzarətdə saxlamaq istədiyi məqalələrin siyahısı daxil edilir. Nəticədə istifadəçi bu məqalələrdə baş verən istənilən dəyişikliklər barədə vaxtında xəbər tutmaq imkanına malik olur.



*Şəkil 7. Vikipediya dünyanı tutmaq fikrindədir*

***Administrator (idarəçi)*** – adi istifadəçilərə nisbətən daha çox hüquqa malikdir. Administrator səhifəni adi istifadəçilər tərəfindən aparılan dəyişikliklərdən qoruya bilər, səhifəni ləğv edə, istifadəçiləri bloklaya (istifadəçinin qeydiyyat adına və ya

İP ünvana görə) və əksinə, səhifələrin qorunmasını ləğv edə, silinmiş məqalələri bərpa edə və istifadəçilərə qoyulmuş bloklamanı ləğv edə bilər. Bundan başqa, administrator Vikipediyanın ümumi interfeysini dəyişə bilər və sistem məlumatlarını idarə edə bilərlər.

***Bürokrat*** – istifadəçilərə administrator və bürokrat hüququnu vermək kimi texniki imkana malik olan şəxsdir. Lakin bürokrat bu hüquqları ala bilməz. Bunu yalnız stüard və ya baş layihəçi edə bilər.

***Stüard*** – istifadəçilərin Vikipediyaya istənilən müraciət hüquqlarını dəyişmək hüququna malik şəxsdir. Stüard da bürokrat kimi, digər istifadəçilərə administrator və bürokrat hüququnu vermək kimi texniki imkana malik olan istifadəçidir. Lakin bürokratdan fərqli olaraq, stüard bu hüquqları ləğv edə bilir.

***Baş layihəçi*** – Vikipediyanın baş layihəçisinin hüquqları stüardın hüquqları ilə eynidir. Lakin o, sistemi əsaslı dəyişmə hüququna malikdir. Bəzi layihəçilər hətta, Vikipediyanı idarə edən serverlərə daxil olma hüququna da malikdirlər.

Vikipediyanın bütün hüquqları isə "Vikipediya" layihəsinin əsasını qoymuş Cimmi Uelsin əlində toplanmışdır. Vikipediyada yaranan istənilən problemin həlli və bütün mümkün hüquqlar bu yeganə şəxsdə olduğundan, onu Vikipediyanın kralı adlandırırlar. Cimmi Uelsin istifadəçilərə və təşkilatçılara müraciət edərək "Biz İnterneti tutduq, sizin köməyinizlə dünyanı tutacağıq" cümləsi ilk baxışda lovğalıq kimi görünsə də, Vikipediyanın müəllifi haqlıdır: bu layihə kimi, milyonlarla istifadəçilərin müraciət etdiyi və hər kəsə pulsuz olaraq bilik bəxş edən digər bir layihə təsəvvür etmək çətindir.



## FƏSIL 3. VİKİMEDİA FONDU

Vikimedia Fondu (Wikimedia Foundation Inc.) qeyri kommersiya təşkilatıdır və 2003-cü ilin 20 iyun tarixində Cimmi Uels tərəfindən yaradılmışdır. Vikimedia Fondu Vikipediya azad ensiklopediyası və MediaViki platforması əsasında işləyir.

Vikimedia Fondunun layihələrini dəstəkləmək, nəzarətdə saxlamaq və idarə etmək məqsədi ilə MetaViki (http://meta.wikimedia.org/wiki/Meta) veb-saytı yaradılmışdır. Fond və onun layihələri ilə bağlı sualları müzakirə etmək üçün http://www.mail.wikipedia.org veb-saytına və ya http://www.meta.wikimedia.org/wiki/IRC_channels səhifəsinə müraciət etmək lazımdır (şəkil 8).




*Şəkil 8. Vikimedia Fondunun veb-saytı*

Fondun əsas ofisi ABŞ-ın Florida ştatında yerləşir. Vikimedia Fondunun digər ölkələrdə də filialları fəaliyyət göstərir: Almaniya, Fransa, İtaliya, Polşa, Serbiya, İsveçrə, Niderland, İsrail və Tayvan:

- "Wikimedia Deutschland" (Almaniya), yaranma tarixi – 13 iyun, 2004-cü il;
- "Wikimédia France" (Fransa), yaranma tarixi – 23 oktyabr, 2004-cü il;
- "Wikimedia Italia" (İtaliya), yaranma tarixi – 17 iyun, 2005-ci il;
- "Wikimedia Polska" (Polşa), yaranma tarixi – 14 avqust, 2005-ci il;
- "Wikimedia Србије и Црне Горе" (Serbiya və Çernoqoriya), yaranma tarixi – 3 dekabr, 2005-ci il;
- "Wikimedia CH" (İsveçrə), yaranma tarixi – 14 may, 2006-cı il;
- "Wikimedia Nederlanden" (Niderland), yaranma tarixi – 24 sentyabr, 2006-cı il.

Gələcəkdə digər ölkələrdə də təşkilatın filiallarının yaradılması gözlənilir.

### 3.1. Vikimedia Fondunun serverləri

Vikimedia Fondunun Vikipediya və digər viki-layihələrini idarə edən 300 server ABŞ-ın Florida ştatının Tampa şəhərində, 26 server Avropada (Amsterdam), 23 server isə Cənubi Koreyada yerləşir (şəkil 9, 10).



*Şəkil 9. Wikimedia Foundation Inc. təşkilatının serverləri*






*Şəkil 10. Wikimedia Foundation Inc. təşkilatının Viki texnologiyası əsasında işləyən serverlərinin dünyada yerləşdirilməsi*

Vikipediyanın işini təmin edən serverlər MySQL verilənlər bazasının idarəetmə sistemləri (VBİS) tərəfindən idarə olunur və metaverilənlər də daxil olmaqla əsas informasiyanı özlərində saxlayırlar. Mətnlər Apache HTTP serverlərdə saxlanılır. Apache serverlər istifadəçilərin sorğuları əsasında VB-dan informasiyanı əldə edir və MediaWiki proqramı vasitəsilə Vikipediya istifadəçilərinə göndərir. Qeydiyyatdan keçməyən istifadəçilərin sorğuları və eləcə də təkrar sorğular Squid serverlər tərəfindən emal edilir. Onların effektivliyi Apache serverlərinin effektivliyinin 75%-ni təşkil edir (şəkil 11).

*Qeyd. Metaverilənlər (Metadata) – verilənlər haqqında informasiyadır. Metaverilənlər verilənlərin strukturunu və onların emalı metodlarını təsvir edir.*



*Şəkil 11. Vikimedia Fondu tərəfindən idarə olunan serverlər arasında qarşılıqlı əlaqə*

### 3.2. GFDL lisenziyası

Vikipediya yalnız müxtəlif mövzuda (elmi, mədəni, tarixi, siyasi və s.) informasiyanın yaradılması ilə deyil, eyni zamanda bu informasiyanın azad yayılmasına imkan yaradır. Bunu nəzərə alaraq, Vikipediya **GNU Free Documentation License** (GNU azad sənədlərin lisenziyası – GFDL) lisenziyası əsasında işləyir. GFDL lisenziyası Vikipediya materiallarının istənilən şəxs tərəfindən və istənilən kimi istifadə etməyə icazə verir, bir şərtlə ki, ilkin müəllif göstərilir və materiallar bu lisenziyanın şərtləri üzrə yayılır. GFDL kopileft-lisenziya olub, azad proqram təminatı fondu tərəfindən işlənmişdir. Məqsəd, istifadəçiyə proqramları köçürmək, şəklini dəyişdirmək və yaymaq hüququnun verilməsi (müəlliflik hüququ qanunlarına görə bunlar qadağan olunublar), eləcə də bütün törəmə



proqramların istifadəçilərinin göstərilən hüquqlara malik olmasını təmin etməkdir [17].

*Qeyd: Hüquqların "irsən keçməsi" prinsipi "kopileft" (copyleft) adlanır. Riçard Stollmen tərəfindən təklif edilmişdir.*

GFDL dərsliklər, dərs vəsaitləri və kompyuter proqramlarının müşayiət etdiyi digər sənədlər üçün nəzərdə tutulmuşdur. GNU layihəsinin əsas təşkilatçı sponsoru Free Software Foundation (FSF) – azad proqram təminatı fondudur. FSF 1985-ci ildə yaradılmış qeyri-kommersiya təşkilatıdır. Riçard Stollmen tərəfindən yaradılan FSF azad proqram təminatı hərəkatını və GNU layihəsini dəstəkləmək məqsədi daşıyır.

FSF korporasiyalardan və qrant verən qurumlardan çox kiçik miqdarda ödənişlər alır. FSF kompyuter proqramlarını azad şəkildə istifadə etmək, nüsxəsini çıxarmaq, dəyişdirmək, öyrənmək, paylaşdırmaq və FSF istifadəçilərinin hüquqlarını qorumaq vəzifəsini yerinə yetirir. 2006-cı il FSF fond aktivlərinin 67%-i müxtəlif sponsorlar tərəfindən verilmişdir. Bu dəstək, FSF fəaliyyətini davam etdirməyə kömək edən əsas vasitələrdən biridir. FSF, İnternetdə danışıq, mətbuat və himayədarlıq azadlığını, şəxsi əlaqələr üçün şifrlənmiş proqramın istifadə hüququnu, və özəl inhisarçılar tərəfindən maneə qoyulmayan proqramların yazılma hüququnu dəstəkləyir.

FSF – azad proqram təminatı fondu Vikimedia Fondu (Wikimedia Foundation İnc.) nəzdinə fəaliyyət göstərir.

### 3.3. Vikilayihələr

Vikipediya on-line ensiklopediyasından başqa "Wikimedia Foundation Inc." təşkilatı Viki texnologiyası ilə yaradılan və idarə olunan doqquz törəmə layihəni də idarə edir:

1. VikiLüğət (http://wiktionary.org);
2. VikiSitat (http://wikiquote.org);
3. VikiKitablar (http://wikibooks.org);
4. VikiMənbə (http://wikisource.org);
5. VikiXəzinə (http://commons.wikimedia.org);

6. VikiNövlər (http://species.wikimedia.org);
7. VikiXəbərlər (http://wikinews.org);
8. VikiVersitet (http://wikiversity.org);
9. MetaViki (http://meta.wikimedia.org).

Törəmə layihələrdən başqa Vikipediya layihəsində müxtəlif funksiyaları yerinə yetirən digər əlavə layihələr də fəaliyyət göstərir (şəkil 12).




*Şəkil 12. Vikipediyanın törəmə və əlavə layihələri*

Əlavə layihələr Vikipediya qədər zəngin olmasalar da, onların da artıq İnternet məkanında öz fəal istifadəçiləri və hətta fanatları vardır və bu ensiklopediyalarda da məqalələrin sayı gün-gündən artmaqdadır. Vikipediyanın layihələri İnternetdə xəbər, informasiya, bilik mənbələrinə çevrilmişlər. Onların əsas fərqləndirici cəhəti isə Vikipediya ensiklopediyasında olduğu kimi operativlikdir. Layihələr bir-birlərindən təyinatlarına görə fərqlənsələr də Vikipediyanın tərəfsizlik, düzgünlük, etibarlı mənbələrin göstərilməsi və s. kimi əsas qaydaları onlar üçün də vacibdir.



### *3.3.1. VikiLüğət (Wiktionary)*

VikiLüğət (http://wiktionary.org) izahedici məqalələr, tezauruslar və tərcümələrin saxlandığı veb-saytdır. Bu layihə müxtəlif dillərdə hazırlanan azad lüğətlər üçün nəzərdə tutulmuşdur. Layihə 2002-ci ilin dekabrında yaradılmış və hal-hazırda 150 dildə fəaliyyət göstərir. 2010-cu ilin fevral ayına olan məlumata əsasən layihə 3 mln.-a yaxın məqaləyə malikdir. Ən çox məqalə ingilis və fransız dilindədir (1,5 mln.-dan çox məqalə). Daha sonra alman, polyak və rus dillərində daxil edilmiş məqalələr üstünlük təşkil edir. Bu dillərdən hər biri 200 mindən artıq məqaləyə malikdir. VikiLüğətin Azərbaycan bölməsində hələlik 1700 səhifə vardır.

Son zamanlar VikiLüğət layihəsi VikiMənbə ilə əlaqəli işləyir. Belə ki, VikiMənbə saytına istifadəçilər tərəfindən düzgün tələffüzü göstərən çoxlu sayda səs faylları yüklənmişdir və bu faylları artıq VikiLüğət vasitəsilə əldə etmək mümkündür.

### *3.3.2. VikiSitat (Wikiquote)*

VikiSitat layihəsi (http://wikiquote.org) aforizmlər, məşhur adamların söylədikləri, atalar sözləri, qanadlı, mnemonik ifadələr və devizlər saxlanan kataloqdur. Burada mənbəyi göstərilmiş sitatları müəllifin icazəsi olmadan istifadə etmək mümkündür. Həmin adamlar tanınmış şəxslər olduqda, onların məqalələrindən Vikipediyadakı eyni adlı məqalələrə keçid verilir.

Layihə 2003-cü ilin iyul ayında yaradılmışdır. İndiyə kimi 80 dildə fəaliyyət göstərir. Ümumi halda VikiSitatda 100 mindən artıq məqalə yerləşdirilmişdir. 2010-cu ilin may ayına olan məlumata əsasən ingilis dili bölməsində məqalələrin sayı 20 minə yaxındır. Azərbaycan dilində isə cəmi 145 məqalə vardır.

### *3.3.3. VikiKitablar (Wikibooks)*

VikiKitablar virtual layihəsi (http://wikibooks.org) elektron kitabların («e-books») hazırlanması layihəsidir. İdeyaya görə azad tərtib edilən kitabların və dərsliklərin xüsusi yeri olmalıdır. Burada toplanan informasiya əsasən tələbələr, müəllimlər, mütəxəssislər, tədqiqatçılar üçün nəzərdə tutulmuşdur. Layihə 2003-cü ilin iyul ayında yaradılmışdır. Ümumi halda 80 min hazır və 1000-ə yaxın yarımçıq kitabdan ibarətdir. Hal-hazırda bu layihədə həcmcə böyük olmayan məqalələr də mövcuddur, lakin gələcəkdə informasiya çoxaldıqca onların bir yerə yığılaraq kitab halında təqdim olunması gözlənilir. 60 dildə fəaliyyət göstərir. 2010-cu ilin may ayına olan məlumata əsasən ən çox kitab ingilis dilindəki bölmədədir. Bu bölmədə 2,486 kitab, 34,776 məqalə toplanmışdır. Azərbaycan dilində isə cəmi 115 elektron kitab vardır ki, onlarında çoxu qaralama halındadır.

### *3.3.4. VikiMənbə (Wikisource)*

VikiMənbə (http://wikisource.org) müəllif hüquqlarının qorunması haqqında qanunların aid edilmədiyi mətnlərin şəbəkə kitabxanasıdır. Başqa sözlə, azad yayımlanmasına icazə verilən müxtəlif mətnlərin saxlanması üçün nəzərdə tutulmuş çoxdilli layihədir. VikiMənbə 2003-cü ilin noyabr ayında yaradılmışdır.

Mətnlərin sayta yüklənməsi zamanı dəyişdirilməsinə ehtiyac yoxdur. Məsələn, tarix və ədəbiyyat mövzusunda məqalələr analizə məruz qala bilərlər, lakin həmin məqalələr olduğu kimi saxlanılır və dəyişdirilməsinə icazə verilmir. Saxlanılan məqalələrə misal olaraq klassik əsərləri, məlumat kitabçalarını, dərslikləri, monoqrafiyaları, elmi və publisistik məqalələri, müxtəlif mövzulu kitabları, kompyuter



proqramlarının kodlarını və bu kimi müxtəlif mətnləri göstərmək olar. Layihənin fəaliyyət göstərdiyi ilk zamanlarda bütün mətnlər (ivrit dilində yazılanlardan başqa) bir mənbədə saxlanılırdı. Lakin layihə böyüdükcə və dillərin sayı artdıqca layihənin dillər üzrə bölünməsinə qərar verildi. Hər-hansı bir dil bölməsindəki əsərin müxtəlif dillərə tərcümə edilərək VikiMənbənin müxtəlif bölmələrinə daxil edilməsinə icazə verilir [18].

2010-cu ilin may ayına olan məlumata əsasən VikiMənbədə ümumilikdə 600 minə yaxın məqalə toplanmışdır. Yenə də ən çox informasiya ingilis dilindəki bölmədədir – 145 min məqalə. Azərbaycan dilində məqalələrin sayı 1865 mindir.

### *3.3.5. VikiXəbərlər (Wikinews)*

VikiXəbərlər törəmə layihəsi (http://wikinews.org) ensiklopediya kontekstində cari hadisələr haqqında məlumat verən xüsusi İnternet-ensiklopediyadır.

Layihə 2004-cü ilin dekabr ayında fəaliyyətə başlamışdır və hal-hazırda 30 dildə mövcuddur. VikiXəbərlərdə indiyə kimi 60 minə yaxın xəbər nəşr edilmişdir. Digər layihələrdə olduğu kimi, burada da əsas şərt neytrallığın gözlənilməsidir.

Xarici mənbələrdən əldə edilmiş xəbərlər burada orijinal və ya qısa xülasə şəklində verilə bilər. Layihənin əsasən iki məqsədi vardır: digər nəşriyyatlara alternativ və azad xəbərlərin təqdim olunması və hər bir xəbərin diqqətlə yoxlanması.

VikiXəbərlər layihəsinin Azərbaycan bölməsi hələ mövcud deyildir. Odur ki, sayt VikiXəbərlərin ingilis dilindəki bölməyə yönəldilir.

### *3.3.6. VikiNövlər (Wikispecies)*

VikiNövlər adlanan Vikipediya layihəsi (http://wikispecies.wikimedia.org) əsasən təbiət (botanika və zoologiya) elmlərinə aiddir. Layihənin məqsədi dünyada olan bütün bioloji növlər haqqında verilənlər bazasının

hazırlanmasıdır. Hər bir canlı təbii ki, öz səhifəsinə malik olmalıdır. Bu baxımdan layihə, ilk növbədə botanika ilə məşğul olanlar və maraqlananlar üçün nəzərdə tutulmuşdur. Layihə 2007-ci ilin iyul ayında yaradılmışdır və ümumi halda 225 min məqaləyə malikdir. VikiNövlər layihəsinin Azərbaycan bölməsi mövcud deyildir və sayt ingilis dilindəki bölməyə yönəldilmişdir.

### *3.3.7. VikiXəzinə (Wikimedia Commons)*

Vikipediyanın VikiXəzinə layihəsi (http://commons.wikimedia.org) şəkillərin, səslərin, video-faylların və s. bu kimi informasiyanın saxlandığı qlobal xəzinədir. Xəzinə qlobal olduğundan onun dil prinsipinə əsasən bölünməsi vacib deyildir. VikiXəzinə azad istifadə üçün media-fayllar xəzinəsi kimi də tanınır. VikiXəzinəyə daxil edilən şəkil və media faylları lisenziyaya malik olmalıdırlar. Eləcə də daxil olunan informasiyanın mənbəyi və müəllifi mütləq göstərilməlidir. Əks halda fayl VikiXəzinənın administratorları tərəfindən silinir, lisenziyasız fayllar yükləyən istifadəçilərə isə xəbərdarlıq edilir. Xəbərdarlıqlara məhəl qoymadan lisenziyasız fayl yükləməyə davam edən istifadəçilərin həmişəlik bloklanma təhlükəsi vardır. Anonim istifadəçilərə, yəni qeydiyyatdan keçməyənlərə VikiXəzinədə fayl yükləmək qadağandır [19].

Layihə 2004-cü ilin sentyabrında yaradılmışdır. Layihəyə daxil edilmiş bütün fayllar digər layihələrdə istifadə oluna bilərlər. 2010-cu ilin may ayına olan məlumata əsasən VikiXəzinədə 6,7 mln. şəkil və media-fayl toplanmışdır.

*Qeyd. Poçt markalarına, eləcə də 70 il öncə çəkilmiş şəkillərə və yaradılmış media materiallarına müəllif hüquqları şamil edilmir.*



### *3.3.8. VikiVersitet (Wikiversity)*

VikiVersitet (http://wikiversity.org) virtual məkanda Viki-universitetdir, 2006-cı ilin avqust ayında yaradılmışdır. Layihə pulsuz dərs vəsaitləri və kursları təqdim edən on-line cəmiyyəti də adlandırılır. Layihəyə dərsliklər, tədrisdə istifadə olunan kitablar və mütəxəssislərin və müəllimlərin tədris sahəsində təcrübələri səhifələrdə yığılır. VikiVersitet layihəsində müxtəlif səviyyədə tədris cəmiyyətləri yaradılmışdır. Hər bir cəmiyyətin öz təyinatı və məqsədi mövcuddur. Layihədə rəhbər prinsiplərinin təyinatı davam edir. VikiVersitet layihəsinin Azərbaycan bölməsi mövcud deyildir və sayt ingilis dili bölməsinə yönəldilmişdir. İngilis dilindəki bölmədə məqalələrin sayı 12,6 mindir.

### *3.3.9. MetaViki (Meta-Wikimedia)*

MetaViki (http://meta.wikimedia.org) İnternetdə viki-layihələrin əsas əlaqələndirmə mərkəzidir. Mərkəz Vikipediya istifadəçiləri arasında Meta kimi tanınır. Vikipediyanın serveri ilə bağlı, müxtəlif şikayətlərlə və Vikipediyada meydana çıxanproblemlər və ya münaqişələr administratorlar tərəfindən həll oluna bilmədiyi təqdirdə, məsələ ilə bağlı Metaya müraciət edilir. İstifadəçilər müxtəlif mövzuda sual və təklifləri ilə də bu sayta müraciət edə bilərlər. Məsələn, http://www.meta.wikimedia.org/wiki/IRC_channels saytına müraciət etməklə Fondla və onun layihələri ilə bağlı sualları müzakirə etmək mümkündür.

MetaViki layihəsi əsasən ingilis dilində fəaliyyət göstərir. Lakin son zamanlar MetaViki layihəsindəki ingilis dilində olan səhifələrin bir çoxu rus, alman, polyak, fransız və s., eləcə də Azərbaycan dilinə tərcümə olunmaqdadır. Tərcümələrdə əsasən Vikipediyanın fəal istifadəçiləri iştirak edirlər. MetaViki

layihəsində Vikipediya, onun müxtəlif layihələri və Viki texnologiyası haqqında da geniş məlumat almaq olar.

### 3.4. Vikimaniya (Wikimania)

Vikimaniya digər layihələrdən fərqli olaraq (http://wikimania.wikimedia.org) – Vikimedia Fondunun hər il keçirdiyi beynəlxalq konfransdır. Konfrans elmi xarakter daşımaqla yanaşı, viki iştirakçılarının görüşməsinə və fikir mübadiləsi aparılmasına kömək edir. Vikimaniyada Vikimedia Fondunun müxtəlif layihələrində iştirak edən istifadəçilər yığışırlar. Burada onlar məruzələrlə çıxışlar edir, müxtəlif layihələr barədə təqdimatlar göstərir, yeni ideyalar təklif edirlər [20].

Vikipediya üzrə keçirilən konfransların əsas məqsədi – Vikipediya əhalisini görüşdürmək, onların Vikipediyadakı problemlər və özlərinin gələcək planları haqqında informasiya verməsinə şərait yaratmaqdır. Konfransda vikimediaçılarla (*wikimedians*) yanaşı, viki layihələrində iştirak etməyən şəxslər də çıxış edə bilərlər. Vikimaniya vikimediaçılara müxtəlif sahələrə aid məsələləri geniş şəkildə müzakirə etmək imkanı verir. Bu məsələlərə azad və açıq proqram təminatından başlayaraq, biliyin və vikilayihələrin bütün dünyaya yayılmasına qədər təşəbbüslər aiddir.

Vikimaniya kinfransında iştirak etmək üçün, təşkilat komitəsinin *wikimania-registration@ wikimedia.org* ünvanına müraciət etmək kifayətdir.

Keçirilmiş və keçiriləcək Vikimaniya konfranslarının siyahısı:

- **"Vikimaniya-2005"** konfransı 2005-ci ilin 4-8 avqustunda Almaniyanın Frankfurt şəhərində keçirilmişdir.



- **"Vikimaniya-2006"** konfransı 2006-ci ilin 4-6 avqustunda Massaçuset ştatında, Kembricin "Harvard Law School" bölməsində keçirilmişdir.
- **"Vikimaniya-2007"** konfransı 2007-ci ilin 3-5 avqustunda Çində keçirilmişdir (şəkil 13).
- **"Vikimaniya-2008"** konfransı 2008-ci ilin 17-19 iyulunda Misirdə, İsgəndəriyyə şəhərinin Baş Kitabxanasında keçirilmişdir.
- **"Vikimaniya-2009"** konfransı 2009-cu ilin 26-28 avqustunda Argentinanın Buenos-Ayres şəhərində keçirilmişdir (şəkil 14).
- **"Vikimaniya-2010"** konfransı 2010-cu ilin 9-11 iyulunda Polşanın Qdansk şəhərində keçiriləcəkdir.
- **"Vikimaniya-2011"** konfransı 2011-ci ilin 5-7 avqustunda İsrailin Hayfa şəhərində keçiriləcəkdir.




*Şəkil 13. "Vikimaniya-2007", Cimmi Uels və konfrans iştirakçıları*

Vikimaniyada iştirak etmək üçün qeydiyyatdan keçib, müəyyən məbləğ ödəmək lazımdır. Məsələn, Almaniyanın Frankfurd şəhərində keçirilən "Vikimaniya-2005" konfransında iştirak etmək üçün qeydiyyat zamanı 60 avro ödəmək tələb olunurdu. Ödənilən məbləğ Vikimaniyanın təşkilinə xərclənir.

Konfranslarda iştirakçıların sayı mindən artıq olur. Məruzələr, çıxışlar adətən, ingilis dilində edilirlər. Məruzələrdə ən tanınmış vikipediyaçılardan başlayaraq, Vikipediya haqqında yeni eşitmiş şəxslər də iştirak edirlər. Hər bir məruzədən sonra suallar verilir və çox zaman məruzələr qızğın diskussiyalarla sona çatır.



*Şəkil 14. "Vikimaniya-2009" konfransının iştirakçıları*



## FƏSİL 4. VİKİPEDİYADA MƏQALƏLƏRİN YARADILMASI QAYDALARI




Vikipediyada məqalələr könüllülər tərəfindən yazılır və o, azad ensiklopediya olduğundan istənilən məqaləni (o məqaləyə qadağa qoyulmayıbsa) hər kəs dəyişdirə bilər. Məsələn, dolğun olmayam məqalələrə əlavələr edilə, səhvlər düzəldilə bilər və s. Vikipediyada məqalə əsasən iki hissədən ibarət olur: məqalə özü və onun məzmunu haqqında müzakirə. Müzakirə səhifəsində istifadəçi mövzu ilə bağlı öz fikrini bildirir, lazım gəldikdə hətta məqaləni tənqid edir, əgər məqalədə düzəliş aparmaq istəmirsə iradlarını bildirir. Çox zaman müzakirələr əsasında mübahisəli məqalələrdə düzgün qərar əldə edilir [21].

Məqalələr hər zaman neytral nəzər nöqtəsindən çıxış edilərək yazılmalıdır və məqalələrin mənbəyi göstərilməlidir. Bu administrator və oxucuların həmin məqaləyə olan etimadını artırmış olacaq və mümkün mübahisələrin qarşısını alacaq. Mənbələri xarici keçidlər vasitəsilə və "Ədəbiyyat", "Mənbələr", "Əlavələr" və ya "Əlavə Ədəbiyyat" başlıq ilə daxil etmək olar. Vikipediyaya informasiya daxil edərkən mənbənin göstərilməsi vacibdir. Əks halda daxil edilmiş informasiyanın düzgünlüyü şübhə altında olmuş olur və digər istifadəçilər tərəfindən silinməsi və ya dəyişdirilməsi ehtimalı artır. Mənbələr göstərilməklə daxil edilmiş məlumatlar isə administratorlar tərəfindən mühafizə olunur (şəkil 13.).

Vikipediyaya istənilən mövzuda məqalələr daxil etmək olar. Yalnız terrorizmi, əxlaqa zidd hərəkətləri və separatçılığı təbliğ edən məqalələrin yaradılması yol verilməzdir.

## 4.1. Qeydiyyatdan keçmə qaydası

Vikipediya virtual ensiklopediyasında hər kəs fəaliyyət göstərə bilər. Yuxarıda deyildiyi kimi, istifadəçilər anonim və ya qeydiyyatdan keçərək məqalələrdə redaktələr edə bilərlər. Vikipediyada qeydiyyatdan keçmək üçün Vikipediyanın "Ana səhifəsi"nin yuxarı sağ küncündə yerləşdirilmiş "Daxil ol və ya istifadəçi yarat" keçidini seçmək lazımdır. Bu zaman eyni adlı səhifə açılır (şəkil 15).




*Şəkil 15. Qeydiyyatdan keçmək üçün açılan səhifə*

Artıq qeydiyyatı olan hər kəs istifadəçi adını (nicname) və parolunu müvafiq sahələrə daxil edərək, "Daxil ol" düyməsini vurduqda, onun şəxsi məlumat səhifəsinə, eyni zamanda fəaliyyəti, izlədiyi səhifələr, müzakirələri və s. haqqında səhifələrə daxil olmaq imkanı yaranır.

Yeni istifadəçi qeydiyyata düşmək üçün "hesab açın" keçidindən istifadə etməlidir. Bu zaman açılan səhifədə istifadəçi adını, parolu və şəxsi e-poçt ünvanını yazmaqla



qeydiyyatdan keçə bilər. Qeydiyyatdan keçən hər kəs üçün yeni səhifə yaradılır ki, buraya o, istənilən məlumatı daxil edə bilər. Qeydiyyata alınmış hər kəs öz imzası (istifadəçi adı) altında ümumi və ya fərdi müzakirələrdə iştirak etmək imkanına malik olur.

## 4.2. Məqalə üçün mövzunun və adın seçilməsi

Məqalənin mövzusu ilk növbədə istifadəçinin maraq dairəsinə uyğun olmalıdır. Əgər mövzu haqqında istifadəçinin məlumatı azdırsa və ya onun maraq dairəsində deyilsə, o zaman məqalə yaratmaq məsləhət deyil. Məqaləni başlamazdan əvvəl istifadəçinin həmin mövzunu ətraflı bilməsi də vacib deyil. İstifadəçinin həmin mövzunu tədqiq etmək üçün müəyyən təcrübəsinin və marağının olması kifayətdir. Əsas şərt istifadəçinin məqalə üçün ilkin informasiyanı haradan əldə edəcəyini bilməsidir.

Vikipediyaya daxil edilən məqalələrin adlandırılması, həmin mövzunun cəmiyyətdə daha çox hansı ad altında tanınması ilə üst-üstə düşməlidir. İstifadəçi ad seçməkdə çətinlik çəkirsə, o halda geniş addan istifadə etməlidir. Yəni, məqalənin adı bir neçə sözdən və söz birləşməsindən də ibarət ola bilər.

Bəzən daxil edilən məqalənin adı başqa bir mövzunu nəzərdə tuta bilər. Məsələn, "Füzuli" adlı məqaləni nəyə aid etmək olar? Azərbaycan Respublikasının subyektlərindən olan Füzuli rayonuna və yaxud orta əsrlərdə yaşamış dahi Azərbaycan mütəfəkkiri və şairi Məhəmməd Füzuliyə. Bu zaman dəqiqləşdirmə səhifələrindən istifadə olunur və həmin səhifəyə {{dəqiqləşdirmə}} şablonu artırılır. Məqalənin adının sonuna isə mötərizədə uyğun söz yazılır. Məsələn, Füzuli (rayon) və Füzuli (şair).

Məqaləni adlandırarkən bir fakta da fikir vermək lazımdır ki, mətnin şriftləri Vikipediya tərəfindən dəstəklənmiş olsun. Vikipediya şriftlər üzrə standart qəbul edilmiş „Unicode" şriftlərini dəstəkləyir. Belə ki, ş-sh, ç-ch, ə-e və s. bu kimi

əvəzləmələr aparmaq məqalənin ümumi keyfiyyətinə mənfi təsir edir.

### 4.3. Məqalənin ensiklopediyada axtarışı

Ola bilsin ki, istifadəçinin yazmaq istədiyi məqalə artıq mövcuddur. Bunu yəqin etmək üçün Vikipediya səhifəsinin sol hissəsindəki (bəzi layihələrdə yuxarıda) paneldə yerləşən „Axtar" sətrində açar söz yazılır və „Axtar" düyməsi basılır. Açılmış siyahıda istifadəçi lazım olan məqalənin olub-olmamasını yoxlaya bilər. Əgər məqalə varsa həmin məqalənin adının üzərində manipulyatorun işarəsini vurmaqla məqalə səhifəsini açmaq olar. Açılmış səhifənin üst hissəsində „Redaktə" düyməsi vasitəsi ilə istifadəçi məqaləni redaktə etmək imkanı əldə etmiş olur. Məqalələri redaktə etməzdən əvvəl redaktə qaydaları ilə tanış olmaq lazımdır.

Axtarılan məqalə ensiklopediyada yoxdursa, demək onu yaratmaq lazımdır. Bunun üçün məqalənin adını yenə də „Axtar" sətrində yazmaq lazımdır. Daha sonra isə "Gətir" düyməsi basılır. Açılmış səhifədə istifadəçiyə bu məqalənin adının başqa səhifələrdə axtarılması və ya həmin başlıq altında yeni məqalə yaratmaq təklif olunacaqdır. Həmin yazını basmaqla məqalənin hazırlanacağı və bir qədər mətn redaktorunu xatırladan redaktə səhifəsinə keçilir.

*Qeyd. Vikipediyada mövcud məqalələr göy, mövcud olmayan məqalələr isə qırmızı keçidlərlə göstərilir.*

Məqalələrin Vikipediyada axtarılmasının digər üsulları da mövcuddur. Lazım olan səhifəni ekrana gətirmək üçün brauzerin ünvan sətrinə http://az.wikipedia.org/wiki/ yazısından sonra səhifənin (məqalənin) adı yazılır və „Enter" düyməsi vurulur. Bu zaman eyni adlı məqalə səhifəsi açılacaqdır. Əgər məqalə mövcud deyilsə yenə də istifadəçiyə xüsusi səhifədə lazımi mövzunun digər məqalələrdə axtarılması və ya bu ad altında yeni məqalənin yaradılması təklif olunur (şəkil 16).






*Şəkil 16. Vikipediyada lazımı məqalə olmadıqda açılan səhifə*

### 4.4. Məqalənin yaradılmasının ümumi qaydaları

Yeni məqalə yaratmaq üçün xüsusi „Kömək:Yeni Məqalə Yarat" səhifəsindən istifadə etmək mümkündür (şəkil 17). Səhifənin mərkəzindəki boş sahəyə yeni məqalənin adını daxil edib, „Məqalə yarat" (Create article) düyməsini seçmək lazımdır. Həmin ad ilə yaranacaq məqalənin mətnini daxil etmək və məqaləni redaktə etmək üçün yeni səhifə – "Redaktə səhifəsi" açılır. Buradakı "Redaktə" pəncərəsinə məqalənin mətnini daxil edib "Səhifəni qeyd et" (Save page) düyməsini vurmaqla onu Vikipediyanın VB-na daxil etmək mümkündür. Yeni məqaləni Vikipediyanın VB-na göndərməzdən əvvəl onun ensiklopediya qaydalarına nə dərəcədə uyğun olmasını yoxlamaq lazımdır. Bu barədə növbəti bölmələrdə ətraflı danışılır.

Məqalənin redaktəsi üçün "Redaktə" pəncərəsində mətnin formatlaşdırılması, şəkil daxil edilməsi, cədvəl hazırlanması və

digər işləri nəzərdə tutan alətlər panelindəki düymələrdən istifadə edilir.

Vikipediya virtual ensiklopediyasında redaktə etmək istəyən yeni istifadəçilərə, kiçik redaktələrdən başlamaq məsləhət görülür. Kiçik redaktələr dedikdə, mətndəki orfoqrafik səhvlərin düzəldilməsi, məzmuna dəyişiklik etmədən mətnin şəklinin dəyişdirilməsi, məqaləyə intervikilərin əlavə edilməsi, böyük həcmli məqalələrin bölmələrə ayrılması və s. nəzərdə tutulur. Bu cür redaktələr heç vaxt müzakirə mövzusu olmur və hər zaman administratorlar tərəfindən dəstəklənirlər.




*Şəkil17. Vikipediyanın "Yeni Məqalə Yarat" səhifəsi*

#### *4.4.1. Alətlər paneli*

Vikipediyanın "Redaktə" bölməsindəki alətlər paneli "Redaktə" sahəsi ilə birgə avtomatik peyda olur. Alətlər panelindəki düymələr məqalə yaradarkən müxtəlif



funksiyalardan istifadəni asanlaşdırmaq üçün nəzərdə tutulmuşdur (cədvəl 1).

*Cədvəl 1. Alətlər panelində yerləşən düymələrin siyahısı*

| *Düymə* | *Funksiya* | *Redaktə sahəsindəki görünüş* | *Məqalədəki görünüş* |
|---|---|---|---|
| B | Bold və ya qalın mətn | '''abc''' | **abc** |
| I | Italic və ya kursiv şrift | ''abc'' | *abc* |
| Ab | Daxili keçid | [[abc]] | abc |
|  | Xarici keçid | [http://www.abc.com ABC] | ABC |
| A | Başlığın əlavə edilməsi | = = abc = = | **abc** |
|  | Şəklin əlavə edilməsi | [[Image:abc.jpg]] |  |
|  | Mediafilmin əlavə edilməsi | [[Media:abc.ogg]] | Media:abc.ogg |
| √n | Riyazi düstur | <math>abc</math> | *abc* |
|  | Wiki formatından imtina etmək | <nowiki>abc '''[[Bold text]]'''</nowiki> | abc '''[[Bold text]]''' |
|  | Müzakirələr zamanı daxil edilən imza (bu zaman tarix də daxil edilmiş olur) | --~~~~ | ABC 17:44, 10 yanvar, 2008 |
|  | Horizontal xətt | ---- | ———— |

Məsələn, bir və ya bir-neçə sözə daxili keçid əlavə etmək üçün bəmin söz və ya söz birləşmələri kvadrat mötərizə daxilində göstərilməlidirlər – [[link]]. Daha sadə üsul isə – həmin söz və ya söz birləşmələri qaralanır və alətlər panelindəki "Daxili keçid" (İnternal Link) düyməsi vurulur (şəkil 18).




*Şəkil 18. Vikipediyanın "Redaktə" səhifəsindəki alətlər paneli*

Vikipediyanın alətlər paneli İnternet Explorer (İE), Mozilla Suite, SeaMonkey, Opera və Firefox brauzerləri ilə daha yaxşı işləyirlər.

Mozilla və İE brauzerlərində artıq daxil edilmiş mətnlərlə işləmək mümkündür. Belə ki, mətn qaralanır və lazım olan düymə alətlər panelindən seçilir. Əgər mətn seçilmədən alətlər panelindəki hər-hansı düymə basılırsa, o zaman əməliyyat sonradan daxil olunan mətn üçün nəzərdə tutulur. Digər brauzerlərdə isə paneldəki düyməni basdıqda, bu düymənin yerinə yetirdiyi funksiyanın izahı verilir.

### *4.4.2. Məqalənin məzmununun yazılması qaydası*

Məsləhətdir ki, məqalənin ilkin həcmi 500 işarədən az olmasın. Məqalələrin yazı stili elmi-bədii olmalıdır. Belə ki, Vikipediya qlossari və ya lüğət deyildir. Həmçinin məqalələri yazarkən heç olmasa iki ümumvikipediya (əslində beşdir) prinsipinə ciddi şəkildə əməl etmək lazımdır:



1. Yazılmış məqalənin neytrallığı prinsipi
2. Müəllif hüquqlarının qorunması.

Əks halda məqalənin administratorlar tərəfindən silinmə ehtimalı vardır. Əgər istifadəçi sadəcə sınaq yazısı yazmaq istəyirsə, o, bunu "Qaralama dəftəri"ndə (Vikipediya:Qaralama dəftəri) etməlidir, belə ki, bu zaman hər-hansı məqalələrin korlanması ehtimalı aradan qaldırılmış olur (şəkil 19).




*Şəkil 19. Vikipediyanın "Qaralama dəftəri" səhifəsi*

### *4.4.3. Sınaq göstərişi və səhifənin qeyd edilməsi*

Məqalədə edilən dəyişikliklərin Vikipediyanın VB-na daxil edilməzdən əvvəl necə görünəcəyini bilmək üçün "Sınaq göstərişi" (Show preview) düyməsindən istifadə edilməlidir. Həmçinin məqalənin dəyişdirilmiş versiyanı əvvəlki versiyalarla müqayisə etmək üçün "Dəyişiklikləri göstər" (Show changes) düyməsindən istifadə edilir.

Bu mərhələləri keçdikdən sonra istifadəçi cəsarətlə "Səhifəni qeyd et" düyməsini basa bilər. Əgər məqalə "Səhifəni qeyd et" düyməsi vasitəsilə Vikipediya VB-na daxil edildikdən sonra, istifadəçi orada yenidən düzəliş aparmaq fikrinə düşərsə, o zaman yenidən "Redaktə" səhifəsinə müraciət etməlidir. Əvvəlki versiyanı geri qaytarmaq üçün isə məqalə səhifəsinin "Tarixçə" bölməsində yerləşən "Seçilən versiyaları müqayisə et" düyməsini vurmaqla istənilən versiyanı bərpa edə bilər (şəkil 20).




*Şəkil 20. "Azərbaycan Respublikası" səhifəsinin "Tarixçə" bölməsi*

**4.5. Mənbənin göstərilməsi**

Məqalənin məzmununu yazdıqdan sonra istifadəçi „Mənbə" adlı bölmə yaratmalı və məqalənin yaradılmasında istifadə olunan bütün veb-saytların ünvanlarını və çap materiallarının (kitab, qəzet və s.) adlarını, müəlliflərin adlarını, nəşriyyatın adını, çap ilini və s. bu kimi parametrləri bu bölümə



daxil etməlidir. Mənbəni "Qaynaqlar" şablonu vasitəsi ilə də daxil etmək olar. Bu zaman yazılmış mətnin sonuna mənbə göstərən xüsusi teqlər daxil edilir: <ref> Mənbə </ref>, mətnin sonunda isə {{Qaynaqlar}} əlavəsi edilir.

„Xarici keçidlər" bölümündə İnternetdəki mövzu ilə əlaqədar istənilən səhifələri göstərmək olar. Bir şərtlə ki, göstərilən link (keçid) spam olmamalıdırlar, əks halda daxil edilmiş keçid səhifədən dərhal silinəcəkdir.

*Qeyd. Spam – kütləvi yayımlanan, arzuolunmaz reklam və ya digər məzmunlu məlumatdır.*




*Şəkil 21. Bölümlər əsasında məqalədə mündəricatın yaradılması*

Keçidlər səhifəyə müxtəlif formada daxil edilə bilər:

- tam İP-ünvanı göstərməklə: http://www.science.az
- İP-ünvanı göstərmədən keçidi mövzunun adına köçürməklə: [http://www.science.az Azərbaycan Milli Elmlər Akademiyası]

• informasiyanı mətn şəklində daxil edib, keçidi [1] işarəsinə köçürməklə: [http://www.science.az]

Nəzərə almaq lazımdır ki, məqalədə dörd və daha artıq bölüm vardırsa avtomatik olaraq mündəricat yaranır (şəkil 21).

Məqalələrdə „Həmçinin bax“ adlı bölüm də yaradılmalıdır və bu bölümdə Vikipediya daxilində məqalənin məzmununa uyğun məqalələrin adları göstərilir. Bu funksiya məqalələr arasında əlaqələrin məntiqi şəkildə yaradılmasına və lazım olan məqalənin daha tez tapılmasına şərait yaradır [22].

### 4.6. Məqaləyə kateqoriyanın əlavə olunması

Məqalələrə kateqoriyaların əlavə olunması olduqca vacibdir. Bu axtarışı asanlaşdırır və məqalələri xüsusi qruplar üzrə təsnifatlara ayırır. Vikipediyanın semantikası kateqoriyalar əsasında təşkil edilir (şəkil 22).




*Şəkil 22. Vikipediyanın „Kateqoriya:İnformatika“ səhifəsi*



Kateqoriyanın əlavə olunması üçün məqalənin məzmunundan sonra boş sətir buraxılır və ikiqat kvadrat mötərizələrin arasında "Kateqoriya:" sözü yazılır və ondan sonra məqalənin hansı kateqoriyaya aid olduğu göstərilir. Məsələn, [[Kateqoriya:Şəxslər]], [[Kateqoriya:İnformatika]] və ya [[Kateqoriya:Tarix]]. Məqalə avtomatik olaraq həmin kateqoriyalardakı siyahıya daxil edilmiş olur.

Məsələn, Vikipediya on-line ensiklopediyasına daxil olan şəxs „Elektron imza“ məqaləsinə və bu mövzuya yaxın digər məqalələrə baxmaq istəyirsə, saytın Ana səhifəsində yerləşən „Elm“ və ya „Kompyuter“ linklərindən birini vurmaqla, eyni adlı səhifələrə daxil olur. Burada „İnformatika“ kateqoriyasına daxil olan istifadəçi istədiyi mövzunu asanlıqla tapa bilər.

### 4.7. Məqaləyə interviki linklərinin daxil edilməsi

Yuxarıda deyildiyi kimi, Vikipediya yalnız Azərbaycan dilində mövcud deyildir. Vikipediya dünyanın 271 müxtəlif dillərində mövcud olan beynəlxalq ensiklopediyadır. İnterviki linklərinin daxil edilməsində əsas məqsəd bu dillər arasında əlaqə yaratmaqdır. İstifadəçi öz məqaləsinin adını digər dilə, məsələn, rus və ya ingilis dilinə tərcümə etməklə, həmin məqaləni rus və ya ingilis dilində fəaliyyət göstərən Vikipediyalarda tapır. Daha sonra məqalənin "Redaktə" (Edit this page) bölümünə keçilir. Məqalənin sonunda (kateqoriyalardan sonra) yerləşən interviki siyahısı Ctrl+C əməliyyatı vasitəsi ilə kompyuterin bufer yaddaşına daxil edilir. İstifadəçi bu informasiyanı öz məqaləsinə kateqoriyalardan sonra boş sətir buraxmaqla əlavə edir (Ctrl+V). Ən sonda "Səhifəni qeyd et" düyməsi basılır. Beləliklə, intervikilər məqaləyə daxil edilmiş olur.

İnterviki linklərinin artırılması zamanı linklərin arasında həmin dildəki (interviki hansı dildən kopyalanıbsa) Vikipediyaya keçid olmur. Bunu əlavə etmək vacibdir. Tutaq ki, "Azərbaycan" məqaləsi üçün interviki linkləri ingilis dilli Vikipediyadan götürülmüşdür. O halda istifadəçi məqalədə [[dil kodu:məqalə adının tərcüməsi]] sxemini qurmalıdır. Məsələn,

"Azərbaycan" sözü ingilis dilinə "Azerbaijan" kimi tərcümə olunur və ingilis dilinin kodu en.-dir. Onda Azərbaycan məqaləsi üçün bu sxem bu cür yazılmalıdır [[en:Azerbaijan]]. Bu sxemi yaratdıqdan sonra onun yeri əlifba sırası ilə digər interviki linkləri arasında tapılır və ora yerləşdirilir.

Məsələn, Bakı adlı məqalə üçün intervikilər:

[[ar:باكو]]
[[en:Baku]]
[[ru:Баку]]
[[az:Bakı]]

Son zamanlar intervikilərin məqalələrə daxil edilməsi botlar (xüsusi proqramlar) vasitəsi ilə yerinə yetirilir.

### 4.8. Mətnin formatlaşdırılması

Bildiyimiz kimi, məqalədəki mətnin formatının dəyişdirilməsi üçün "Redaktə" səhifəsində yerləşən alətlər panelindəki düymələrdən istifadə edilir. Lakin paneldəki düymələr məhdud rejimdə işləmək üçün nəzərdə tutulduğundan, daha mürəkkəb formatlaşdırma əməliyyatlarını yerinə yetirmək üçün Vikipediyada bir çox qaydalar mövcuddur.

#### *4.8.1. Başlığın qoyulması*

Redaktə pəncərəsində mətn qaralanır "Redaktə" panelindəki [*A*] (2-ci səviyyə başlıq) düyməsi vurulur. Mətnin görünüşü = =Başlıq= = şəklində dəyişir. Mətn

= = =Alt başlıq= = =

və ya

= = = =Alt alt başlıq= = = =

kimi göstərildikdə o, alt mətn formatını alır.

#### *4.8.2. Əsas formatlaşdırma teqləri*

Tələb olunarsa məqalədə adi HTML və ya XML dillərindən də istifadə etmək olar. Bu dillərdə olduğu kimi. Vikipediyadakı məqalələrdə mətnlərin formatlarını dəyişdirmək üçün müxtəlif teqlərdən istifadə edilir (cədvəl 2).



*Cədvəl 2. İstifadə olunan əsas formatlaşdırma teqləri*

| *Alınan nəticə* | *Yazılan mətn* |
|---|---|
| *kursiv mətnlər*<br>**qalın mətnlər**<br>***qalın mətn və kursiv mətn birlikdə***<br>Bu işarələr ikiqat və ya üçqat apostroflardır, dırnaq deyildir. | ''kursiv mətnlər''<br /><br>'''qalın mətnlər'''<br /><br>'''''qalın mətn və kursiv mətn birlikdə'''''. |
| Texniki terminlər üçün eyni ölçülü yazılar. | <tt>Texniki terminlər üçün</tt> eyni ölçülü yazılar. |
| Kiçik şriftlərdən başlıqlar üçün istifadə edilməsi. | <small>kiçik tekstlərdən</small> başlıqlar kimi istifadə edilməsi. |
| ~~Silinmiş materialın üzərindən~~ yeni materialın altından xətt çəkmək. | <strike>Silinmiş materialın üzərindən</strike> və ya <u>yeni materialın altından</u> xətt çəkmək. |
| Alt indeks: $x_2$<br>Üst indeks: $x^2$ və ya $x^2$<br>Ölçü vahidləri üçün məhz bu üsuldan istifadə etmək lazımdır ki, bəzi Brauzerlər onu oxuya bilsinlər: $\varepsilon_0 = 8.85 \times 10^{-12}$ $C^2$ / J m. | Alt indeks: x<sub>2</sub><br>Üst indeks: x<sup>2</sup> və yax²<br>ε<sub>0</sub> = 8.85 × 10<sup>−12</sup> C² / J m. |
| Qəliz formullar: $\sum_{n=0}^{\infty} \frac{x^n}{n!}$ | ```<math>\sum_{n=0}^\infty \frac{x^n}{n!}</math>``` |
| Məqalələrə şərhlərin yazılması: Şərhlər redaktə zamanı yazıla bilər və səhifədə görünmür. | <!-- Şərh --> |

### *4.8.3. Siyahının yaradılması*

Məqalələrdə siyahının yaradılması üçün mətndə hər bir sətrin önünə ulduz (*) işarəsi əlavə edilir. Ulduzların sayı siyahıdakı dərinliyi müəyyən edir: ** və ya ***. Məsələn,

| *Redaktə səhifəsindəki görünüş* | *Məqalə səhifəsindəki görünüş* |
|---|---|
| * Göy<br>* Qırmızı<br>* Yaşıl | ■ Göy<br>■ Qırmızı<br>■ Yaşıl |

Nömrələnmiş siyahının hazırlanmasında diez (#) işarəsindən istifadə edilir. Bu üsul struktur üçün idealdır və asanlıqla yaradılır. İşarənin sayı siyahıdakı dərinliyi müəyyən edir: # # və ya # # #. Məsələn,

| *Redaktə səhifəsindəki görünüş* | *Məqalə səhifəsindəki görünüş* |
|---|---|
| # Göy<br># Qırmızı<br># Yaşıl | 1. Göy<br>2. Qırmızı<br>3. Yaşıl |

### *4.8.4. Tarix formatları*

Tarixin cədvəldə göstərilmiş formatda yazılması nəticəsində daxili keçidlər yaranır ki, bu keçidlər vasitəsilə göstərilmiş tarixdə baş verən hadisələr haqqında informasiya daxil edilmiş səhifələrə keçmək mümkündür.

| *Redaktə səhifəsindəki görünüş* | *Məqalə səhifəsindəki görünüş* |
|---|---|
| Tarix formatları:<br># [[Yanvar 20]], [[1990]]<br># [[20 Yanvar]] [[1990]]<br># [[1990]]-[[01-20]]<br># [[1990-01-20]] | Tarix formatları:<br>1. 20 Yanvar, 1990<br>2. 20 Yanvar 1990<br>3. 1990-01-20<br>4. 1990-01-20 |

Məsələn, [[1990]] işarəsinin qoyulması, Vikipediyada "1990" adlı məqaləyə keçid yaradır. Bu məqalədə 1990-cı ildə



dünyada baş vermiş bütün hadisələr barədə məlumat almaq mümkündür.

### 4.9. Keçidlərin yaradılması

Mətnə digər səhifələrə keçidlər daxil etmək mümkündür. Keçidlər əsasən iki növ olur – daxili və xarici keçidlər. Daxili keçidlər Vikipediyada mövcud olan və olmayan məqalələrə aparır. Mövcud olmayan məqalələrə aparan keçidlər qırmızı rənglə göstərilir və istifadəçini bu məqalənin mövcud olmaması barədə xəbərdar edir. Keçidin üzərindən vuran istifadəçiyə bu məqalənin yaradılması təklif edilir. Xarici keçidlər isə digər İnternet ünvanlarına istinadı təmin edir.

| *Redaktə səhifəsindəki görünüş* | *Məqalə səhifəsindəki görünüş* |
|---|---|
| Azərbaycanın paytaxtı [[Bakı]] şəhəridir | Azərbaycanın paytaxtı *Bakı* şəhəridir |
| Bakı şəhəri [[Azərbaycan\|Azərbaycanın]] paytaxtıdır | Bakı şəhəri *Azərbaycanın* paytaxtıdır |

Xarici, qeyri-viki keçidlərini əlavə etməyin müxtəlif üsulları vardır:

1. Görünən keçid: http://www.science.az/ (keçidlər üçün nəzərdə tutulmuş xüsusi işarələr əlavə olunmur) – http://www.science.az/
2. Adsız keçid: [1] (yalnız mətin daxilində) – [http://www.science.az/]
3. Adlı keçid: Azərbaycan Milli Elmlər Akademiyası – [http://www.science.az/ Azərbaycan Milli Elmlər Akademiyası]
4. Mətn və şəkil keçidlərindən əlavə olaraq daxili "media" bağlantıları da mövcuddur – [[media:sound.mp3|Səs]].

## 4.10. Şəkillərin və media fayllarının daxil edilməsi

Şəkilləri və media fayllarını mətnə əlavə etmək üçün, əvvəlcə onları Vikipediya ensiklopediyasının saytına yükləmək lazımdır. (http://www.az.wikipedia.org/wiki/Special:Upload) (şəkil 23).




*Şəkil 23. Şəkil və media fayllarını Vikipediya VB-na daxil etmək üçün istifadə edilən səhifə*

Bunun üçün xüsusi "Qarşıya Yükləmə" funksiyasından istifadə edib şəkil, audio və ya hər hansı başqa bir media faylı Vikipediya bazasına yüklənir və daha sonra onun daxili ünvanı məqaləyə əlavə edilir. Yükləyərkən mümkün qədər yüksək keyfiyyətli şəkillərdən istifadə edilməlidir və yüklənən şəkillərin müəllif hüquqlarına diqqət yetirilməlidir. Vikipediyaya yalnız png, gif, jpg, jpeg, xcf, pdf, mid, ogg, djvu, svg formatlarında olan faylları yükləməyə icazə verilir. Mətndə başlığı olan (altında məlumat yazılmış) və ehtiyac olduqda kiçildilmiş şəkillərdən istifadə etmək daha düzgündür. Şəkilləri



kiçiltmək üçün "thumb" şablonundan istifadə edilir və ya şəklin ölçüləri piksellərlə göstərilir. Şəkilləri əlavə edərkən nümunə üçün mövcud məqalələrdən istifadə etmək işi asanlaşdırır və vaxta qənaət edir (cədvəl 3).

*Cədvəl 3. Şəkillər üçün istifadə edilən formatlar*

| *Yazılan Mətn* | *Alınan Nəticə* |
|---|---|
| Şəkil: [[Image:wiki.png]] | Şəkil: WIKIPEDIA |
| Sağ tərəfdə yerləşən və başlığı olan şəkil: [[Image:wiki.png\|frame\|Vikipediya Ensiklopediyası\|right]] | Sağ tərəfdə yerləşən və başlığı olan şəkil: WIKIPEDIA Vikipediya Ensiklopediyası |
| Sol tərəfdə yerləşən, başlıqlı, kiçildilmiş şəkil: [[Image:wiki.png\|thumb\|left\|90px\|Vikipediya Ensiklopediyası]] | Sol tərəfdə yerləşən, başlıqlı, kiçildilmiş şəkil: WIKIPEDIA Vikipediya Ensiklopediyası |

## 4.11. Məqalələrin birləşdirilməsi

Müxtəlif adlı, lakin eyni mövzulu məqalələr olduqda onların bir ad altında birləşdirilməsi daha məqsədəuyğundur. Bu cür məqalələrin əvvəlində çox zaman eyni mövzulu digər məqaləyə keçid göstərilir və məqalələrin birləşdirilməsi təklif olunur. Məsələn, ABŞ və Amerika Birləşmiş Ştatları məqalələri eyni mövzulu məqalələr olduqlarından, onların birləşdirilməsi vacibdir: ABŞ məqaləsinə daxil olaraq "Redaktə" səhifəsində #REDIRECT [[Amerika Birləşmiş Ştatları]] yazılır. Nəticədə, istifadəçi Vikipediyanın "Axtarış" sahəsinə "Amerika Birləşmiş Ştatları" açar sözü yazaraq "Axtar" düyməsini basarsa, brauzer tərəfindən "ABŞ" məqaləsi gətirilmiş olacaq.

## 4.12.Səhifənin izlənməsi

İstifadəçi yaratdığı və ya redaktə etdiyi məqalələrdə sonradan digər istifadəçilər tərəfindən edilən dəyişikliklərlə maraqlanırsa, o halda "Bu səhifəni izlə" düyməsini vurmalıdır. İstifadəçinin izlədiyi bütün səhifələr onun üçün ayrıca siyahıda göstəriləcəkdir. Həmçinin Vikipediyanın əsas panelində yerləşən "Son dəyişikliklər" keçidi vasitəsi ilə açılan siyahıda həmin məqalələrin adları qalın yazı ilə yazılacaqdır (şəkil 24).

"Son dəyişikliklər" səhifəsindəki siyahıda son dəfə dəyişikliyə məruz qalan və yeni yaradılan məqalələrin siyahısı göstərilir. Eyni zamanda burada redaktədə iştirak edən istifadəçilərin adları da görünür ki, digər səhifələrə müraciət etmədən, elə bu səhifədən həmin istifadəçilərin müzakirə səhifələrinə daxil olmaqla fikir bildirmək olar. Digər tərəfdən isə bu istifadəçilərin Vikipediyada fəaliyyətləri ilə də tanış olmaq mümkündür.

"Son dəyişikliklər" səhifəsindən yeni, köhnə, qısa, yalqız (digər məqalələrlə əlaqəsi olmayan), redaktəyə ehtiyacı olan məqalələrə keçmək imkanı da vardır. Vikipediyanın bütün səhifələrində olduğu kimi, bu səhifənin də sol tərəfində əsas panel yerləşir ki, bu paneldəki keçidlərdən istifadə etməklə "Ana səhifə", "Kənd Meydanı", "Qaralama dəftəri" və s. səhifələrə keçmək mümkündür. Eyni zamanda həmin panelin



aşağı hissəsində yerləşən intervikilər (Vikipediyanın eyni adlı digər dillərdə mövcud olan səhifələrinə keçid) vasitəsilə də müxtəlif dillərdə fəaliyyət göstərən Vikipediyalardakı son dəyişikliklərlə tanış olmaq mümkündür.




*Şəkil 24. Vikipediyanın "Son dəyişikliklər" səhifəsində yeni yaradılan məqalələrə və edilən redaktələrə baxmaq mümkündür*

## 4.13. Müzakirə səhifələri

Vikipediyada hər bir məqalənin müzakirə səhifəsi olur. Müzakirə səhifəsində vikipediyaçıların bu məqalə haqqında fikirləri, iradları və tövsiyələri öz əksini tapır. Hər bir istifadəçi bu yazışmalarda iştirak edə və ya hər hansı bir məsələni müzakirəyə çıxara bilər. Bundan ötrü məqalənin "Müzakirə" səhifəsinə daxil olaraq, birinci növbədə istifadəçilərin bu məqalə haqqında fikirləri ilə tanış olmaq lazımdır. Daha sonra "Müzakirə" sahəsinin üstündə yerləşən "Redaktə" düyməsini basmaqla istifadəçi öz fikrini yaza bilər. Yazı yeni adla başlaya

bilər. Bunun üçün "Redaktə" düyməsinin yanındakı "+" düyməsini basmaqla, istifadəçi fikrini yeni bölmə yaratmaqla yazmaq imkanı əldə etmiş olur. Bəzən məqalənin müzakirə səhifəsindəki mətnin həcmi məqalənin həcmindən dəfələrlə böyük olur. Əsasən milli konfliktlərlə bağlı, mübahisəli mövzuları buna misal gətirmək olar.

Müzakirələr, məktublaşmalar və bəzi hallarda əlavə viki-layihələr zamanı istifadəçilərin imza qoyması vacibdir. Bunun üçün "İmza və Tarix" düyməsindən istifadə olunur. Belə ki, hər bir Vikipediya istifadəçisi həmin səhifələrdə öz şəxsi, subyektiv fikrini bildirir və yazılmış sözün kimə aid olduğunu bilmək digər istifadəçilər üçün vacibdir. Lakin bu qayda ensiklopedik məqalə səhifələrinə aid edilmir. Məqalələrin özlərində edilmiş hər bir dəyişikliyə "Tarixçə" düyməsi vasitəsi ilə baxmaq və onun kim tərəfindən edildiyini bilmək mümkündür. Anonim istifadəçilərin İP ünvanları da bu siyahıya daxil edildiyindən, ensiklopedik məqalələrə imza daxil etmək lazım deyil.

#### *4.13.1 İmzanın qoyulması*

Müzakirə səhifələrində istifadəçi adını yazmaq üçün ~ (tilda) simvolundan istifadə edilir.

- Adın yazılması ~~~ (3 tilda)
- Adın yanında tarixi də göstərmək üçün ~~~~ (4 tilda) yazılır.
- Yazdıqda imza qoyulmur, yalnız tarix əlavə edilir ~~~~~ (5 tilda).

"Redaktə" panelində "İmza" düyməsini basmaqla da imza qoymaq mümkündür. Lakin bu zaman yalnız 4 tilda işarəsi yazılır.



## FƏSİL 5. ŞABLONLAR VƏ ONLARDAN İSTİFADƏ QAYDALARI

Vikipediyada bir çox məqalələr xüsusiyyətlərinə görə qruplara bölünürlər. Məsələn, yarımçıq məqalələr, qaralamalar, ləğv olunmalı məqalələr, mənbə göstərilməyən məqalələr, tərəfli məqalələr və s. Hər-hansı məqaləni müəyyən qrupa daxil etmək üçün məqalənin "Redaktə" hissəsində mətnin əvvəlinə, bəzi hallarda isə sonuna xüsusi şablonlar əlavə edilir. Şablonlar daha təcrübəli istifadəçilər tərəfindən HTML teqləri vasitəsilə yaradılır. Şablonu məqaləyə əlavə etmək üçün məqalədə açar söz ikiqat fiqurlu mötərizələrdə yazılmalıdır. Vikipediya ensiklopediyasında çoxlu sayda müxtəlif mövzulu şablonlar vardır və onların sayı artmaqdadır. Aşağıda ən çox istifadə olunan şablonlardan bəziləri nümunə kimi göstərilmişdir.

### 5.1. Ümumi şablonlar

**– Şablon: {{xoşgəldiniz}} və ya {{xg}}**

Vikipediyada qeydiyyatdan yeni keçmiş istifadəçilərin müzakirə səhifəsinə digər istifadəçi tərəfindən "xoşgəldiniz" şablonu yazılır.

**– Şablon: {{qısayol|VP:BRK}}**

Şablon ən çox istifadə edilən şablon səhifələrinə keçidləri göstərir və çox zaman istifadəçilər bu şablonu öz səhifələrinə daxil edirlər.

| |
|---|
| **Qısayol: VP:BRK** |

**– Şablon: {{Təkrarlanan məqalə|Məqalənin adı}}**

Eyni mövzulu, lakin müxtəlif adlarla Vikipediyaya daxil edilmiş məqalələrə qoyulan şablon istifadəçilərə bu məqalələri bir ad altında birləşdirməyi təklif edir.

| |
|---|
| Bu məqalə **Məqalənin adı** məqaləsinə çox yaxındır və hər ikisinin eyni başlıq altında birləşdirilməsi mümkündür. |

– **Şablon: {{Dəqiqləşdirmə}}**

Bu şablon müxtəlif mövzulu, lakin eyni adlı məqalələr üçün nəzərdə tutulmuşdur. Məsələn, Bakı (futbol komandası), Bakı (qəzet) və ya Bakı (jurnal).

> ***"Məqalənin adı"** sözü bir çox mənada istifadə olunur. Lazımi mənanı dəqiqləşdirmək üçün bu səhifədəki siyahıdan istifadə edin.*

**5.2. Qaralama halında olan məqalələrə daxil edilən şablonlar**

Məqalədə redaktə işləri hələ davam etdirilirsə, xəbərdarlıq üçün xüsusi şəkil əlavə etmək mümkündür. Bunun üçün məqalənin "Redaktə" sahəsinə [[Şəkil:Aidlogo.png|right]] işarəsi əlavə olunmalıdır. Belə ki, Aidlogo.png faylı artıq Vikipediyanın bazasına (Commons) yüklənmişdir.

–**Şablon: {{Çalışma var}} və ya {{İş var}}**

Məqalədə redaktə işləri hələ davam etdirilirsə, o zaman məqaləyə bu şablon qoyulur ki, nəticədə digər istifadəçilərə və administratorlara məqalə üzərində redaktə işlərinin davam etməsi barədə xəbər verilir.



**Bu səhifədə iş davam etməkdədir.**
İstəsəniz, siz də **kömək** edə bilərsiniz:
Əgər məqalə yarımçıq qalmışsa, məqaləni başlayan istifadəçi ilə əlaqə yaradıb məqalənin vəziyyətini onunla müzakirə edə bilərsiniz.
Səhifənin tarixçəsində səhifə üzərində işləmiş istifadəçiləri görə bilərsiniz.

Üzərində 7 gündən çox redaktə edilməyən məqalə səhifələrindən qaldırılmalıdır



– **Şablon: {{Qaralama}}**

İstifadəçi qaralama şablonundan istifadə edərkən məqalənin tam olmadığını və mətndə müəyyən catışmamazlıqların olduğunu göstərmək üçün daha dəqiq şablonlardan istifadə edir:

{{Qaralama|{{subst:CURRENTMONTHNAME}}}} (Məqalənin son dəfə redaktə olunduğu ayı göstərmək üçün) və ya da {{Qaralama|{{subst:CURRENTYEAR}}}} (Məqalənin son dəfə redaktə olunduğu ili göstərmək üçün). Əgər şablon {{Qaralama|May 2006}} şəklində məqaləyə daxil edilərsə, o zaman məqalənin son dəfə redaktə olunduğu ay və il göstəriləcəkdir.

> **Bu məqalə hələlik qaralama halındadır. Məqaləni redaktə edərək Vikipediyanı zənginləşdirin.** بو مقاله هله لیک قارالاما حالیندادیر، مقاله نی تکمیل ائمه ایله **ویکیپدیا** نی زنگینلشدیرین

– **Şablon: {{qaralama - az}}**

Təəssüf ki, Vikipediyanın Azərbaycan bölməsində yaradılan məqalələr arasında bəzən Azərbaycan dilini pis bilən və ya heç bilməyən istifadəçilərin yaratdıqları məqalələrə də rast gəlinir. O halda həmin məqaləyə {{qaralama - az}} şablon daxil edilməlidir. Şablon əlavə edildikdə məqalə avtomatik olaraq azərbaycanlaşdırılması vacib olan məqalələr siyahısına daxil olmuş olur.



Bu məqaləni **azərbaycanlaşdırmaq** lazımdır. (Azərbaycanca olmayan kəlmələrin çevrilməsi, orfoqrafik səhvlərin düzəldilməsi və s.). Düzəliş etdikdən sonra {{qaralama - az}} ifadəsini kənarlaşdırmağı unutmayın.

– **Şablon: {{etnos-qaralama}}**

Etnik məsələlərlə bağlı, qaralama halında olan məqalələrə daxil edilməli olan şablondır.

**Etnos** ilə əlaqədar bu məqalə qaralama halındadır.
Məqaləni redaktə edərək Vikipediyanı zənginləşdirin.

– **Şablon: {{vikiləşdirmək}}**

Vikipediyada yaradılmış məqalə ensiklopedik standartlara uyğun olmadıqda digər istifadəçilər tərəfindən məqaləyə {{vikiləşdirmək}} şablonu əlavə edilir.

Bu məqaləni və ya bölməni vikiləşdirmək lazımdır.
Lütfən, onu ümumvikipediya qaydalarına uyğun şəkildə tərtib edin.

– **Şablon: {{qısa məqalə}}**

Həddən artıq qısa məqalələrə məqalənin qısa olması və ümumi ensiklopedik standartlara cavab verməməsi haqqında şablon daxil edilir.

Bu məqalənin məzmunu çox azdır,
zənginləşdirilməsinə ehtiyac var.
Məqaləni zənginləşdirərək layihəyə kömək edin

– **Şablon: {{dil-qaralama}}**

Məqalədəki mətn Azərbaycan dilində deyilsə və dil ilə bağlı redaktəyə ehtiyacı varsa, o zaman dil-qaralama şablonunun daxil edilməsi vacibdir. Əks halda məqalənin Vikipediyadan silinmə ehtimalı yaranır.

Dil ilə əlaqədar bu məqalə qaralama halındadır.
Məqaləni redaktə edərək Vikipediyanı zənginləşdirin.

– **Şablon: {{Təmizləmə}}**

Məqalə ensiklopedik standartlara uyğun olmayaraq, həddən artıq böyük olduqda və ya lazımsız informasiya daxil edildikdə təmizləmə şablonu qoyulur.



**Bu məqalədə Vikipediya meyarlarına uyğun olmadığı üçün təmizləməyə ehtiyacı olan hissələr var.**
Lütfən bu məqalənin təmizlənməsinə redaktə vasitəsi ilə kömək edin. Lazım olarsa: paraqrafları, böyük və kiçik hərfləri nəzərə alın, önəmsiz, ensiklopediyaya uyğun olmayan və ya mətləbi aydınlatmayan cümlələri silin. Əhəmiyyətli mövzuları məqaləyə artırın və lazım olan mətləbləri müzakirə səhifəsində müzakirəyə qoyun. Təmizlədikdən sonra bu şablonu məqalədən kənarlaşdırın.

### 5.3. Kateqoriyalara daxil edilən şablonlar

– **Şablon: {{catmore}}**

Vikipediyada məqalənin adı kateqoriyanın adı ilə eyni olduqda, həmin kateqoriyaya eyni adlı məqalənin mövcudluğu ilə bağlı məlumat daxil edilir.

Bu kateqoriya ilə əlaqədar Vikipediya ana məqaləsi:
**Məqalənin adı.**

– **Şablon: {{kateqoriya}}**

İstifadəçiləri kateqoriya səhifəsinə daxil olduqları haqqında xəbərdarlıq etmək üçün qoyulan bu şablon əsasən, tez-tez lazımsız redaktələrə məruz qalan kateqoriyalara daxil edilir.

Bu səhifə kateqoriya səhifəsidir. Bu kateqoriyaya əlavə etmək istədiyiniz məqalələrin sonuna [[Kateqoriya: Kateqoriyanın adı]] kodunu daxil etməyiniz kifayətdir. Yeni məqalə yaratma üçün bələdçi qutusundakı "Kömək" keçidinə baxın.
بو صحیفه کاتقوری(دسته له مه) صحیفه سی دیر. بو کاتقوریا علاوه اتمک ایستەدیگینیز مقاله لرین سونوندا
[[ **Kateqoriyanın adı:Kateqoriya**]] کدونو داخیل اتمه ینیز کیفایتدیر.

– **Şablon: {{CommonsKat|Wikipedia}}**

Şablon, Vikipediya xəzinəsi olan və 6,7 milyon şəkil və video-fayl saxlanılan Commons layihəsində kateqoriyanın və ya

məqalənin mövzusu ilə bağlı şəkillər və video-fayllar olduğunu xəbər verir.

| | |
|---|---|
| | Wikimedia Commons'da: *Vikipediya* ilə əlaqədar fayllar var. |

**– Şablon: {{Elm}}**

Elm şablonu ümumi şablonlardan olub, elmi məqalələrə və kateqoriyalara qoyulur.

| **Elmi istiqamətlər \| Elm haqqında** |
|---|
| Humanitar \| İctimai \| Təbiət \| Texniki \| Tətbiqi |
| Riyaziyyat \| Fizika \| Kimya \| Coğrafiya \| Astronomiya \| Geologiya \| Biologiya \| Tarix \| Dilçilik \| Filologiya \| Fəlsəfə \| Psixologiya \| Sosiologiya \| Antropologiya \| İqtisadiyyat \| İnformatika |

### 5.4. Silinəcək məqalələrə daxil edilən şablonlar

– **Şablon: {{Yarımçıq}}**

Məqalənin mətni ümumi mövzunu əhatə etmirsə və onun silinmə təhlükəsi varsa, o zaman məqaləyə "Yarımçıq" şablonu daxil edilir.

| | |
|---|---|
| | Bu məqalədəki məlumatların yarımçıq və ya az olduğu haqqında şübhələr var.<br><br>Xahiş olunur ki, mövzu ilə bağlı müzakirəyə qoşulasınız. |

**– Şablon: {{Tərəfli}}**

Bu cür şablonlar qərəzli və mübahisəyə səbəb olan məqalələrə daxil edilirlər. Məsələn, İngilis, rus, fransız dilli Vikipediya ensiklopediyalarda Qarabağla, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məqalələrdə bu şablona daha tez-tez rast gəlinir.



| | |
|---|---|
| | **Bu məqalənin tərəfsizliyi şübhəlidir.**<br>Məqalədə tərəf tutmaq və ya pisləmək məqsədi daşıyan və **doğruluğu sübut edilməyən** hissələr olduğu iddia edilməkdədir.<br><br>Xahiş olunur bu məsələ ilə əlaqədar müzakirələrdə iştirak edəsiniz. |

**– Şablon: {{sil|boş}}**

Vikipediyada ən çox müzakirələrə səbəb olan şablonlardandır. Belə ki, məqalə hər-hansı bir səbəbə görə istifadəçinin xoşuna gəlmədikdə, çox zaman bu şablondan istifadə edilir ki, bu da məqalənin müəllifinin narazılığına səbəb olur.

| **Bu səhifənin məzmunu boşdur və ya uyğun deyil!** | |
|---|---|
|  | **Bu səhifə Vikipediya səhifə silmə kriteriyalarına görə yaxın vaxtda silinəcək.** Əgər səhifənin silinməsini düzgün hesab etmirsinizsə müzakirə səhifəsində bu barədə fikrinizi bildirin ya da **buradan** və ya yuxarıdakı redaktə keçidindən istifadə etməklə məqalədə düzəliş aparın *(Düzəliş etdikdən sonra {{sil}} ifadəsini kənarlaşdırmağı unutmayın)*<br>**Sağdakı keçidə müraciət edərək qısa zamanda silmə kriteriyalarına sürətlə nəzərdən keçirə bilərsiniz** [show]<br>**İdarəçilər:**Zəhmət olmasa səhifənin tarixçəsini, xüsusilə də son dəyişikliyi yoxlamadan səhifəni silməyin. |
| **Səbəb** | boş |

– **Şablon: {{Müəllif|url=XXX}}**

Məqalənin mətni olduğu kimi, istifadə olunmasına qadağa qoyulan mənbədən götürülsə, o zaman məqalənin silinə biləcəyi ehtimalının olması haqqında xəbərdarlıq şablonu daxil edilir.

| © Müəlliflik hüququ pozuntusu!!! |
|---|
| **Mənbə:** {{{url}}} |
| İstifadə edilən material(lar) üçün icazə alınmışdırsa, xahiş edirik məqalənin müzakirə səhifəsində bildirəsiniz. Əks halda məqalə qismən və ya tamamilə silinəcəkdir. |

– **Şablon: {{vandal}}**

İstifadəçinin hərəkətlərində vandalizm sübut olunarsa o, administrator tərəfindən müəyyən müddətə və ya həmişəlik bloklanır. Bu zaman onun şəxsi səhifəsinə bu şablon qoyulmaqla, digər istifadəçilərə onun bloklanması haqqında xəbər verilir.

| | |
|---|---|
| | Bu istifadəçinin fəaliyyəti qeyri-müəyyən müddətə bloklanmışdır, belə ki, onun fəaliyyəti vandalizm kimi dəyərləndirilmişdir.<br>Bax. Bloklanma qeydləri. |

**5.5. Milli atributlarla bağlı şablonlar**

Vikipediya şablonları arasında hər-hansı bir ölkənin bayrağı, gerbi və ya xəritəsi təsvir edilmiş xüsusi şablonlara da rast gəlinir. Bu şablonlar yalnız o ölkə ilə bağlı məqalələrə daxil edilməlidir.

– **Şablon: {{Azərbaycan bayrağı}}**

Bu şablon Vikipediyanın Azərbaycanla bağlı səhifələrinə daxil edilir:

Şəklin Vikipediya VB-na yüklənməsi [[şəkil:Flag of Azerbaijan.svg|20px|Vlag van Azerbeidzjan]] formatında yerinə yetirilmişdir. Vikipediyanın VB-da bütün ölkələrin bayraq şəkilləri vardır ki, onlardan məqalələrdə istifadə etmək mümkündür. Teqlərlə görünüşü: [[Azərbaycan]] <noinclude> [[Kateqoriya: Bayraqlı şablonlar |{{PAGENAME}}]] </noinclude>



– **Şablon: {{111}}**

İstənilən ölkənin adının ilk üç hərfini şablon kimi göstərməklə, bu ölkənin bayrağı və haqqında məqaləyə keçid söz avtomatik yazılır. Məsələn, {{AZE}}

Azərbaycan

– **Şablon: {{Xəzər dənizi ölkələri}}**

Bu şablon Xəzər dənizi ölkələri haqqında təsəvvür yaratmağa kömək edir və bu ölkələr haqqında məqalələrin hər birinə daxil edilmişdir.

| **Xəzər dənizi ölkələri**[gizlə] |
|---|
| Azərbaycan · İran · Qazaxıstan · Rusiya · Türkmənistan |

**5.6. İstifadəçiləri kateqoriyalara ayıran şablonlar**

Vikipediya istifadəçiləri maraq dairələrinə, bildikləri dillərə, yaşadıqları ölkələrə və s. göstəricilərə görə bir-birlərindən fərqlənirlər. Bu səbəbdən bir çox xüsusiyyətlərə əsasən istifadəçiləri qruplara (kateqoriyalara) ayırmaq mümkündür. İstifadəçiləri qruplara ayırmaq üçün həmin istifadəçinin "Müzakirə səhifəsi"nə müxtəlif şablonlar daxil edilir.

– **Şablon: {{User Azərbaycanlı}}**

Şablon istifadəçinin şəxsi səhifəsinə daxil edilərək, onun millətcə azərbaycanlı olduğunu təsdiq etmiş olur. İstifadəçi haqqında müəyyən informasiya daşıyan şablon "yuzerboks" adlanır.

| | |
|---|---|
| | Bu istifadəçi **azərbaycan**lıdır. |

– **Şablon: {{User Azərbaycan}}**

Şablon istifadəçinin şəxsi səhifəsinə daxil edilərək, onun Azərbaycanda yaşadığını təsdiq etmiş olur.

| | |
|---|---|
|  | Bu istifadəçi **Azərbaycanda** yaşayır. |

Şablonların yaradılması davam etdiyinə görə onların dəqiq sayını müəyyən etmək qeyri-mümkündür. Aşağıdakı cədvəldə ən çox istifadə edilən şablonlar göstərilmişdir.

*Cədvəl 4. İstifadəçinin "Müzakirə səhifəsi"nə daxil edilmək üçün nəzərdə tutulan şablonlar*

| *Şəxsi şablonlar* | *Məqaləyə daxil olunan şablonun görünüşü* |
|---|---|
| {{Fəlsəfə}} |  Bu istifadəçi **Fəlsəfə** ilə maraqlanır |
| {{Coğrafiya}} |  Bu istifadəçi **Coğrafiya** ilə maraqlanır |
| {{Kompyüter}} |  Bu istifadəçi **Kompyuter** ilə maraqlanır |
| {{İdman}} |  Bu istifadəçi **İdman** ilə maraqlanır |
| {{Tarix}} |  Bu istifadəçi **Tarix** ilə maraqlanır |
| {{Riyaziyyat}} |  Bu istifadəçi **Riyaziyyat** ilə maraqlanır |
| {{Biologiya}} |  Bu istifadəçi **Biologiya** ilə maraqlanır |
| {{Kinematoqrafiya}} |  Bu istifadəçi **Kinematoqrafiya** ilə maraqlanır |
| Mifologiya |  Bu istifadəçi Mifologiya ilə maraqlanır |
| {{User Latin}} | **A** Bu istifadəçi **Latin əlifbasını** başa düşə bilər. |
| {{User Cyrl}} | **Я** Bu istifadəçi **Kiril əlifbasını** başa düşə bilər. |
| {{Musiqi}} |  Bu istifadəçi Musiqi ilə maraqlanır |
| {{Kişi}} |  **Kişi** istifadəçi |
| {{Qadın}} |  **Qadın** istifadəçi |



### 5.7. Müzakirə şablonları

İstifadəçilər arasında hər hansı mövzu üzrə müzakirələr aparılarkən müzakirə mövzusu olan məqalələrə müəyyən şablonlar əlavə edilir.

– **Şablon: {{müzakirə}}**

| **Bu səhifə, Vikipediya: Nəzakət səhifəsi məzmununun müzakirə edildiyi müzakirə səhifəsidir.** | |
|---|---|
| Dörd tildadan (~~~~) istifadə edərək şərhinizə imza və tarix əlavə edin. Yeni şərhlərinizi köhnələrinin altından yazın. Yeni başlıq açın. Əgər Vikipediyada yenisinizsə, Xoş gəlmisiniz ! Kənd meydanında suallarınızı yazın, onlara cavab alın. | Nəzakətli olun Xoş niyyətli olun Təhqir və təzyiqə yol verməyin Yeni istifadəçiləri çəkindirməyin |

Bu şablon çox zaman müzakirələrə səbəb olan məqalələrə daxil edilir.

### 5.8. Səsvermə şablonları

Vikipediyada istifadəçilər arasında müzakirələr zamanı çox zaman problemlər səsvermə yolu ilə həll olunur. Səsvermədə yalnız 200-dən artıq redaktəsi olanlar iştirak edə bilərlər.

– **Şablon: {{Neytral}}** – [[Şəkil:Symbol neutral vote.png|15px|Neytral]] '''Neytral'''
– **Şablon: {{Qarşı}}** – [[Şəkil:Symbol oppose vote.png|15px|Karşı]] '''Qarşı'''
– **Şablon: {{Dəstək}}** – [[Şəkil:Symbol support vote.png|15px|Destek]] '''Dəstək'''

### 5.9. Lisenziya şablonları

İstifadəçi Vikipediyaya şəkil və ya media-fayl yüklədikdə, Vikipediyanın VB-na faylın adı ilə birlikdə lisenziya şablonu da daxil edilməlidir. Lisenziya müəlliflik hüquqlarını təsdiq etməklə, istifadəçinin Vikipediya qaydalarına əməl etdiyini sübut edən faktdır. Lisenziyasız fayllar administratorlar tərəfindən silinirlər. Şəkil lisenziyalarında şəkil haqqında və əldə edildiyi mənbə haqqında ümumi məlumatlar olur.



| | |
|---|---|
| | Bu şəklin lisenziyası bildirilmədiyi üçün Vikipediyadan silinməlidir!! Faylın Vikipediyada qala bilməsi üçün onun lisenziyasının göstərilməsi vacibdir. İstifadəçi faylı yükləyərkən şəkli haradan əldə etməsi barədə məlumat verməlidir və uyğun lisenziya göstərməlidir. Göstərilən lisenziya uyğun olduğu təqdirdə, bu etiketin yerinə Vikipediya:Şəkil etiketləri səhifəsindən uyğun olan etiket əlavə edilməlidir. Fayl yükləndiyi tarixdən {{{gün}}} {{{ay}}} 2008 başlayaraq, 7 gün sonra silinəcəkdir. |

Məsələn, şəkil http://en.wikipedia.org saytından Vikipediyanın Azərbaycan bölməsinə gətirildikdə, şəkli yükləyərkən izahat pəncərəsində "İngilis Vikipediyasından alınıb" və ya digər bu mövzuda izahat yazılmalıdır. Şəkillərində lisenziya olmayan məqalələrə xüsusi xəbərdarlıq şablonu əlavə olunur və onların gələcəkdə administratorlar tərəfindən silinməsi ehtimalı böyükdür. Şəkillərə lisenziya əlavə etmək üçün müxtəlif şablonlardan istifadə edilir ki, onlardan bəziləri aşağıda göstərilmişdir:

– **Şablon: {{GFDL}}**

Bu şablonla daxil edilmiş şəkildən istifadə azaddır və müəlliflik hüququ tələb olunmur.

| | |
|---|---|
| | Köçürmək icazəsi lisenziyası, bu faylı yayımlamaq və ya onda dəyişiklik etmək üçün GNU Azad Sənədləşdirmə Lisansı sonradan yayımlanacaq versiyalar üzərində açıq və azaddır. Yalnız kitablar üçün cild üstünə və arxasına, etibarsız bölmələrə şəkil əlavə etmək üçün hüquqi imtinalara müraciət edin. |

– **Şablon: {{PD-oz}}**

| | |
|---|---|
| | **Şəkil etiketləri** işini yaradıcı şəxs olaraq **ictimai istifadəyə** verirəm. Bu hüquq bütün dünyada qüvvədədir.<br>Qanuni olaraq bunun mümkün olmadığı hallarda, **hər hansı bir şəxsə,**<br>**hər hansı bir məqsəd** üçün və qanunlar tərəfindən lazım görülməyənə qədər **heç bir şərt qoymadan** bu işdən istifadə haqqını bağışlayıram. |
| | **Müəllif hüququ** ilə bağlı bu etiket, Template:PD-self etiketindən Azərbaycan dilinə tərcümə edilərək hazırlanmışdır. |

– **Şablon: {{PD}}**

| | |
|---|---|
| | *This file has been released into the **public domain** by the copyright holder, its copyright has expired, or it is ineligible for copyright. This applies worldwide.* |
| | ***Qeyd:*** **Bu etiket köhnəlmişdir!** Bunun əvəzinə aşağıdakılardan birini istifadə edin:<br>• {{PD-old}} (müəllifinin ölümündən 100 ildən artıq vaxt keçən işlər üçün),<br>• {{PD-art}} (qədim boyakarlıq nümunələrinin şəkilləri üçün),<br>• {{PD-ineligible}} (müəllif haqqı iddia edilməsi mümkün olmayan işlər üçün),<br>• {{PD-USGov}} (hüquqları ABŞ dövlətinə aid işlər üçün),<br>• {{PD-US}} (sadəcə ABŞ üçün ictimai istifadədə olan işlər üçün),<br>• {{İM-öz}} (işin yaradıcısı tərəfindən ictimai |



| | |
|---|---|
| | istifadəyə verildikdə),<br>• {{PD-user\|*user*}} (istifadəçinin müəllif hüququndan imtina etdiyi işlər üçün),<br>• {{PD-səbəb\|*reason*}} (başqa səbəblərdən ictimai mülkiyyət olan işlər üçün). |

– **Şablon: {{ İM-sənət əsəri}}**

| | |
|---|---|
| | Bu fotoşəkildə görünən ikiölçülü əsər və bu fotoşəkilin özü onu yaradanın vəfatından 100 il ötdüyünə görə müəlliflik hüququndan azaddır və ictimai mülkiyyət hesab edilir. |

– **Şablon: {{Promo}}**

Lisenziya tərcümə olunmadığına görə olduğu kimi göstərilmişdir:

| |
|---|
| This is a copyrighted image that has been released by a company or organization to promote their work or product in the media, such as advertising material or a promotional photo in a press kit. The copyright for it is most likely owned by the company who created the promotional item or the artist who produced the item in question; you must provide source information as evidence of ownership.<br>It is believed that the use of low-resolution images of promotional material<br>to illustrate the work or product in question;<br>in the absence of free images that could serve such a purpose;<br>on the English-language Wikipedia, hosted on servers in the United States by the non-profit Wikimedia Foundation, qualifies as fair use under United States copyright law. Other uses of this image, on Wikipedia or elsewhere, may be copyright infringement. See Copyrights for more information. |

| |
|---|
| To the uploader: please add a detailed *fair use rationale* for each use, as described on Wikipedia:Image description page, as well as the source of the work and copyright information. |

- **Şablon: {{PD-old}}**

| | |
|---|---|
| | Bu şəkil azad istifadə üçündür. Belə ki, ABŞ və bəzi başqa ölkələrdə bu şəkilin müəlliflik hüququ azaddır. Azad lisenziya onunla izah olunur ki, şəklin müəllifi 100 ildən çoxdur ki, vəfat etmişdir. |

- **Şablon: {{ PD-yararsız}}**

| | |
|---|---|
| | Bu şəkil müəlliflik hüququnun obyekti deyildir. |



## FƏSİL 6. VİKİPEDİYA CƏMİYYƏTİN AYNASIDIR

Vikipediya bu gün dünyada güvənilən və çox populyar informasiya mənbəyi kimi tanınır. Tələbələr, jurnalistlər, alimlər və müxtəlif peşə sahibləri İnternetdə məlumat axtarışında, məhz bu resursa üstünlük verirlər.

Vikipediyadakı məqalələrin digər ensiklopediyalarla müqayisədə həddən artıq çox və dolğun olmasına baxmayaraq, ümumi halda bütün ensiklopediyanın artıq hazır olduğunu, məqalələrin hamısının mütəxəssislər tərəfindən yoxlandığını demək çox tezdir. Lakin buna baxmayaraq bu gün Vikipediya dünyada hər-hansı ilkin məlumat mənbəyi kimi tanınır.

Vikipediyanın yaradıcılarından biri olan Cimmi Uels deyir: “Mən Vikipediyada çoxlu sayda “ağ ləkələrin” olduğu vaxtı xatırlayıram və o zamanlar istifadəçilər bir çox vacib mövzular haqqında hər-hansı informasiyanı tapa bilmirdilər. İndi isə bizdə 2 mln.-dan artıq (ingilis dili bölməsində) müxtəlif mövzulara aid materiallar vardır, lakin görüləsi işlər hələ çoxdur: çoxlu sayda məqalələri redaktə etmək lazımdır və məhdud informasiyaya malik mövzuları yaddan çıxarmaq olmaz” [23].

### 6.1. Vikipediyada informasiya müharibəsi

Müasir dövrdə cəmiyyətin əsas iqtisadi, elmi və mənəvi məhsulu kimi elmi bilik və informasiya resursları nəzərdə tutulur. Bu baxımdan müasir dövrdə ictimai hakimiyyət və güc pul sahiblərinin yox, informasiya sahiblərinin əlindədir. Bu gün cəmiyyətin əsas iqtisadi, siyasi, elmi və mənəvi məhsulu kimi elmi bilik və informasiya resursları ön plana çəkilir. Nəticədə ictimai hakimiyyət və güc pul sahiblərinin deyil, informasiya sahiblərinin əlində toplanmaqdadır.

Vikipediya ictimai baxışın formalaşmasında, siyasi, iqtisadi və mədəni sahələrdə bilik əldə etmək üçün geniş imkanlara malikdir.

İnternet istifadəçilərinin fikrinə görə, Vikipediyanın ən böyük problemi məqalələr uğrunda baş verən virtual müharibələr və şəbəkə vandallarıdırlar. Ensiklopediyanın üzərində düzəlişə icazə verilirsə, kimlərinsə başqalarının əməyini korlamaq istəyində olması qaçılmazdır. Bu cür informasiya anarxiyası informasiyanın doğruluq dərəcələrinin aşağı düşməsinə səbəb olur. Skeptiklər Vikipediyada təqdim olunan informasiyanın qeyri-düzgün olmalarını sübut etməyə çalışarkən, məhz bu arqumentləri göstərirlər. Britaniyanın "Nature" elmi jurnalının əməkdaşları Vikipediyada və "Britannika" məşhur ensiklopediyasında yerləşdirilmiş elmi məqalələrin düzgünlüyünü qiymətləndirmək üçün ekspertlər dəvət etmək qərarına gəldilər. Alimlər hər iki ensiklopediyadakı məqalələri, bu və ya digər məqalənin hansı ensiklopediyadan olduğunu bilmədən təhlil edərək, hər iki ensiklopediyanın hərəsində, ümumi xarakterli dörd ciddi səhv olduğunu müəyyən etmişdilər. Beləliklə, Vikipediya dəqiqlik və doğruluq üzrə kompetent yoxlamaya davam gətirdi. Lakin buna baxmayaraq, mənbə kimi, Vikipediyadan hər hansı elmi araşdırmalar üçün istifadə etmək və ona istinad etmək düzgün deyildir. Belə ki, məqalələrin istənilən anda müxtəlif İnternet istifadəçiləri tərəfindən dəyişdirilməsi ehtimalı çox böyükdür. Bu baxımdan. Vikipediya konkret sahə barədə ümumi informasiya ilə tanış olmaq və mövzu ilə əlaqədar mənbələr əldə etmək üçün daha əlverişlidir [24].

Digər tərəfdən, Vikipediyada ensiklopedik məqalələrin məzmunları minlərlə könüllülər tərəfindən diqqətlə yoxlanılır ki, onlar vaxtaşırı məqalələrdəki səhvləri aradan qaldırırlar. Vikipediyanın düzgünlüyünü yoxlamaq qərarına gələn bir-neçə "New York Times" qəzetinin əməkdaşı virtual ensiklopediyada yerləşdirilmiş məqalələrin bəzilərində hiss olunmayacaq dəyişikliklər etmiş, bəzilərini isə tamam silmişdir. Çox qısa zamanda məqalələrin ilkin vəziyyəti bərpa olunmuşdur ki, bu da Vikipediyanın dinamik olduğunu və hər zaman nəzarətdə saxlandığını bir daha sübut etdi [25].



Vaxtaşırı Vikipediyada bu və ya digər məqalənin silinməsi haqqında tələblər təqdim olunur. Vikipediyanın administratorları ensiklopediyada dərc olunan bütün səhifələri izləyirlər və bəzi hallarda mübahisəyə səbəb olan məqalələrdə müvəqqəti olaraq azad redaktəyə qadağa qoyur, bəzən isə məqaləni tamamilə bağlayırlar. Məsələn, Vikipediyanın rus bölməsində "Нагорный Карабах" məqaləsində olduğu kimi. Baş administrator (stüard) Maksim Semyonnikin dediyi kimi, istifadəçilərin uzun müddətli müzakirələrdə ortaq məxrəcə gələ bilmədiklərini nəzərə alaraq məqalənin dəyişdirilməsinə bir müddət qadağa qoyulmuşdur. "Нагорный Карабах", "Азербайджанцы", "Культура Азербайджана", "Кавказская Албания" və bir çox məqalələri nəzərdən keçirdikdə, məlum olur ki, təsdiq olunmamış informasiyaya Vikipediyada rast gəlinməsi təəssüf ki, mümkündür [26].

Bunun üçün Azərbaycan dilindəki Vikipediyanı qurmaqla yanaşı, ingilis, fransız, rus, alman, ispan və digər dillərdə olan Vikipediyalara da əlavələr edilməli, Azərbaycan və onun ayrılmaz hissəsi olan Qarabağ haqda həqiqətlər dünyaya çatdırılmalıdır.

### 6.2. Vikipediya üzrə statistik göstəricilər

Vikipediya artıq praktiki olaraq bütün vacib sahələr haqqında müəyyən dərəcədə informasiyaya malikdir. 2010-cu ilin may ayının məlumatına əsasən Vikipediya on-line ensiklopediyasında məqalələrin ümumi sayı artıq 15,7 milyon olmuşdur. Nəzərə alsaq ki, "Britannika" ensiklopediyasında məqalələrin sayı – 120000, Böyük Sovet Ensiklopediyasında məqalələrin sayı – 95279, Brokqauz və Efron ensiklopedik lüğətdə məqalələrin sayı – 121240-dır, o halda Vikipediyanın necə nəhəng sistem olduğunu təsəvvür etmək olar. Vikipediyada məqalələrin artma tempi ildən ilə yüksəlməkdədir. Buna səbəb ilk növbədə, dünyada İnternet istifadəçilərinin sayının çox sürətlə artması və Vikipediyanın dünyanın bir nömrəli ensiklopediyasına çevrilməsidir (şəkil 25).




*Şəkil 25. Vikipediyanın ingilis dilindəki bölməsində (http://en.wikipedia.org) məqalələrin illər üzrə artım diaqramı*

### *6.2.1. Wikipedia Scanner proqramı*

ABŞ konqresmenlərinin özləri haqqında məlumatların Vikipediyada dəyişdirdiklərini eşidən gənc amerikalı tələbə Vircil Qriffit (Virgil Griffith), Vikipediyadakı məqalələrin kim tərəfindən dəyişdirildiyini təyin edə biləcək proqram hazırlamaq qərarına gəlir. Bu məqsədlə o, Wikipedia Scanner proqramını yaradır. Proqram məqaləni redaktə etmiş istifadəçinin İP ünvanını skanerdən keçirərək, onun hansı təşkilatın kompyuterindən istifadə etdiyini və hansı dəyişiklikləri apardığını müəyyən edir (şəkil 26).

Wikipedia Scanner proqramının tətbiqi bir çox maraqlı faktlar üzə çıxartdı və məlum oldu ki, bir çox rəsmi və tanınmış təşkilatlar Vikipediya ensiklopediyasında məlumatların onların xeyrinə olmasında maraqlıdırlar:

- Microsoft kompaniyası XBOX 360 sisteminin sıradan çıxması faktlarının sayını azaltmağa çalışmışdır.



- Apple kompaniyası Vikipediyada Microsoft haqqında olan məqalələrdə düzəlişlər edərək, bu təşkilat haqqında bəzi xoşagəlməz fikirlər söyləmişdir. Nəticədə Microsoft da öz növbəsində eyni tərzdə Apple kompaniyasına cavab vermişdir.
- Amerikanın rəsmi təşkilatları 11 sentyabr hadisələri haqqında məqalələrə terrorda İrak hökumətinin əli olduğunu bildirən mətnlər daxil etmişdilər.
- Portuqaliya hökuməti Portuqaliyanın dövlət xadimləri haqqında məqalələrdə düzəlişlər etmişdir.
- Britaniyanın konservatorlar partiyası parlamentdəki üzvləri və siyasi kursları haqqında olan məqalələrdə düzəlişlər etmişdilər.
- "Coca-Cola" şirkətinin məhsulları haqqında olan məqalələrdən koka-kolanın insan orqanizmi üçün ziyanlı olduğunu xəbər verən məlumatları silmişdir.
- Dünyada ən böyük fərdi şirkət olan "ExxonMobil", eyni adlı məqalədə neftin okeanlara tökülməsi nəticəsində, Yerin ekoloji sisteminə dəyən ziyanın həcmini daha az göstərməyə çalışmışdır.
- "MySpace" şirkəti serverinin xakerlər tərəfindən korlanması haqqında informasiyanı Vikipediya məqalələrindən silmişdir.
- ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) kompyuterlərindən Vikipediyada bir çox məqalələrə düzəlişlər aparılmışdır. Buna misal olaraq, İranın prezidenti Mahmud Əhmədinicat haqqındakı məqaləni göstərmək olar.
- Vatikan kompyuter istifadəçisi tərəfindən İrlandiya respublika ordusunun siyasi qanadı Şinn Feyn partiyasının lideri Jerri Adams haqqında məqalədən bir çox faktlar silinmişdir.
- MKİ-nin eks başçısı Porter Qoss və bir çox tanınmış şəxslər haqqında məqalələrə də düzəlişlər edilmişdir.




*Şəkil 26. Wikipedia Scanner proqramının (http://wikiscanner.virgil.gr) veb-saytı*

Microsoft korporasiyası şirkət və onun məhsulları haqqında məqalələrə düzəlişlər aparmaq üçün xüsusi bu işə cəlb edilmiş mütəxəssislərə küllü miqdarda pul ödədiyini etiraf etmişdir. Hətta ABŞ konqresinin əməkdaşlarının siyasi mövzularda məqalələrə düzəlişlər etdiyi məlum olmuşdur.

Göründüyü kimi, Vikipediya ensiklopediyasının qeyri-rəsmi layihə olduğuna baxmayaraq, orada yerləşdirilmiş məlumatların məzmunu çoxlarını düşündürür və narahat edir.

Vikipediyadakı məqalələrin düzgünlüyünə arxayın olmaq, təəssüf ki, mümkün deyil. Əsasən də əgər bu məqalələr kiminsə siyasi baxışları ilə düz gəlmirsə, hansısa şirkətlərin və məşhur şəxsin adına xələl gətirirsə, kimlərinsə mənfəət əldə etməsinə mane olursa, o zaman məqalələrin hər zaman düzgün variantlarının Vikipediyada olması şübhə altında olur. Lakin Wikipedia Scanner proqramının mütəxəssislərə məqalədəki



dəyişikliklərin hansı serverdən edildiyini müəyyən etməsi, son zamanlar rəsmi təşkilatların kompyuterlərindən edilən redaktələrin sayının müəyyən qədər azalmasına səbəb olmuşdur [27].

### *6.2.2. Vikipediya məqalələrinə olunan müraciətlər*

Vikipediyada yaradılan milyonlarla məqalələrin hansının daha çox marağa səbəb olması, daha çox müraciət olunmasını bilmək hər bir Vikipediya istifadəçisinin, eləcə də virtual ensiklopediya istifadəçisinin arzusudur.

http://stats.grok.se saytına daxil olmaqla Vikipediyada istənilən məqaləyə olunan müraciətlərin sayını öyrənmək olar. Bu statistik göstərici virtual məkanda hansı mövzuların daha çox diqqət mərkəzində olduğunu göstərmiş olur. Misal üçün, 2008-ci il, ingilis dilində "Azerbaijan" məqaləsinə ayda orta hesabla 90 min, Ermənistanla bağlı məqaləyə müraciətlərin sayı orta hesabla cəmi 7 min olmuşdur (şəkil 27, 28). Sonrakı illərdə aparılan müşahidələr Azərbycan haqqında məqalələrə olan müraciətlərin Ermənistana nisbətən daha çox olmasını təsdiq etmişdir. Bu da Azərbaycana beynəlxalq aləmdə daha çox maraq göstərildiyindən xəbər verir.

Vikipediyanın fəaliyyət göstərdiyi ilk illərdə bu cür statistik göstəricilərin əldə edilməsində müəyyən çətinliklər var idi. Serverlərin çox yüklənməsindən qorxaraq statistik göstəricilər saxlanılmırdı, digər səbəb isə virtual cəmiyyətdə qalmaqalın yaranacağı qorxusu idi. Lakin son zamanlar müxtəlif statistik informasiya sistemlərinin yaradılması prosesinə təkan verilmişdir.

http://stats.grok.se saytında hər-hansı məqalə haqqında statistik informasiya əldə etmək lazımdırsa, istifadəçi həmin məqalənin yazıldığı dili, statistikanın hansı tarix üçün nəzərdə tutulduğunu, məqalənin dəqiq adını "Enter another wikipedia article titli" sahələrində göstərməlidir. Digər tərəfdən, statistik göstəricilərin əldə edilməsi Vikipediyanın daha şəffaf fəaliyyətinə səbəb olacaqdır. Belə ki, artıq məqalənin nə dərəcədə vacib və maraqlı olmasını təyin edən "alət"

yaradılmışdır. Əgər məqaləyə həftələrlə və ya aylarla müraciət olunmursa, həmin məqalənin silinməsi məsələsi də qalxa bilər.




*Şəkil 27. Vikipediyanın ingilis dili bölməsindəki "Azerbaijan" məqaləsinə olan müraciətlərin sayının təyin edilməsi (http://stats.grok.se/en/200804/Azerbaijan)*

Yuxarıda deyilənlərə onu da əlavə etmək lazımdır ki, saytda heç bir məsuliyyət daşımadığı haqqında məlumat verilmişdir: *"This is very much a beta service and may disappear or change at any time".*

### *6.2.3. Search Wikia axtarış sistemi*

Vikipediya ensiklopediyasının daxili axtarış sisteminin keyfiyyəti bu layihənin populyar olmasına səbəb olan əsas amillərdəndir. Odur ki, Vikipediyanın yarandığı ildən (2001) başlayaraq, layihə üçün mükəmməl daxili və xarici axtarış sisteminin işlənməsi əsas şərt idi. 2007-ci ildə Vikipediya layihəsinin müəlliflərindən biri, Cimmi Uels bəyan etdi ki, Wikia LookSmart kompaniyasından Vikipediya üçün axtarış



sistemi əldə etmişdir. "Reuters" informasiya agentliyinin xəbər verdiyi kimi, yeni axtarış xidməti olan Wikia rəsmi olaraq 2007-ci ilin sonlarında ümumi istifadəyə verildi. Razılaşmanın məbləği açıqlanmırdı [28].




*Şəkil 28. Vikipediyanın ingilis dili bölməsindəki "Armenian" məqaləsinə olan müraciətlərin sayının təyin edilməsi (http://stats.grok.se/en/200804/Armenian)*

2008-ci ilin iyun ayında fəaliyyətə başlamış Search Wikia xüsusi sistemi (http://search.wikia.com/wiki/Search_Wikia/en), əvvəlcədən nəzərdə tutulduğu kimi, Vikipediya layihəsinin ümumi qaydasına uyğun, könüllülər hesabına genişləndirilir və inkişaf etdirilir. Search Wikia haqqında suala Cimmi Uels: – "Axtarış mexanizmi olan Search Wikia-nın hələ ki, alfa-versiyası realizə olunmuşdur. Bu sistem "Google" axtarış sisteminin tamqiymətli rəqibi hesab oluna bilməz" deyə cavab vermişdir (şəkil 29).




*Şəkil 29. Search Wikia axtarış sisteminin veb-saytı*

Lakin Cimmi Uels hesab edir ki, gələcəkdə Search Wikia Google, Yahoo, Microsoft tərəfindən təklif edilən axtarış sistemləri ilə müqayisədə daha effektli alternativ olacaqdır: "Əgər biz axtarış sorğularında keyfiyyətli nəticələr əldə edə bilsək, mən fikirləşirəm ki, bu axtarış servisləri bazarında güclərin yerləşdirilməsini əhəmiyyətli dərəcədə dəyişəcəkdir. Açıq axtarış platformasının köməyi ilə biz bu bazarın liderləri olan Google, Yahoo və Microsoft-a qarşı dura bilərik".

Vikipediya ensiklopediyası üçün nəzərdə tutulmuş bu sistemdə, virtual ensiklopediyada qeydiyyatdan keçmiş şəxslər sosial şəbəkəyə qoşularaq dostlarının siyahısını, onların daxil etdikləri şəkil və məqalələrin kataloqunu əldə etməklə yanaşı, istədikləri istifadəçinin ümumi fəaliyyəti haqqında məlumat toplaya bilərlər.

Nəzərdə tutulmuşdur ki, Search Wikia sistemində axtarışların əvvəlində mini məqalə veriləcəkdir və bu məqaləyə



konkret suala cavab olaraq avtomatik yaradılmış məlumat daxil olacaqdır. Məlumat şəkil, səs və mətn şəklində təqdim olunacaqdır. Mini-məqalənin altında isə Search Wikia indeksindən seçilmiş axtarış nəticələri veriləcəkdir. Hal-hazırda burada 50-100 mln. veb-səhifə yığılsa da Cimmi Uels onların sayının az olmasından narazıdır və ümid edir ki, gələcəkdə onların sayı daha çox olarsa, Search Wikia axtarış sisteminin daha keyfiyyətli işləməsi mümkün olacaqdır.

Digər tərəfdən istifadəçilər ayrı-ayrılıqda axtarış nəticələrinin reytinqini təyin etmək imkanı əldə edəcəklər ki, növbəti sorğular zamanı Search Wikia sistemi bunu nəzərə alacaqdır. Bu üsulla istifadəçilər axtarışın alqoritmik nəticələrinə təsir edə biləcəklər.

Sistemdə spamlara qarşı proqram da nəzərdə tutulmuşdur və əgər kimsə sistemdən spamların yayılması üçün istifadə etmək fikrinə düşərsə, o şəxs, administrator tərəfindən aşkar edilərək bloklanacaq və gələcəkdə onun layihədə iştirakına qadağa qoyulacaqdır. Gələcəkdə sistemə şəkil və xəbərlər üzrə keçidlərin qoyulması da nəzərdə tutulmuşdur. Search Wikia sistemində ilk zamanlar yalnız ingilis dilində olan saytlara keçidlərin qoyulması nəzərdə tutulsa da, artıq, alman, fransız, rus və bir çox dillərdə olan saytların siyahısı genişlənməkdədir. Gələcəkdə tədricən müxtəlif dillərdə fəaliyyət göstərən saytların da bu siyahıya daxil edilməsi gözlənilir.

Cimmi Uelsin bildirdiyinə görə Search Wikia sisteminin proqram təminatı, oradakı verilənlər və indeks pulsuz veriləcək və onları hər kəs əldə edərək şəxsi axtarış sistemi yaratmaq imkanına malik olacaqdır.

Search Wikia layihəsi ilə Wikia kommersiya kompaniyası məşğul olur. 40 nəfər işçisi olan bu kompaniyada Cimmi Uels Wikia direktorlar şurasının sədri vəzifəsini icra edir. Nəzərə almaq lazımdır ki, Wikia və Vikimedia ayrı-ayrı təşkilatlardır və Wikiadan fərqli olaraq, Vikipediya virtual ensiklopediyasının layihələrini idarə edən Wikimedia Foundation qeyri-kommersiya təşkilatıdır [29].

## 6.3. Vikipediyanın qadağan edildiyi ölkələr

Vikipediya virtual ensiklopediyasının açıq və dinamik olması, demokratiyanı dəstəkləməyən bəzi dövlətlərin hakimiyyət orqanlarının ciddi narazılıqlarına səbəb olmuşdur. Bunların siyahısına Çin, İran, Kuba, Şimali Koreya kimi dövlətlər daxildir. Bu dövlətlərin hakimiyyət orqanları Vikipediyanı cəmiyyət üçün zərərli hesab edərək, qərb mədəniyyətinin ziyanlı xüsusiyyətlərinin bu ensiklopediya vasitəsilə ölkələrinə daxil olduğunu bildirirlər. Onlar virtual ensiklopediyanın gənclərin təlim-tərbiyəsinə zərər verəcəyindən, dünyaya baxışlarını Avropa və Amerika siyasətinə uyğun olaraq dəyişdirəcəyindən ehtiyatlanırlar.

### *6.3.1. Vikipediya Çində*

Yarandığı müddət ərzində Vikipediyanın Çin bölməsi bir-neçə dəfə bağlanmışdır.

Çin Xalq Respublikası vətəndaşlarına virtual ensiklopediyaya müraciət, ilk dəfə, 2-21 iyun, 2004-cü ildə qadağan edilmişdir. Buna səbəb Vikipediyada "Tyananmen meydanında 1989-cu il hadisələri" məqaləsi səbəb olmuşdur. İkinci dəfə Çin istifadəçilərinin Vikipediya azad ensiklopediyasına müraciətinə 23-27 sentyabr, 2004-cü ildə qadağa qoyuldu. Üçüncü bloklama 19 oktyabr, 2005-ci ildə baş verdi. 2006-cı ilin 10-17 noyabr müddətində açılmağına baxmayaraq, Vikipediya ensiklopediyası 2008-ci ilə kimi Çində qadağan edilmişdir.

2008-ci ilin sonlarında Çində bir çox veb-saytlara qoyulmuş qadağalar ləğv edildi. Bu saytlar arasında BBC xəbər agentliyinin və Vikipediya ensiklopediyasının portalları da var idi. Çində Vikipediyaya müraciətlərin sayı digər, əhalicə böyük ölkələrlə müqayisədə az olmasına baxmayaraq, Cimmi Uelsin bildirdiyinə görə, son aylarda Vikipediyanın Çin dilindəki bölməsində məqalələrin sayında yüksək artım tempi müşahidə edilməkdədir. Təəssüf ki, Çin dilinin potensialı Vikipediyada lazımınca realizə olunmayıb və Hind dilləri ilə müqayisədə Çin dillərindəki məqalələrin artım tempi hələ ki, aşağıdır [30].



### *6.3.2. Vikipediya İranda*

İranın İnternet istifadəçilərinin Vikipediya ensiklopediyasına müraciətinə blok 3 dekabr, 2006-çı ildən qoyulmuşdur. Yalnız Vikipediya deyil, İran istifadəçiləri YouTube və IMDB saytlarına da həsrətdirlər. Belə hesab olunur ki, İranda bəzi saytlara qadağanın qoyulması ölkədə "Qərb mədəniyyətinə qarşı" başlayan kompaniyaya səbəb olmuşdur.

İran polisinin idarə rəisi Əhməd Ruzbehani jurnalistlərə açıqlamasında «əxlaqa zidd materiallar yayan internet saytlarının sahibləri və istifadəçilərinə qarşı mübarizənin yeni mərhələsinə başlandığını» bildirib. O, qanunu pozan bir sıra internet saytlarının qapadıldığını və onlardan istifadə edənlərin həbsə salındığını vurğulayıb: «Hüquq mühafizə qüvvələri internet qaydalarını pozanlara, sayt və bloqlarında qadağan olunmuş material yerləşdirənlərə qarşı ciddi tədbirlər görməyi planlaşdırıb» [31].

İran Məhkmə Sistemi rəsmilərinin verdiyi rəsmi məlumata görə, son illərdə dövlət quruluşuna qarşı təbliğat aparmaqda və əxlaqa zidd material yaymaqda təqsirli bilinən 5 milyon sayt və bloqun fəaliyyətinə son qoyulub. Lakin nəzərə almaq lazımdır ki, müasir dünyada qloballaşmanın, informasiya-texnologiyalarının inkişafının qarşısını almaq, gəncləri İnternet-resurslardan, yeni informasiya sistemlərindən istifadə etməməyə məcbur etmək mümkün deyil. 2009-cu ildə İran ərazisindən Vikipediya ensiklopediyasının saytına müraciət bərpa edilmişdir.

## 6.4. İKT-nin inkişaf tempinin Vikipediyaya təsiri

Müasir informasiya texnologiyaları praktiki olaraq bütün sahələrə daxil olaraq, insanların informasiya mədəniyyətinin ayrılmaz bir hissəsinə çevrilməkdədir. İnformasiya resurslarının çoxalmasından, informasiya-kommunikasiya texnologiyasının (İKT) inkişafından asılı olaraq insanlar arasında ünsiyyət formaları, millətlərin leksikonundakı dəyişikliklər daha kəskin özünü göstərməklə, dilin zənginləşməsinə, dildə yeni anlayışların, terminlərin yaranmasına səbəb olur.

Vikipediya ensiklopediyasında əsas iş 150 milyon könüllüdən ibarət, məqsədləri biliklərini azad paylamağa yönəlmiş dünya birliyinin üzərinə düşür. Cimmi Uelsin dediyinə görə, Vikipediya ensiklopediyasının zənginləşməsində aktiv iştirak edən İnternet istifadəçilərinin 10%–ni elmlər namizədləri, 15–20%-ni universitetlərin aspirantları, yarıdan çox hissəsini isə yuxarı kurs tələbələri təşkil edir. Hər ay 275 milyon adam Vikipediyanın 271 dildə fəaliyyət göstərən və reklamlar yerləşdirilməyən veb-saytlarındakı informasiyadan pulsuz və rahat istifadə edir [32].

Vikipediyada məqalələrin artma tempi daima yüksəlməkdədir. Buna səbəb ilk növbədə, dünyada İnternet istifadəçilərinin sayının çox sürətlə artması və Vikipediya virtual ensiklopediyasının dünyanın bir nömrəli ensiklopediyasına çevrilməsidir.

Təhlillər göstərir ki, Vikipediya ensiklopediyasının dil üzrə bölmələrinə olunan müraciətlərin sayı, o dildə danışan ölkələrdə İKT-nin inkişafından və İnternet istifadəçilərinin sayından asılıdır. Qərbi Avropa və Şimali Amerika ölkələrinin informasiya cəmiyyətinə (İC) sürətli inteqrasiyası Vikipediya on-line, açıq ensiklopediyasında öz əksini tapmışdır. Bu ölkələrin serverlərindən Vikipediyaya daha çox istifadəçi daxil olur.

Wikimedia Foundation təşkilatı yaxın vaxtlarda xüsusi araşdırmalar aparmaq fikrindədir. Araşdırmaların aparılmasında əsas məqsəd Vikipediya azad ensiklopediyasında fəaliyyət göstərən insanlar haqqında daha çox məlumat toplamaqdır. Vikipediyada anonim istifadəçilərə də redaktələrdə istifadə etmək imkanı çox zaman bu ensiklopediyanın normal fəaliyyətində əngəllər yaradır və bu məsələ Wikimedia Foundation təşkilatında müzakirələrə də səbəb olmuşdur.

Vikipediya dünyada ən çox müraciət olunan saytlar siyahısında qalmaqdadır. Belə ki, Vikipediya ensiklopediyasına saniyədə 65000 sorğu göndərilir. Milyonlarla İnternet istifadəçiləri dünyanın müxtəlif yerlərindən, könüllü olaraq, öz vaxtlarını və biliklərini bu azad ensiklopediyada məqalələrin



yaradılmasına və redaktəsinə sərf edirlər. Sual oluna bilər – onları buna vadar edən nədir? Necə olur ki, insanlar təmənnasız olaraq biliklərini başqaları ilə bölüşdürməyə razı olurlar? Bütün bu sualların cavablarını Wikimedia Foundation təşkilatı araşdırmalar nəticəsində tapmağa çalışır. Araşdırmalarda iştirak edən professor Lyuk Soyetin (Luc Soete) dediyi kimi: "Vikipediya – qiyməti olmayan bir mənbədir, əsasən də inkişaf etməkdə olan ölkələrdə. Belə ki, bu ölkələrdə Vikipediyaya analoq yoxdur. Vikipediyanın necə işləməsini başa düşmək – bizim araşdırmamızın əsas məqsədidir" [33].

Vikipediya azad ensiklopediya olduğundan dövlət strukturları üçün işləmir. Lakin, artıq bir çox ölkələrdə dövlət strukturları Vikipediyadan istifadə edirlər. Məsələn, Amerika məhkəmələrində ondan məlumat kitabçası kimi istifadə olunduğu heç kəsə sirr deyil.

### 6.5. Dilin qorunması və inkişafında Vikipediyanın rolu

İnternet layihələrindən ən uğurlusu sayılan Vikipediya ensiklopediyası milli dil ilə bağlı problemin öhdəsindən uğurla gəlməkdədir. Xalqın psixologiyasını, xasiyyətini və dünya görüşünü xarakterizə edən əsas mədəni mənbələrdən olan milli dili mühafizə edərək gələcək nəsillərə olduğu kimi çatdırmaq müasir cəmiyyətimizdə ən aktual problemlərdəndir. Dil elə bir məfhumdur ki, onu digər mədəniyyət nümunələri kimi muzeylərdə saxlayaraq qorumaq mümkün deyildir [34].

Hər hansı bir dildə çap olunan lüğətlər, əlifbalar, qrammatik dərsliklər bu dilin gələcəkdə də olduğu kimi qorunub saxlanmasına zəmanət vermir. Bu səbəbdən, ölməkdə və yaxud sürətlə dəyişməkdə olan dillərin qorunması üçün ilk növbədə həmin dillərdə azad, virtual ensiklopediyanın yaranması vacibdir. Bu baxımdan Vikipediya virtual ensiklopediyası məqalələrin istənilən İnternet istifadəçiləri tərəfindən və istənilən dildə yaradılmasına icazə verməklə, dillərin qorunmasına, zənginləşməsinə və yayılmasına bilavasitə yardım etmiş olur. Vikipediyada müxtəlif terminlər barədə müzakirələr aparmaq, mübahisələr nəticəsində ümumi

qərar qəbul etmək artıq ənənə halını almışdır. Vikipediya müxtəlif dillərə malik olduğundan, məqalələrə hipermətnlər daxil edildiyindən, hər kəs virtual ensiklopediyanın təşkilində iştirak edə bilər. Hər bir məqalə digər dillərdə analoqa malik olduğundan beynəlxalq istinadlardan istifadə etməklə onlara əsaslanmaq mümkündür. Son zamanların müşahidələri göstərmişdir ki, Vikipediya ensiklopediyasına tələbə və gənclərlə yanaşı, dilçilərin, tarixçilərin, siyasətçilərin maraqları artmaqdadır [35, 36].

Hər bir dilin qorunması, onun daha da zənginləşdirilməsi işində virtual ensiklopediyaların, ilk növbədə isə Vikipediyanın daha kütləvi hal alması vacib şərtlərdəndir. Dünya klassik ədəbiyyatının, texniki, ümumiyyətlə sahə ədəbiyyatının dilimizə tərcümə olunaraq Vikipediya ensiklopediyasına daxil edilməsi Azərbaycan dilinin zənginləşdirilməsində əvəzolunmaz işdir. Belə ki, gənc nəsil - şagirdlər, tələbələr təhsil prosesi zamanı, eləcə də müəllimlər lazım olan hər hansı bir məlumatı əldə etmək istədikdə xarici saytlara yox, elə öz doğma ana dilimizdə olan Vikipediya ensiklopediyasına müraciət edərək, daha dolğun və geniş informasiya əldə edə bilsinlər [37].

Sayına görə ən çox məqalələr Vikipediyanın ingilis dilindəi bölməsindədir (http://en.wikipedia.org). 2010-cu ilin may ayına olan məlumata əsasən Vikipediyanın bu bölməsində məqalələrin sayı artıq 3 milyona çatmışdır. Digər nəhəng bölmələr alman (http://de.wikipedia.org, məqalələrin sayı – 1 milyon), fransız (http://fr.wikipedia.org, məqalələrin sayı – 948 min), polyak (http://pl.wikipedia.org, məqalələrin sayı – 700 min), yapon (http://ja.wikipedia.org, məqalələrin sayı – 676 min), rus (http://ru.wikipedia.org, məqalələrin sayı – 635 min), türk (http://tr.wikipedia.org, məqalələrin sayı – 144 min) və s. dillərindədir. Bu siyahıda Azərbaycan dilindəki Vikipediya ensiklopediyası (http://az.wikipedia.org) 34 min məqalə ilə 53-cü yerdədir.



### 6.6. Vikipediya təhsildə

Vikipediya on-line ensiklopediyasının artıq 8 ildir ki, yaranmasına baxmayaraq, elm və təhsil sahələrində ona münasibət müxtəlifdir. Ensiklopediya yeni yarandığı illər məktəblərdə, universitetlərdə və digər təhsil müəssisələrində tələbələrə Vikipediya ensiklopediyasından öz işlərində istifadə etməyə icazə vermirdilər. Hətta bəzən tələbənin Vikipediya ensiklopediyasına müsbət fikrinə görə qiymətinin kəsilməsi hallarına da rast gəlinirdi. Lakin nəzərə alsaq ki, dünyanın bir çox universitetlərində professorlar tələbələrin ümumiyyətlə İnternetdən istifadəsinə qadağa qoyulmasını təklif edirdilər, o zaman Vikipediyaya qarşı mənfi münasibəti başa düşmək olardı. Onu da qeyd etmək lazımdır ki, İnternetlə bağlı yalnız Vikipediya layihəsinə qarşı mənfi münasibətlərə rast gəlinmirdi, Google, Yahoo, bloqlarla, forumlarla bağlı layihələr də universitet professorları tərəfindən tez-tez tənqidlərə məruz qalırdılar.

İKT-nın inkişafı və müxtəlif on-line layihələrinin cəmiyyətin müxtəlif sahələrinə inteqrasiyası və ümumiyyətlə informasiya cəmiyyətinin inkişafı ilə əlaqədar artıq təhsilin İnternetə, o cümlədən Vikipediyaya, münasibəti dəyişməkdədir. Vikipediya layihəsi də artıq 5 il əvvəlki vəziyyətdə deyil. Vikipediyaya gün-gündən daha təcrübəli, savadlı, ciddi istifadəçilərin cəlb edilməsi, bu ensiklopediyadakı məqalələrin artıq daha dolğun, düzgün, tam şəkildə olmasına səbəb olmuşdur. Nəzərə almaq lazımdır ki, məqalələr prinsipiallığı və ciddiliyi ilə digər istifadəçilərdən fərqlənən administratorlar tərəfindən nəzarətdə saxlanılır. Odur ki, son zamanlar təhsil sahələrində Vikipediyaya münasibət kökündən dəyişməkdədir. Artıq universitet müəllimləri özləri tələbələrə kurs işlərində virtual ensiklopediyadan, eləcə də Vikipediyadan istifadə etməyə tövsiyə edirlər. Bir çox ölkələrdə Vikipediya virtual ensiklopediyası tələbələrin tədris elementinə çevrilmişdir. Məsələn, Amerikanın Bottel universitetində müəllimlər tələbələrə referat əvəzinə Vikipediyada məqalə yazmağı təklif etdilər. Təcrübə çox uğurlu alındı. Tələbələrin mövzu üzərində

ciddi tədqiqat aparmaq məcburiyyəti, eyni zamanda mənbələrdən düzgün istifadə edərək, onların ensiklopediyada göstərilməsi qaydaları ensiklopediya üçün məqalə yaratmağın çox ciddi və məsuliyyətli iş olduğunu bir daha sübut etdi. Belə ki, məqalələr bir müəllim tərəfindən deyil, yüzlərlə İnternet istifadəçiləri və mütəxəssislər tərəfindən yoxlanılırdı və düzgün olmayan məqalələr tez bir zamanda ensiklopediyadan silinirdi. Artıq bu təcrübə Amerikanın digər universitetlərində də həyata keçirilir. Professorlar kurs işi əvəzinə tələbələrə Vikipediyada, bu və ya digər mövzularda məqalələr yaratmağı tələb edirlər. Bir zamanlar virtual ensiklopediyadan üz döndərmiş, onu yarımçıq və hətta saxta məqalələr yığımı olmaqda ittiham edən elm dünyası artıq Vikipediyaya qarşı münasibətini dəyişməkdədir. Bu gün artıq Vikipediya ensiklopediyası açıq tədris ideyasını, daha doğrusu biliyə açıq müraciət ideyasını həyata keçirən ən nəhəng layihədir. Bununla belə, ensiklopediyadakı məqalələri klassik elmi məqalələr adlandırmaq olmaz. Lakin zaman keçdikcə, daha sanballı və dolğun məqalələrin sayı çoxaldıqca, daha çox müraciət olunan layihəyə çevrildikcə ona qarşı münasibət də dəyişməkdə davam edir [38].

### 6.7. Vikipediya və Azərbaycan

Zəngin Azərbaycanımızın tarixi, mədəniyyəti, şəhər və rayonları, alimləri, siyasətçiləri, şair və yazıçıları, mətbəxi, geyimləri və s. haqqında dürüst məlumatların, maksimum neytrallığın və obyektivliyin qorunması şərti ilə Azərbaycan Vikipediyasına və digər dillərdə fəaliyyət göstərən Vikipediya ensiklopediyalarına yeni məqalələr şəklində daxil edilməsi və artıq mövcud olan məqalələrin təkmilləşdirilməsi vacibdir.

İngilis, rus, fransız və alman dilli ölkələrlə müqayisədə Azərbaycanda Vikipediya çox tanınmır. Buna da səbəb, İnternet istifadəçilərinin maraqlarının müxtəlif olmasıdır. Yəni İnternet istifadəçilərinin əsas hissəsini gənclər təşkil etdiklərindən, onlar İnternetdən ən çox əyləncə, çatda söhbətləşmə və dərs hazırlamaq məqsədi ilə lazımı informasiyanın tapılmasında



istifadə edirlər. İkinci, Azərbaycanın yeni informasiya texnologiyaları sahəsində dünyanın qabaqcıl ölkələrindən hələ də geri qalmasıdır, baxmayaraq ki, son zamanlar bu sahədə böyük irəliləyişlər vardır. Üçüncü, əhalidə Vikipediya haqqında məlumatın az olmasıdır.

Azərbaycan dilində yaranan Vikipediya 2004-cü ildə www.az.wikipedia.org ünvanı altında fəaliyyətə başlamışdır. Hal-hazırda Vikipediyanın Azərbaycan bölməsi 34 min məqalə ilə 271 yer içində 53-cü yerdədir.

Vikipediyanın Azərbaycan bölməsində məqalələr iki əlifbada: latın və ərəb əlifbasında yaradıla bilər. Ərəb əlifbasının daxil edilməsində əsas səbəb İran Azərbaycanında yaşayan 30 mln. azərbaycanlıların da bu ensiklopediyada məqalə yaratmaq istəyindən irəli gəlir. Lakin buna baxmayaraq araşdırmalar göstərir ki, Vikipediyanın Azərbaycan bölməsindəki məqalələrin yarısından çoxu latın qrafikası ilə yazılmışdır. Bu da Azərbaycan Respublikasından olan istifadəçilərin İran Azərbaycanından olan istifadəçilərə nisbətən daha fəal olmasından xəbər verir.

Yaddan çıxartmayaq ki, Azərbaycan tarixini saxtalaşdıran, tarixi abidələrini özünküləşdirən ermənilərə qarşı virtual şəkildə mübarizə aparmaq üçün Vikipediyada Azərbaycan haqqında informasiyanı biz xarici dillərdə də dərc etməliyik. Azərbaycan dilindəki Vikipediyanı zənginləşdirməklə yanaşı rus, ingilis, fransız, alman və s. dillərdə fəaliyyət göstərən Vikipediyalara nəzarət etmək, ermənilərin və ermənipərəst qüvvələrin virtual ensiklopediyaya daxil etdiyi dezinformasiyanın qarşısını alaraq oraya düzgün və obyektiv məqalələr əlavə etmək vacib məsələlərdəndir. Vikipediyanın rus dilindəki bölməsində (www.ru.wikipedia.org) yerləşdirilmiş «Шуша», «Нахчиван», «Нагорный Карабах», «История Азербайджана», «Битва Karabax», «Ходжалы», «Низами» və onlarla hər bir azərbaycanlının qürur hissinə toxunan bu cür məqalələr vətənini sevən azərbaycanlını sakit buraxa bilməz (şəkil 30, 31).



*Şəkil 30. Vikipediyanın rus dilindəki bölməsində "Шуша" məqaləsi*

Vikipediyanın rus bölməsində ermənilər Azərbaycana virtual müharibə elan edərək artıq bütün sahələrdə, istər siyasi, istərsə də mədəni sahələrdə hücuma keçmişlər. Məsələn, Azərbaycanın dahi şairi Nizami haqqında məqalədə (http://.ru.wikipedia.org/wiki/Низами) bildirilir ki, Nizami fars şairidir. Nəsimi haqqında məqalədə isə azərbaycanlı şair Nəsiminin ərəb olduğu göstərilir. Məqalələrin tarixçəsinə baxarkən bir çox Azərbaycan haqqında məqalələrdə olduğu kimi onların erməni, fars istifadəçiləri tərəfindən redaktə olunduğu və nəzarətdə saxlanıldığı məlum olur.

Hətta bir çox məqalələr Vikipediya virtual ensiklopediyasında Azərbaycana qarşı informasiya müharibəsinin mütəşəkkil və əvvəlcədən hazırlanmış aparıldığını tam sübut edir. Bu çür məqalələrdən biri də «Азербайджанизация Низами» məqaləsidir (şəkil 32).





*Şəkil 31. Vikipediyanın rus dilindəki bölməsində "Ходжалы" məqaləsi*

Vikipediyada Azərbaycanın milli-mədəni sahələrini əhatə edən – ədəbiyyatı, tarixi, coğrafi yerləri, tanınmış şəxsiyyətləri və s. mövzulardakı bütün məqalələr də ermənipərəst qüvvələrin nəzarətindədir. Ermənilər Vikipediyaya iş yeri kimi baxırlar və bu ensiklopediya erməni tarixçiləri, siyasətçiləri, ədəbiyyatçıları və s. ermənilər tərəfindən Azərbaycana qarşı yeni-yeni dezinformasiya ilə doldurulur.

Son zamanların müşahidələri göstərir ki, Vikipediya dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlıların toplandığı yerə çevrilmişdir. Əgər coğrafi baxımdan fiziki dünyada Azərbaycan iki yerə bölünmüşdürsə, Vikipediyada virtual Azərbaycan tamdır. Yəni, həm şimalı, həm də cənubi Azərbaycan Vikipediya ensiklopediyasında vahid Azərbaycan olaraq tanınır və burada fəaliyyət göstərən azərbaycanlılar yazılarında istədikləri əlifbadan, həm latın, həm də ərəb əlifbasından istifadə edə bilərlər (şəkil 33).




*Şəkil 32. Vikipediyanın rus dilindəki bölməsində "Азербайджанизация Низами" məqaləsi*

Vikipediya virtual ensiklopediyası Azərbaycan diasporunun vətənə bağlılığını təmin etməklə, həmvətənlərimizin milli informasiya məkanına daxil olmalarına şərait yaratmaqla yanaşı, biliklərini digərləri ilə paylaşmalarına imkan yaratmışdır. Vikipediyanın Azərbaycan bölməsi dünyadakı hər bir azərbaycanlının öz ana dilində Azərbaycanın tarixi, ədəbiyyatı, coğrafiyası, adət-ənənələri, bayramları, tanınmış şəxsiyyətləri haqqında geniş məlumat əldə etmək imkanı verir. Bunu nəzərə alaraq Azərbaycanlı İnternet istifadəçiləri Vikipediya ensiklopediyasında Azərbaycanın milli-mədəni dəyərlərini təmsil edən məqalələrin düzgün və keyfiyyətli olmalarını istəyirlərsə, bu layihədə iştiraklarının mümkünlüyü haqqında ciddi fikirləşməlidirlər. Vikipediyadan istifadə baxımından bizim qarşımızda duran əsas məqsəd – İnternetin ən nəhəng ensiklopediyası olan Vikipediyada



Azərbaycan həqiqətlərini işıqlandıran məqalələrin sayının və keyfiyyətinin yüksəlməsidir.




*Şəkil 33. Vikipediyanın Azərbaycan bölməsinin Ana səhifəsi*

Nəzərə almaq lazımdır ki, dünyanın ən tanınmış kütləvi informasiya vasitələri (KİV) nümayəndələri, media işçiləri, siyasətçilər, hüquqçular, tələbələr hər hansı informasiyanı İnternetdən tez əldə etmək üçün birinci növbədə Vikipediyaya müraciət edirlər və oradakı informasiyadan çox zaman mənbə kimi istifadə edirlər. Demək, istər adi İnternet, istərsə də adi KİV istifadəçisində istənilən hadisə haqqında fikir formalaşdırmaqda Vikipediyanın rolu əvəzolunmazdır [39].

Vikipediya layihəsində fəaliyyət göstərən azərbaycanlı istifadəçilərin sayının az olması məqalələrin sayına və keyfiyyətinə öz təsirini göstərir. Müşahidələr göstərir ki, məqalələrin ensiklopediyaya daxil edilməsi tempi o dildə danışan ölkələrdə İKT-nin inkişafından və İnternet istifadəçilərinin sayından asılıdır. Qərbi Avropa və Şimali Amerika ölkələrinin İC-nə sürətli inteqrasiyası Vikipediya

ensiklopediyasında da öz əksini tapmışdır. Bu ölkələrin serverlərindən Vikipediyaya daha çox istifadəçi daxil olur.

Son illər ərzində milli azad ensiklopediyamızda radikal dəyişikliklər baş verməkdədir. Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunda Vikipediya ilə bağlı tədqiqatların aparılması, institutun "Tədris-innovasiya mərkəzi"ndə tədris zamanı aspirant və dissertantlara virtual ensiklopediyalar haqqında, ilk növbədə isə Vikipediya haqqında məlumatların verilməsi və azad ensiklopediyalarda məqalələrin yaradılma qaydalarının öyrədilməsi, institutun əməkdaşları tərəfindən cəmiyyətimizə yeni reallıqlar gətirən İnternet, o cümlədən Vikipediya ilə bağlı problemlərin müxtəlif kütləvi informasiya vasitələrində işıqlandırılması, Vikipediya virtual ensiklopediyası haqqında cəmiyyətdə müəyyən təsəvvürün yaradılmasına təkan verdi (şəkil 34).




*Şəkil 34. Vikipediyanın Azərbaycan bölməsində (http://az.wikipedia.org) məqalələrin illər üzrə artım diaqramı*



### *6.7.2. İnternetə dövlət dəstəyi*

XXI əsrdə dövlətin informasiya təhlükəsizliyi mühüm məsələdir. Hər bir dövlət öz informasiya ehtiyatlarını qorumaqla qüdrətini hiss etdirə bilər. Azərbaycan informasiya ehtiyatlarının mühafizəsini təşkil etməkdə ciddi problemlərlə üzləşir. Ölkənin dövlət, qeyri-dövlət qurumlarının İnternet səhifələrinin erməni hakerləri tərəfindən dağıdılması ilə bağlı faktlar yetərincədir. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə Respublika Prezidentinin 2005-ci il tarixdə fərmanı vətəndaşların informasiya azadlığını tənzimləyən normativ aktıdır. İnformasiya resurslarından və texnologiyalarından cinayət və terror məqsədləri üçün istifadə etməyin qarşısının alınması, insan hüquqlarının qorunması, fərdi məlumatların toxunulmazlığı və söz azadlığı haqqında müddəalara əməl olunması İnternet məkanında qarşıya çıxan əsas problemlərdəndir. İnsan haqlarının qorunması ilə yanaşı, İnternetdə terrorizmin bütün formaları və təzahürlərinə qarşı mübarizənin aparılması, rəqəmsal bərabərsizliyin aradan qaldırılması üçün tədbirlərin görülməsi və uşaqların, gənclərin inkişafında, əlil insanların, gender probleminin həllində İKT-nin rolunun artırılması vacibdir.

Azərbaycan dilində fəaliyyət göstərən Vikipediya azad ensiklopediyasının zənginləşdirilməsində, Azərbaycan dilində informasiya resurslarının virtual məkanda geniş yayılmasına xidmət edərək Azərbaycanın maraqlarının dünyada təbliğinə xidmət edən alimlər, tələbələr, media işçiləri ilə yanaşı yeni İnternet texnologiyalarından istifadə etməyi bacaran mütəxəssislərə böyük ehtiyac vardır. Azərbaycan xalqının nümayəndələri bu gün dünyanın müxtəlif ölkələrində yaşayır. Onların sayı hazırda 50 milyonu aşmaq üzrədir. Bu elə də az rəqəm deyildir. Əgər bu 50 milyonun yarısı Vikipediya ensiklopediyasına doğma dilində bir məqalə daxil etsə, Azərbaycan milli-mədəni dəyərlərinin qorunub saxlanılmasında müəyyən bir iş görmüş olar, nəticədə dilimiz nəinki inkişaf

edər, hətta beynəlxalq dillər sırasına daxil olmaq iqtidarında olar.

Ölkəmizdə İKT-nin inkişafı və geniş tətbiqi, rəqəmsal bərabərsizliyin aradan qaldırılması, potensial investorların ölkənin İKT bazarına cəlb olunması nəticəsində Azərbaycan regionda aparıcı ölkə kimi İKT mərkəzinə çevrilməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 oktyabr 2005-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı" ("Elektron Azərbaycan") bir daha göstərir ki, ölkəmizdə İKT-nin inkişafı və İC qurulması üzrə dövlət siyasəti həm iqtisadi, həm də siyasi sahələrin inkişafına, şəffaf dövlət və yerli özünüidarəetmənin formalaşmasına, rəqəmsal bərabərsizliyin ləğvinə, güclü iqtisadiyyatın yaradılmasına, cəmiyyətin demokratik inkişafına, insanların yaşayış səviyyələrinin yüksəlməsinə yönəlmişdir. Bu proqramda bir çox tədbirlərin yerinə yetirilməsi nəzərdə tutulmuşdur. İlk növbədə informasiya məhsullarının və texnologiyalarının istehsalı, yayılması və effektiv istifadəsi sahələrində Azərbaycanla digər inkişaf etmiş dövlətlər arasındakı fərqin azaldılmasına yönəlmiş məsələlərin həll edilməsinin vacibliyi göstərilmişdir. Bütün bunları nəzərə alsaq, əminliklə deyə bilərik ki, Vikipediya layihəsində də Azərbaycan öz sözünü qətiyyətlə deməkdədir.

Azərbaycanda İnternetin inkişaf tempi getdikcə artır və İnternet mühitində yüzlərlə kataloqlar, İnternet resursları, elektron mağaza, elektron əmək birjaları, virtual kitabxanalar və müxtəlif mövzuları əhatə edən saytlar yaradılaraq istismara verilməkdədir. Son zamanlar Azərbaycanın müxtəlif regionlarında İnternetin inkişafına güclü zəmin yaradılmışdır. 2007-ci ildə "Beynəlxalq Telekommunikasiya İttifaqı" (BTİ) təşkilatı İnternet istifadəçilərinin sayına görə dünya ölkələrinin reytinqini açıqlayıbdır. Reytinq tərtib edilərkən hər ölkənin 100 nəfərindən neçəsinin İnternet istifadəçisi olduğu hesablanıb və araşdırma 198 ölkəni əhatə edib. Birinci yeri Yeni Zelandiya tutub. Bu ölkədə hər 100 nəfərdən 80 nəfəri İnternet



istifadəçisidir. İkinci yerdə İslandiyadır. BTİ-nin 2008-ci il üçün verdiyi məlumata, Azərbaycanda hər 100 nəfərdən 37 nəfəri İnternet istifadəçisidir. Ermənistan bizdən çox geridə qalır ki, orada hər 100 nəfərə 10 İnternet istifadəçisi düşür. Axırıncı yeri isə Tacikistan tutur. Burda hər 100 nəfərdən yalnız 7-si İnternetdən istifadə edir. BTİ-nin məlumatına görə, bu gün dünyada 2 milyarddan çox əhali İnternet istifadəçisidir. Azərbaycan tarixini saxtalaşdıran, Azərbaycan mədəniyyətini özününküləşdirməyə çalışan ermənilərə qarşı virtual şəkildə mübarizə aparmaq üçün Azərbaycan xalqının mədəniyyəti, tarixi, bu günü və gələcəyi haqqında məqalələr Vikipediya virtual ensiklopediyasında Azərbaycan dili ilə yanaşı, rus, ingilis, fransız, alman və s. populyar dillərdə dərc edilməli, artıq mövcud olan düzgün məlumatlar isə qorunmalı və zənginləşdirilməlidir.

# FƏSİL 7. VİRTUAL ENSİKLOPEDİYALAR

Ensiklopedik saytlar İnternetdə nəşr olunmuş ilk layihələrdəndir. "Britannica", daha sonra isə "Encarta" kimi məşhur ensiklopediyalar hələ 1990-cı illərdə artıq virtual məkanda tanınmağa başladılar. 90-cı illərin sonunda isə "Kirill və Mifodiy", "Rubrikon" və Böyük Sovet Ensiklopediyası kimi ensiklopedik portallar az müddət ərzində çoxlu sayda İnternet oxucusunu cəlb etdi. İnternetin informasiya bolluğunda ensiklopedik resurslar, ilk növbədə, orada yerləşdirilən məlumatların etibarlılığına görə fərqlənirlər. Digər virtual mənbələrdən fərqli olaraq, virtual ensiklopediyalar ayrı-ayrı məşhur şəxslər, tarixi hadisələr, ölkələr və təşkilatlar, eləcə də terminoloji anlayışlar haqqında daha dəqiq faktiki məlumat əldə etmək üçün əlverişlidir. Bu baxımdan naməlum predmetin öyrənilməsində və tədqiqatlarda virtual ensiklopediyalara müraciət istifadəçinin professionallığından xəbər verir. Bu mənbələrdən konkret predmet sahəsi üzrə ilkin informasiya əldə etməklə, tədqiqatı daha da genişləndirib axtarış sistemlərinə və müxtəlif resurslara müraciət etmək olar.

İnternet məkanında müxtəlif elektron ensiklopediyalar mövcuddur. Bu ensiklopediyalar iki yerə bölünür: məqalələrində redaktəyə icazə verən – azad virtual ensiklopediyalar və redaktəyə icazə verməyən – qapalı virtual ensiklopediyalar. Vikipediya ensiklopediyası və viki texnologiyası ilə yaradılan digər ensiklopediyalar azad ensiklopediyalar siyahısına daxildir.

## 7.1. Viki texnologiyası ilə fəaliyyət göstərən ensiklopediyalar

2001-ci ildən başlayaraq virtual ensiklopediya anlayışı köklü surətdə dəyişdi. Vikipediya layihəsi ensiklopedik resursların yaradılmasında prinsipial olaraq yeni yanaşmalar üçün əsas oldu. Vikipediyanın yaradılması və müvəffəqiyyətli



inkişafından sonra İnternetdə Viki texnologiyası ilə fəaliyyət göstərən analoji layihələr yaradılmağa başlandı və bu proses indi də davam edir. Bu layihələrdə yerinə yetirilən dəyişikliklər müxtəlif üsullarla aparılır və hər bir ensiklopediya üçün özəl tələblər qoyulubdur. Bu ensiklopediyalardan bir çoxu Vikipediya qədər populyar olmasalar da, müxtəlif mövzuları əhatə etməklə 100 minlərlə İnternet oxucusunu cəlb edir [40].

### *7.1.1. Sitizendium (Citizendium)*

Sitizendium sözü (Citizendium – Citizens Compendium of Everything) Azərbaycan dilinə tərcümədə "hər şey haqqında vətəndaş xülasəsi" mənasını verir. www.en.citizendium.org ünvanı ilə fəaliyyət göstərən Sitizendium on-line ensiklopediyasında Vikipediyadan fərqli olaraq anonim düzəlişlərə icazə verilmir. Ensiklopediyada redaktələri yalnız qeydiyyatdan keçmiş İnternet-istifadəçilər yerinə yetirə bilərlər (şəkil 35).




*Şəkil 35. Sitizendium virtual ensiklopediyasının veb-saytı*

Vikipediyanın yaradıcılarından biri olan Larri Sanqer 2007-ci il martın 26-da virtual ensiklopediyaya alternativ olan, lakin Vikipediyadan fərqli olaraq nəzarət olunan Sitizendium on-line ensiklopediyasını yaratdığı barədə xəbər verdi. Senqer bildirdi ki, təkcə ingilis dilində 3 mln.-dan artıq məqaləyə malik olan Vikipediyanın müvəffəqiyyətini etiraf edir, lakin orada məqalələrin anonim istifadəçilər tərəfindən korlana biləcəyi ehtimalının olması onu təəssüfləndirir. Vikipediyada olduğu kimi, Sitizendium da pulsuzdur və istifadəçilər tərəfindən zənginləşdirilir. Lakin burada müəllifin göstərilməsi vacibdir, məqalələr isə ekspertlər tərəfindən təsdiq olunmalıdırlar. Məqsəd isə Vikipediya olan problemin Sitizendiumda qarşısını almaq, ilk növbədə çoxsaylı səhvlərdən və ziyankarlıqlardan ensiklopediyanı qorumaqdır.

Hal-hazırda mətnlərin düzəlişində iştirak üçün təqribən 900 müəllif və 200 redaktor cəlb edilmişdir. Saytda artıq 13,8 mindən çox məqalə yerləşdirilmişdir ki, onlardan çoxu ekspertlər tərəfindən təsdiqlənmış, digərlərinin dəqiqlik dərəcələri yaşıl işarə ilə bildirilmişdir.

"Əgər yeni, pulsuz ensiklopediya buraxılırsa, o zaman o, hiss olunacaq qədər daha yaxşı olmalıdır. İstifadəçilərin bütün səlahiyyətlərə malik olduqları halda Vikiyə ziyan vurmaqları məni məyus etdi. Odur ki, mən onun inkişaf etdirilməsində bir növ mümkünlük görmürəm" – deyə Senqer bildirmişdir.

Onun fikrincə avtorizasiyanın olması Sitizendium ensiklopediyasında qalmaqalların qarşısını alacaqdır. Senqer əmindir ki, Sitizendiumun professional və əlyetərli olması Vikipediyadan fərqli olaraq, bu layihəyə daha çox auditoriya cəlb edəcəkdir [41].

### *7.1.2. Everything2*

Everything2 (http://everything2.com) layihəsi – Viki texnologiyasına oxşar texnologiya vasitəsilə insan biliyinin bütün sahələrindən informasiya toplayan veb-sayt və on-line cəmiyyətdir. İnternetdə fəaliyyət göstərən ən böyük virtual ensiklopediyalardan biridir (şəkil 36).



Everything2 ensiklopediyasından əvvəl Neyt Oostendorp (Nate Oostendorp) tərəfindən 1998-ci ildə Everything (E1) saytı yaradıldı. Sayt Slashdot bloqu ilə sıx bağlı idi və bloq tərəfindən reklam olunurdu. Everything2 proqram təminatı Everything (E1) proqramına nisbətən daha funksionaldır. 13 noyabr 1999 və 2000-ci illərdə Everything (E1) saytındakı bütün məlumatlar Everything2 virtual ensiklopediyasına köçürüldü.




*Şəkil 36. Everything2 virtual ensiklopediyasının veb-saytı*

### *7.1.3. MusicBrainz*

MusicBrainz (http://www.musicbrainz.org) virtual ensiklopediyasını açıq musiqi ensiklopediyası da adlandırırlar. Ensiklopediya ingilis dilindədir. MusicBrainz ensiklopediyada musiqilər deyil, yalnız onlar haqqında informasiya saxlanılır. Ensiklopediyaya daxil edilmiş bütün məlumatlar (ifaçılar, albomlar, treklər və s. haqqında məlumatlar) ictimai mülkiyyət

hesab edilir. Burada saxlanılan əlavə məlumatlar isə, məsələn, moderasiyalar haqqında informasiya isə Creative Commons lisenziyası ilə yayımlanır.

MusicBrainz virtual ensiklopediyası Robert Keem tərəfindən yaradılmışdır. 2004-cü ilin dekabrından layihə MetaBrainz Foundation qeyri-kommersiya təşkilatı tərəfindən idarə edilir (şəkil 37).




*Şəkil 37. MusicBrainz virtual ensiklopediyasının veb-saytı*

### 7.1.4. PlanetMath

PlanetMath (http://planetmath.org) – ingilis dilində fəaliyyət göstərən açıq virtual ensiklopediyasıdır. Ensilopediya adından da göründüyü kimi riyaziyyatla bağlı məqalələrin yığıldığı VB-dir. PlanetMath Vikipediya kimi GFDL lisenziyası ilə işləyir (şəkil 38).






*Şəkil 38. PlanetMath on-line ensiklopediyasının veb-saytı*

Layihə Virciniya Texniki Kollecinin Rəqəmsal Tədqiqat laboratoriyasının kitabxanasında yerləşir. O, MathWorld azad ensiklopediyasının məhkəmə tərəfindən 12 aylıq bağlanmasına cavab olaraq yaradılmışdır. PlanetMath ensiklopediyasının yaradılmasında və idarə edilməsində Perl proqram təminatından istifadə olunur. Ensiklopediya istifadəçilərinə hər-hansı məqalə haqqında öz fikrini yazmaq, iradlarını bildirmək, məqaləyə əlavələr etmək ixtiyarı verilir.

### 7.1.5. WikiTravel

WikiTravel (http://wikitravel.org) turizmlə bağlı məqalələr toplanmış, azad virtual ensiklopediyadır. Ensiklopediya çoxdili olmasına baxmayaraq, əsasən ingilis, alman, rus dillərində fəaliyyət göstərir. WikiTravel ensiklopediyası Evan Prodromu tərəfindən, 2003-cü ilin iyul ayında yaradılmışdır və özlüyündə hər zaman təzələnən, müxtəlif marşrutlar üzrə bələdçidir. Eyni zamanda

ensiklopediyada bir çox dillərdə danışıq kitabçaları da yaradılmışdır. Məqalələrin sayı 2010-cu ilin yanvar ayı üçün 40 minə yaxındır. WikiTravel ensiklopediyası MediaWiki azad proqram təminatı əsasında, "Creative Commons" lisenziyası ilə işləyir.

Ensiklopediyada müxtəlif reklamların loqotipləri qoyulmuşdur. Lakin qeydiyyatdan keçmiş hər bir istifadəçi istədiyi reklamı bağlaya bilər (şəkil 39).




*Şəkil 39. WikiTravel on-line ensiklopediyasının veb-saytı*

### *7.1.6. Wikimapia*

Wikimapia (http://wikimapia.org) Viki texnologiyası ilə işləyən virtual ensiklopediyadır. Ensiklopediyaya müxtəlif xəritələr daxil edilmişdir. Eyni zamanda bu sayt vasitəsilə dünyanın istənilən yerinin kosmosdan çəkilmiş şəkillərinə baxmaq mümkündür. Ensiklopediya Google Maps



(http://maps.google.com) saytındakı məlumatları özündə birləşdirmişdir (şəkil 40).



*Şəkil 40. Wikimapia virtual ensiklopediyasının veb-saytı*




*Şəkil 41. Letopisi ensiklopediyasında Azərbaycan dili bölməsi*

### *7.1.7. Wikiznanie*

Azərbaycan dilində “Vikibilik” adlanan on-line ensiklopediyası (http://www.wikiznanie.ru) böyük, universal, hipermətn elektron ensiklopediyadır. Viki texnologiyası əsasında işləyən ensiklopediya pulsuzdur və hər bir İnternet istifadəçisi qeydiyyatdan keçmədən ondan istifadə edə bilər. “Викизнание” rus dilində olub, BSD (Berkeley Software Distribution) lisenziyası ilə fəaliyyət göstərir (şəkil 41).

### *7.1.8. Letopisi*

Letopisi ensiklopediyası (http://letopisi.ru) rus dilində fəaliyyət göstərən virtual ensiklopediya hesab edilsə də, ensiklopediyanın Azərbaycan, fransız, alman, ukrayna və qazax dillərində bölmələri işlək vəziyyətdədir. Layihəyə yalnız elmi məqalələrin və tədrislə bağlı məlumatların daxil edilməsinə icazə verilir (şəkil 42).




*Şəkil 42. “Викизнание” virtual ensiklopediyasinin veb-saytı*



2010-cu il, may ayına olan məlumata görə Letopisi ensiklopediyasında məqalələrin sayı 40 mindən artıqdır. Layihəyə, ilk növbədə məktəblilər, tələbələr və müəllimlər dəvət olunurlar.

### *7.1.9. Wapedia*

Vapediya (Wapedia) virtual ensiklopediyası da (http://wapedia.mobi) Viki texnologiyası əsasında 2004-cü ildə yaradılmışdır.

Vapediyanın mənası yolda olan ensiklopediya deməkdir. Veb-sayt Vikipediya məqalələrinin kiçik ekranlı qurğularda (mobil telefonlar və PDA) baxışı üçün nəzərdə tutulmuşdur. Sayt ən yeni məqalələrə baxmaq imkanı yaradır və digər tərəfdən Vikipediya serverlərinin daha az yüklənməsi və trafiki təmin edilmiş olur.

Vikipediyanın standart səhifələri kiçik ekranlı qurğularda baxış və naviqasiya üçün çox böyük olduqlarından, Vapediyada böyük səhifələr daha kiçik hissələrə bölünmüşlər. Şəkillər isə kiçik ekranlara uyğun ölçülərə gətirilmişlər. Nəticədə trafika qənaətlə yanaşı, səhifələrin və şəkillərin yüklənmə sürəti artmış olur. Əlavə olaraq Vapediya ensiklopediyası Vikipediyadan asılı olmayan axtarış sistemindən istifadə edir. Vapediya WML və XHTML mobil formatlarını dəstəkləyir. Hər bir qurğu üçün format avtomatik olaraq təyin olunur və məqalələr Vikipediyadan asılı olmayan VB-dən gətirilir (şəkil 43).

Vapediyaya alternativ olan digər ensiklopediyalar:

- http://wapedia.mobi/ru/ – kiçik ekranlı qurğular üçün Vapediya ensiklopediyası
- http://wikipedia.7val.com – WAP formatında Vikipediya ensiklopediyası
- http://www.wapedia.org/ru/ – adi veb-brauzerlər üçün elektron ensiklopediya
- http://wiki.beelinekz.wapstart.ru
- http://mtswikipedia.ru
- http://wiki.wapcity.ru




*Şəkil 43. Vapediya veb-səhifəsinin görünüşü*




*Şəkil 44. Open-Site ensiklopediyasının veb-saytı*



### *7.1.10. Open Encyclopedia Project*

Open Encyclopedia Project (OEP) virtual ensiklopediyası (http://open-site.org) adından da göründüyü kimi dünyada “Açıq ensiklopedya” adı ilə tanınır. Qısa şəkildə ensiklopediyanı çox zaman "Open-Site” adlandırırlar. OEP ensiklopediyası 2002-ci ildə Mixail Flikinqer (Michael J. Flickinger) tərəfindən yaradılmışdır. Vikipediya virtual ensiklopediyasında olduğu kimi, burada da məqalələrin daxil edilməsi könüllü İnternet istifadəçilərinə həvalə edilmişdir. Ensiklopediyada qeydiyyatdan keçmək vacib deyil.

OEP ensiklopediyası "Mozilla Public License” lisenziyası ilə yayılan açıq proqram təminatından istifadə edir (şəkil 44).

### *7.1.11. Stanford Fəlsəfə Ensiklopediyası*

*Stanford Fəlsəfə Ensiklopediyası* (Stanford Encyclopedia Philosophy, http://plato.stanford.edu) ingilis dilində fəaliyyət göstərir. Stenford universiteti tərəfindən təqdim olunan və dəstəklənən fəlsəfə üzrə on-line ensiklopediyadır (Şəkil 45).




*Şəkil 45. Stenford Fəlsəfə Eensiklopediyasının veb-saytı*

Ensiklopediya 1995-ci ildə N.Edvard tərəfindən yaradılmışdır. Hər bir məqalə bu sahə üzrə ekspert tərəfindən yaradılaraq nəzarət olunur. Ekspertləri dünyanın 65 akademik institutunun professorları təşkil edirlər. On-line statusundan əlavə, ensiklopediya ənənəvi akademik yanaşmaya da sadiqdir, yəni bir çox ensiklopediyalarda və ensiklopedik jurnallarda olduğu kimi, məqalələrin keyfiyyətini artırmaq üçün müəllif-mütəxəssislərdən istifadə olunur və məqalələrin kompetent redaksiya şurası tərəfindən diqqətlə yoxlanılması həyata keçirilir. Ensiklopediya ingilis dilində olub, dinamikdir və daima təzələnir.

### *7.1.12. İntellipediya*

İntellipediya (http://www.odni.gov) Viki texnologiyası əsasında işləyən, lakin İnternet istifadəçilərinin redaktəsinə bağlı olmayan ensiklopediyadır. Ensiklopediya ABŞ-ın qapalı, dövlət kompyuter şəbəkəsinin Viki-sistemidir (şəkil 46).

İntellipediya yalnız dövlət strukturunda işləyən əməkdaşların informasiya mübadiləsi üçün nəzərdə tutulmuşdur. Joint Worldwide Intelligence Communications sistemində işləyir, TCP/IP protokolu ilə ötürülür və ABŞ-ın 16 xüsusi xidmət orqanlarını birləşdirir. 2006-cı ilin 17 aprel tarixində yaradılan İntellipediyanın əsas serveri Mepilend ştatındakı Fort Meade-Anerikanın Milli Təhlükəsizlik Agentliyində yerləşir.

2010-cı ilin məlumatına görə İntellipediyada 4 minə yaxın məqalə yerləşdirilmiş və 4600 istifadəçi qeydiyyatdan keçmişdir. İntellipediya ensiklopediyasının əsas funksiyası ABŞ-ın xarici və daxili siyasəti ilə bağlı xüsusi xidmət orqanlarındakı məruzələrin ensiklopediyanın VB-da yığılmasından ibarətdir.

Ensiklopediya Director of National Intelligence (ODNI) təşkilatı tərəfindən maliyyələşir.






*Şəkil 46. İntellipediya ensiklopediyasının veb-saytı*

### *7.1.13. Wookieepedia*

Vukipediya (Wookieepedia, the Star Wars Wiki, http://starwars.wikia.com) Viki texnologiyası ilə yaradılmış azad ensiklopediyadır. Adından da göründüyü kimi, ensiklopediya ulduz müharibələri haqqındadır. Wikia inc. təşkilatı tərəfindən maliyyələşdirilir. Çard Barbri (Chad Barbry) tərəfindən 4 mart, 2005-ci ildə yaradılmışdır. Vukipediyadakı ilk məqalələrin çoxunu Vikipediya ensiklopediyasından gətirilmiş məqalələr təşkil edirdi. Belə ki, Vikipediya üçün əhəmiyyətli hesab edilməyən bir çox məqalələr, oradan silindikdən sonra, həmin məqalələrin müəllifləri onları Vukipediyada yerləşdirməyə başladılar.

Vukipediya ensiklopediyası 8 dildə fəaliyyət göstərir. 2007-ci ilin aprelində Vukipediya ən çox müraciət olunan viki-ensiklopediya olmuşdur. 2009-ci ilin sonlarında

ensiklopediyanın ingilis dili bölməsində məqalələrin ümumi sayı 80 min olmuşdur (şəkil 47).




*Şəkil 47. Vukipediya virtual ensiklopediyasının veb-saytı*

### *7.1.14. WikiTree*

WikiTree (http://wikitree.org) virtual ensiklopediyası dünyada nə vaxtsa yaşamış bütün insanlar haqqında informasiyanı yığaraq avtomatik "nəsil ağacı" yaradır. Ensiklopediyanın məqsədi İnternetdə bütün insanlar haqqında informasiya təqdim etməkdir.

WikiTree layihəsi 25 aprel, 2005-ci il tarixində fəaliyyətə başlamışdır və MediaWiki azad proqram təminatından istifadə edir. Ensiklopediyada məqalələrin sayı 2010-cu ilin yanvar ayına görə 62 minə yaxındır. Layihə hələ ki, 12 dildə (ingilis, alman, fransız, rus və s.) fəaliyyət göstərir (şəkil 48).






*Şəkil 48. WikiTree virtual ensiklopediyasının veb-saytı*

### *7.1.15 Absurdopediya*

Absurdopediya (http://absurdopedia.wikia.com) zarafat və satira yönümlü məqalələrin yığılmasından yaranan virtual ensiklopediyadır. Belə ki, məqalələr Absurdopediyaya satirik parodiyalar şəklində yazılır. Hər bir məqalədə yumora yer verilsə də, çox zaman həmin yumorlarda cəmiyyətin hadisəyə və ya şəxsə olan münasibəti öz əksini tapır.

Sayt bir neçə dildə fəaliyyət göstərir. Əsas ingilis dilindəki bölmə hesab edilir. 2005-ci ilin yanvarında Conatan Huanq tərəfindən yaradılmışdır. İngilis dilindəki bölmədə, 10 may 2010-ci il tarixinə görə 25 minə yaxın məqalə vardır. Ensiklopediya MediaWiki proqramı əsasında yaradılmışdır. Ensiklopediyanın ingilis dili bölməsi Creative Commons, qalan bölmələr isə GNU FDL lisenziyası ilə işləyir. Vikipediyadan fərqli olaraq, reklamlar hesabına maliyyələşir (şəkil 49).




*Şəkil 49. Absurdopediya veb-saytının Ana səhifəsi*

### *7.1.16. Drevo*

Drevo (http://drevo.pravbeseda.ru) açıq Provoslav ensiklopediyası kilsə və tarixə aid İnternet ensiklopediyadır. Viki texnologiyası əsasında yaradılmış ensiklopediya əsasən Pravoslav şəriət dərsi və Pravoslav kilsəsinin tarixi, Pravoslav müqəddəsləri, monastır və məbədləri, məşhur din xadimləri və siyasətçiləri haqqında məqalələrin toplusundan ibarətdir. Bu ensiklopediyada digər dinlər və sektalar haqqında da informasiya vardır. Layihə 2005-ci ilin may ayından fəaliyyət göstərir. Hal-hazırda ensiklopediyada 7000-dən artıq məqalə yerləşdirilmişdir. Drevo ensiklopediyası açıq İnternet resurslar siyahısına daxildir. Virtual ensiklopediyadakı məqalələrdən mənbə göstərilmək şərti ilə, azad istifadəyə icazə verilir. Ensiklopediyaya daxil edilən məlumatlar və məqalələr üzərində aparılan redaktələr moderatorlar tərəfindən diqqətlə yoxlanılır, yalnız bundan sonra ya təsdiq və ya ləğv edilir. Moderatorlar



tərəfindən yoxlanmayan məqalələri yalnız qeydiyyatdan keçmiş istifadəçilər oxuya bilərlər (şəkil 50).

Maraqlı haldır ki, qeydiyyatdan keçərkən istifadəçi mütləq mənsub olduğu dini göstərməlidir.




*Şəkil 50. "Drevo" açıq pravoslav ensiklopediyasının veb-saytı*

### *7.1.17. Qısa yəhudi ensiklopediyası*

Qısa yəhudi ensiklopediyası (http://www.eleven.co.il), 1976-2005-ci illərdə Yerusəlimdə 11 cilddə nəşr edilmişdir. Ensiklopediyanın nəşri Yerusəlimdəki Yəhudi Universitetinin dəstəyi ilə həyata keçirilmişdir. Ensiklopediya rus dilindədir və dünyada "Краткая еврейская энциклопедия" (КЕЭ) adı ilə məşhurdur (şəkil 51).



*Şəkil 51. 11 cilddən ibarət Qısa yəhudi ensiklopediyası*

Qısa yəhudi ensiklopediyası üçün məqalələr yaratmaq və redaktə etmək üçün dünyanın müxtəlif yerlərindən mütəxəssislər və elmi məsləhətçilər dəvət edilmişdilər. Ensiklopediyanın yaradılmasında rəhbərlik Ş.Ettinqer və X.Beynart tərəfindən edilirdi. Qısa yəhudi ensiklopediyasında məqalələrin ümumi sayı 5300, sözlərin sayı isə 6 mln.-dur.

2005-ci ildə Qısa yəhudi ensiklopediyası İnternetdə "Elektron yəhudi ensiklopediyası" (http://www.eleven.co.il) adı altında yerləşdirilmişdir. Ensiklopediyanın zənginləşdirilməsi indiyə qədər davam edir (şəkil 52).

### *7.1.18. Elektron dövlət ensiklopediyası*

Elektron dövlət ensiklopediyası rus dilindədir. Viki texnologiyası ilə işləyən ensiklopediya Rusiyada elektron dövlət yaratmağa xidmət edən layihə kimi nəzərdə tutulmuşdur (http://wiki.elrussia.ru/index.php/Elrussia). Burada informasiya-kommunikasiya texnologiyalarına, informasiya cəmiyyətinə aid məqalələr yaradılmaqla, müasir texnologiyaların inkişafı ilə bağlı müzakirələr də aparılır. Hər bir istifadəçi məqalələrin redaktəsində və müzakirələrdə iştirak edə bilər. Layihədə vətəndaşların dövlətə olan inamsızlıq problemlərinə də diqqət yetirilir və istifadəçilər problemin aradan götürülməsi məqsədi ilə qanunda və texniki məsələlərdə müxtəlif təkliflər verə bilərlər (şəkil 53).






*Şəkil 52. Qısa yəhudi ensiklopediyasının elektron variantı*




*Şəkil 53 Elektron dövlət ensiklopediyasının veb- saytı*

### *7.1.19. Elm ensiklopediyası*

Elm ensiklopediyası (http://ru.science.wikia.com) universal virtual ensiklopediya olub, GNU FDL lisenziyası ilə işləyir. Ensiklopediya 13 sentyabr 2006-cı ildə fəaliyyətə başlamışdır. Əsasən yeni elmi biliklər, tədqiqatlar, təcrübələr haqqında məqalələrin daxil edilməsi üçün nəzərdə tutulmuşdur. Odur ki, bu ensiklopediyada orijinal tədqiqatlara və hipotezlərə rast gəlmək olar. 2009-cu ilin yanvar ayına olan məlumata görə ensiklopediya 10 mindən çox məqaləyə malikdir (şəkil 54).




*Şəkil 54. Elm ensiklopediyasının veb-saytı*

### *7.1.20. Ensiklopediya dünyası*

Ensiklopediya dünyası (http://www.encyclopedia.ru) adı altında fəaliyyət göstərən ensiklopediya İnternetdə ən populyar ensiklopediyalar siyahısındadır. Burada virtual ensiklopediyalar haqqında məlumat almaqla yanaşı, asanlıqla həmin ensiklopediyaların saytlarına keçid almaq olar. Ensiklopediya



dünyanın ən qabaqcıl dillərində bölmələrə malikdir və ümumi halda 350 min məqalənin saxlandığı açıq layihədir (şəkil 55).




*Şəkil 55. Ensiklopediya dünyası virtual açıq ensiklopediyasının səhifəsi*

## 7.2. Digər ən populyar İnternet-ensiklopediyalar

### *7.2.1. Britannika ensiklopediyası*

Britannika ensiklopediyası (Encyclopaedia Britannica, http://www.britannica.com) dünyada ən populyar və tam ensiklopediyalardan biridir. "Britannica" ensiklopediyası ingilis dilində universal ensiklopediyadır. Ensiklopediya ilk dəfə Şotland maarifçiləri Adam Blek (Adam Black) və Çarlz Blek (Charles Black) tərəfindən Edinburq şəhərində yaradılmışdır. İlk nəşri ensiklopedik lüğət əsasında 1768-1771-ci illərdə 3 cilddə həyata keçirilmişdir. Britannika ensiklopediyasının ilk 8 nəşri Edinburq şəhərində həyata keçirilmişdir.

1870-ci ildə nəşriyyat «The Times» qəzetinin himayəsi altına verilir və London şəhərinə köçürülür. Ensiklopediyanın on birinci nəşrini Kembric universiteti 1500 ekspertin iştirakı ilə həyata keçirir. 1901-ci ildə Britannika ensiklopediyası ABŞ-ın Çikaqo şəhərindən olan Huper adlı mülkiyyətçi tərəfindən alınır. 20-ci illərdə ensiklopediya «Sheers, Roobeck & Co» firması tərəfindən satın alınır və 1941-ci ildə Çikaqo universitetinə bağışlanır.

1974-cü ildə Britannika ensiklopediyasının sonuncu – 15-ci nəşri ("New Encyclopaedia Britannica" və ya "Britannica 3" adı altında) nəşr edilir. 1985-ci ildə ensiklopediya Mortimer Adler tərəfindən yenidən işlənərək iki hissəyə ayrılır: "Mikropediya" və "Makropediya". Ensilopediyadaı məqalələr məlumatların dərinliyinə görə fərqlənirlər.

1996-cı ildə Britannika ensiklopediyasının hüquqları İsveçrə milyarderi Jak Safranın (Jacqui Safra) ixtiyarına keçir. Hal-hazırda Britannikanın əmtəə nişanının hüquqları "Encyclopaedia Britannica Inc." kompaniyasına aiddir. Ensiklopediyanın 15-ci nəşrinə 120 min məqalə, 44 mln. söz daxildir. Çap halında 32 cild, 32 min səhifə, 65 mindən çox məqalə, 24 min fotoşəkil, xəritə və təsvir vardır. Qiyməti 1400 dollardır.

İnternet mühitində fəaliyyət göstərən Britannika ensiklopediyasına 120 mindən artıq məqalə daxil edilmişdir. Britannikanın İnternet-layihəsi pulludur. İstifadəçilər illik 60 dollar ödəməklə qeydiyyatdan keçə bilərlər.

1994-cü ildə Britannika ensiklopediyasının CD-ROM-da elektron variantı buraxılmışdır. CD-ROM-dakı nəşrində Britannika ensiklopediyasının 100 min məqaləsi toplanmışdır və qiyməti 50 dollardır. Nəzərə almaq lazımdır ki, 1998-ci ildə ensiklopediyanın kompakt disklərdə buraxılan variantının qiyməti artıq 2000 dollar idi (şəkil 56).






*Şəkil 56. Britannika ensiklopediyasının veb-saytı*

### *7.2.2. Böyük Sovet Ensiklopediyası*

Böyük Sovet Ensiklopediyası (BSE) – Sovetlər Birliyində nəşr edilmiş ən məşhur və tam ensiklopediyadır. Məqalələrin sayı 100 mindir. BSE üç dəfə nəşr edilibdir:

- Birinci nəşr: 65 cild və əlavə nömrəsiz cild – «СССР», 1926-1947.
- İkinci nəşr: 49 cild və əlavə cild, № 50, № 51, № 52 – «СССР», 1949–1960.
- Üçüncü nəşr: 30 cild və əlavə cild, № 24 – «СССР», 1969-1978. "Əlifba üzrə adların göstəricisi" adı ilə 1981-ci ildə nömrəsiz əlavə cild nəşr edilmişdir.

Hər 3 cild "Советская энциклопедия" nəşriyyatı tərəfindən nəşr edilmişdir.

### Böyük Sovet Ensiklopediyasının birinci nəşri

BSE-nın birinci nəşri Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin 1925-ci ildəki qərarı ilə nəşr edilmişdir. 50-80 nüsxə ilə nəşr edilən ensiklopediyaya 65 min məqalə, 12 min şəkil və minə yaxın xəritə daxil idi (şəkil 57).

Məqalələrin müəllifləri və redaktorları sovet alimləri, eləcə də dövlət xadimləri idi: N.N. Baranskiy, A.N. Bax, Q.İ. Broydo, A.S. Bubnov, N.N. Burdenko, N.İ. Buxarin, V.R. Vilyams, K.E. Voroşilov, İ.M. Qubkin, İ.E. Qrabar, Q.M. Krjijanivskiy, L.N. Krisman, V.V. Kuybışev, N.Y. Kun, A.V. Linaçarskiy, V.P. Milyutin, V.A. Obruçev, M.N. Pokrovskiy, Y.A. Preobrajenskiy və başqaları idi. BSE-nın baş redaktoru akademik O.Y. Şmidt (1924-1941) təyin edilmişdir.

BSE-nın ilk nəşrinə daxil edilmiş məqalələr hal-hazırda ümumxalq mülkiyyətinə keçirilmişdir.

### Böyük Sovet Ensiklopediyasının ikinci nəşri

BSE-nın ikinci nəşri SSRİ Nazirlər Kabinetinin 20 fevral 1949 tarixli qərarına əsasən nəşr edilmişdir. BSE-nin ikinci nəşri 1950-1958 illərdə Moskvada "Большая Советская Энциклопедия" dövlət elmi nəşriyyatı tərəfindən həyata keçirilmişdir. Ensiklopediyaya 100 min məqalə, 40852 şəkil və 2362 xəritə daxil edilmişdir (şəkil 58).

Ensiklopediyadakı məqalələrin hazırlanması sovet alimlərinə həvalə edilmişdir: N.N. Aniçkov, İ.P. Bardin, Y.M. Jukov, B.V. İohanson, A.N. Kolmoqorov, F.V. Konstantinov, O.B. Lepeşinskaya, T.D. Lisenko, A.A. Mixaylov, A.İ. Oparin, K.V. Ostrovityanov, N.M. Straxov, S.P. Tolstov, E.A. Çudakov və başqaları. Baş redaktorlar – akademiklər S.İ. Vavilov (fəaliyyəti:1949-1951), B.A. Vvedenskiy (fəaliyyəti:1951-1958), baş redaktorun müavinləri isə A.A .Zvorıkin, L.S. Şaumyan idilər.





*Şəkil 57. BSE-nın birinci nəşri, 65 cilddə*



*Şəkil 58. BSE-nın ikinci nəşri, 51 cilddə*

### Böyük Sovet Ensiklopediyasının üçüncü nəşri

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin 2 fevral, 1967-ci il qərarı ilə BSE-nın üçüncü nəşri 1969-1978-ci illərdə həyata keçirilmişdir. BSE-nın üçüncü nəşri 30 clddən ibarətdir. 24 №-li cild iki kitabda nəşr edilmişdir. İkinci kitab Sovetlər İttifaqına həsr edilmişidir. Ensiklopediya 630 nüsxədə çap edilmişdir. 1981-ci ildə ensiklopediyaya əlavə kitab – "Adlar üzrə əlifba göstəricisi" əlavə edilmişdir. Adlar üzrə əlifba göstəricisi 50 min nüsxədə nəşr edilmişdir.

Həcminə görə üçüncü nəşr ikincidən kiçik olsa da (3,5 min müəllif səhifəsi) o, 95279 məqalədən, 29120 şəkildən, 3701 portretdən və 524 rəngli xəritədən ibarətdir. Ensiklopediyanın baş redaktoru akademik A.M. Proxorov olmuşdur (şəkil 59).

BSE-nın üçüncü nəşri ABŞ-nın "Macmillan Publishers Ltd." nəşriyyatı tərəfindən, 1973-1982-ci illərdə ingilis dilinə tərcümə olunmuş və nəşr edilmişdir.

2001-ci ildə BSE-nın üçüncü cildi "Aytopan" şirkəti tərəfindən kompakt disklərə yazılmışdır (şəkil 60).



*Şəkil 59. BSE-nın üçüncü nəşri, 30 cilddə*



*Şəkil 60. BSE-nın üçüncü nəşri, kompakt disklərdə*




*Şəkil 61. BSE-nin veb-saytı*

BSE-nın İnternet nəşrinin bütün ixtiyarı "Russ Portal" şirkətinə verilibdir. Şirkətin İnternetdə rəsmi saytı http://www.rubricon.ru portalıdır. Ensiklopediyanın on-line variantları (http://bse.sci-lib.com) İnternet istifadəşiləri arasında etibarlı mənbə kimi çox populyardır. BSE-nın elektron variantı http://www.yandex.ru və http://www.lingvo.ru saytlarında da mövcuddur (şəkil 61).



### *7.2.3. Brokhaus ensiklopediyası*

Brokhaus ensiklopediyası ilk dəfə alman dilində 1805-ci ildə "Brockhaus" adı altında nəşr edilmişdir. Ensiklopediya ilk dəfə F.A. Brokhaus tərəfindən Amsterdamda, daha sonra isə Altenburqda və Leypsikdə nəşr edilmişdir (şəkil 62).




*Şəkil 62. "Brockhaus Konversations-Lexikon", 1902-çi ilin nəşri*

Son dəfə "Brockhaus Enzyklopädie" adı ilə 2005-2006-cı illərdə nəşr edilmiş ensiklopediya hal hazırda 300 min məqalədən və 40 min şəkildən ibarətdir. Ensiklopediyanın elektron versiyası İnternetdə http://www.brockhaus.de və http://www.brockhaus-multimedial.de domen adları altındakı nəşr edilmişdir (şəkil 63).




*Şəkil 63. Brokhaus ensiklopediyasının veb-saytı*

### *7.2.4. Brokhauz və Efronun ensiklopedik lüğəti*

Brokhauz və Efronun ensiklopedik lüğəti (Brockhaus and Efron) 86 clddən ibarətdir. Lüğət F.A. Brokhauz və İ.A. Efronun auksioner nəşr cəmiyyəti tərəfindən (Peterburq, 1890-1907) buraxılmışdır. Nəşr iki variantda buraxılmışdır – 41 əsas və 2 əlavə cild; 82 əsas və 4 əlavə cild. Brokhauz və Efronun ensiklopedik lüğətində 121240 məqalə, 7800 şəkil, 235 xəritə vardır.

Ensiklopediyanın ilk variantını "Conversations-Lexicon" ensiklopediyasının alman dilindən rus dilinə tərcüməsi təşkil edirdi ki, bir çox oxucular tərəfindən tərcümənin keyfiyyətinin çox aşağı olması fikirləri söylənilirdi. Baxmayaraq ki, tərcümədə iştirak etmək üçün nəşriyyata o dövrün ən tanınmış alim və filosofları dəvət edilmişdilər: D.İ. Mendeleyev, V.S. Solovyov, S.A. Venqerova, A.N. Beketova, A.İ. Voeykova və s.



Sonralar "Conversations-Lexicon" ensiklopediyasına orijinal rus məqalələri daxil edilir ki, burada da əsas diqqət Rusiyaya, onun tarixinə, mədəniyyətinə və coğrafiyasına aid mövzulara yönəldilmişdir.

Tərcümə olunmuş məqalələrin orijinal məqalələrlə əvəz edilməsi, ensiklopediyanın bayağı lüğətdən elm və texnika sahəsində ən son kəşflər və yeniliklər haqqında məqalələr toplusuna çevrilir.

1899-1902 illərdə Brokhauz və Efronun kiçik ensiklopedik lüğəti (3 cilddə) nəşr edildi. 1907-1909-cu illərdə ensiklopediyanın 4 cilddən ibarət ikinci nəşri çapdan çıxdı. 1911-1916-cı illərdə "Yeni ensiklopedik lüğət" nəşr edildi. Ensiklopediyanın 48 cilddə olması nəzərdə tutulsa da, yalnız 29 cildi çapdan çıxdı. Sonuncu məqalə "Отто" sözünə aid idi.

Brokhauz və Efronun ensiklopedik lüğətinin elektron variantını bütünlüklə və ya qısa şəkildə aşağıdakı saytlardan əldə etmək olar:

- http://www.brockhaus-multimedial.de – Brokhauz və Efronun ensiklopedik lüğəti, 86 cilddə, şəkil və əlavə məlumatlardan ibarətdir;
- http://encycl.yandex.ru/dict/brokmior – Brokhauz və Efronun kiçik ensiklopedik lüğəti, cəmi 44194 məqalədən ibarətdir;
- http://gatchina3000.ru/brockhaus-and-efron-encyclopeic_dictio – Brokhauz və Efronun ensiklopedik lüğəti, 86 cilddə, şəkil və əlavə məlumatlarlardan ibarətdir;
- http://zipsites.ru/slovari/ – Brokhauz və Efronun ensiklopedik lüğəti, çox qısa olmaqla, yalnız ən çox müraciət olunan məqalələrdən ibarətdir (şəkil 64).




*Şəkil 64. Brokhauz və Efronun ensiklopedik lüğətinin elektron variantı http://www.vehi.net/brokgauz/index.html*

### *7.2.6. Ümumrusiya virtual ensiklopediyası*

Rus dilində fəaliyyət göstərən "Всероссийская виртуальная энциклопедия" Azərbaycan dilinə "Ümumrusiya virtual ensiklopediyası" (http://www.portalus.ru) kimi tərcümə edilir. Ensiklopediya müxtəlif mövzularda kitab və məqalələr bazasıdır. Məqalələr əsasən şəxslər, fəlsəfədə cərəyanlar, fəlsəfi əsərlər, məktəblər və tədris üsulları, anlayış və terminlər haqqındadır. Məqalələrin müəllifləri 400-dən artıq mütəxəssisdir. Ensiklopediyanın yaradılmasında iştirak edən məsuliyyətli təşkilatlar Rusiya Elmlər Akademiyasının Fəlsəfə İnstitutu və Milli İctimai-Elm Fondudur. Ensiklopediyada məqalələrin sayı hal-hazırda 100 minə qədərdir (şəkil 65).






*Şəkil 65. "Всероссийская виртуальная энциклопедия" layihəsi*

### *7.2.7. IBList*

IBList (Internet Book List, http://www.iblist.com/) – İnternetdə ədəbiyyat üzrə verilənlər bazasıdır. 2003-cü ildə Patrik Ros tərəfindən yaradılmışdır. Ensiklopediyada müxtəlif mövzuda kitablar, məqalələr, tezislər, rəylər, monoqrafiyalar toplanmışdır.

2007-ci ilin noyabr ayının axırlarına olan məlumata görə IBList on-line ensiklopediyasında 60 min kitab, 18 min müəllif mövzularda və 4400 kitab seriyaları haqqında məqalə vardır. Ensiklopediyaya həm də çoxlu sayda müxtəlif hekayələr, kitablar haqqında müxtəlif müəlliflərin fikirləri və s. daxil edilmişdir. Obyektlərin strukturlaşdırılması reytinqə, janra, kitab və ya əsərin adına, müəllifin ad və soyadına görə aparılır.

Qeydiyyatdan keçmiş istifadəçilər ensiklopediyada hər hansı əsər haqqında fikirlərini yaza bilərlər. Eyni zamanda IBList-in VB-na yeni kitabların, müəlliflərin və məqalələrin

daxil edilməsi haqqında təkliflərini verə bilərlər. Bu təkliflər saytın administratorları tərəfindən öyrənilir.

IBList saytında ədəbiyyat mövzusunda forumlar da keçirilir. Ensiklopediya ingilis dilində fəaliyyət göstərdiyindən məqalələrin çoxu ingilis dilindəki bədii ədəbiyyat haqqındadır (şəkil 66).




*Şəkil 66. IBList ensiklopediyasının veb-saytı*

### *7.2.8. EOLSS*

EOLSS (http://www.eolss.com) həyat təminatı sistemlərinin ensiklopediyasıdır. İngiliscə, "Encyclopedia of Life Support Systems" deməkdir. Ensiklopediya UNESCO-nun himayəsi ilə yaradılmışdır. Onun elektron variantı 50 milyon sözdən və 180 ciddən ibarətdir (şəkil 67).

Sistem pulludur, lakin qısamüddətli müraciət və təhsil müəssisələri üçün xüsusi icazələr əldə etmək mümkündür. Müxtəlif sahələrə aid 16 ensiklopediyanı özündə birləşdirir:



1. Yer və atmosfer
2. Riyaziyyat
3. Biologiya, psixologiya və təbabət
4. Kimya elmləri və texnologiyaları
5. Fizika elmləri və texnologiyaları
6. Sosial və humanitar elmlər
7. Su resursları və texnologiyaları
8. Energetika
9. Ekologiya və ətraf mühit
10. Kənd təsərrüfatı və ərzaq
11. İnsan resursu
12. Təbii resursların idarə edilməsi
13. İqtisadiyyat və istehsalat
14. Təşkilat və infrastruktur
15. Texnologiya, informasiya və sistemli idarəçilik və s.




*Şəkil 67. EOLSS virtual ensiklopediyasının veb-saytı*

### *7.2.9. EOL - həyat ensiklopediyası*

EOL (The Encyclopedia of Life) həyat ensiklopediyası (http://www.eol.org/home.html) – müxtəlif ekspertlər tərəfindən birgə yaradılmış, dünyada məlum olan bütün bioloji növlər haqqında məlumatlar toplanmış qapalı, virtual ensiklopediyadır (şəkil 68).




*Şəkil 68. EOL həyat ensiklopediyasının veb-saytı*

Ensiklopediya ingilis dilindədir və hələ ki, tam hazır deyildir. Müəlliflərin bildirdiklərinə görə gələcəkdə ensiklopediyada hər bir məlum növ haqqında ayrıca məqalələr olacaqdır ki, buraya da videomateriallar, səs, şəkil, qrafik və mətn şəklində informasiya daxil ediləcəkdir. Hesablamalara görə, gələcəkdə EOL həyat ensiklopediyasında məqalələrin sayı təqribən 1,8 mln. olacaqdır.

Layihənin verilənlər bazasına əvvəlcə, heyvanlar, bitkilər və göbələklər haqqında məlumatlar daxil ediləcək, daha sonra mikroorqanizmlər, daha sonra isə qazıntı halında tapılan bioloji



növlər haqqında məqalələrin daxil edilməsi nəzərdə tutulmuşdur. Ensiklopediyanın saytına daxil olmuş hər bir İnternet istifadəçisi mətn, foto, xəritə, audio, video və digər formatda informasiya əldə etmək imkanı qazanacaqdır. Gələcəkdə EOL həyat ensiklopediyasının Viki-texnologiyası əsasında işləməsi nəzərdə tutulur ki, bu da istənilən İnternet istifadəçisinin istənilən məqalədə dəyişiklik və əlavələr etmək imkanına malik olması deməkdir.

Layihənin on il müddətində tam hazır olması nəzərdə tutulur və təqribən $110,5 mln.-a başa gələcəyi bildirilir.

### *7.2.10. Kruqosvet*

"Кругосвет" (Dünya ətrafında) virtual ensiklopediyası (http://www.krugosvet.ru/) – rus dilində universal elektron ensiklopediyadır. Ensiklopediya 2000-ci ildən fəaliyyət göstərir. Hal-hazırda ensiklopediyada 16 mln.-dan artıq söz və 11 mindən çox məqalə vardır. Layihəyə 6000-ə qədər tərcümeyi-hal və 10 min şəkil də daxil edilmişdir (şəkil 69).




*Şəkil 69. "Кругосвет" virtual ensiklopediyasının veb-saytı*

Məqalələrin üçdə birini "Collier's" Amerika ensiklopediyasından tərcümə edilmiş məqalələr təşkil edir. "Kruqosvet" virtual ensiklopediyası pulsuzdur, tam şəkildə iki kompakt diskdə almaq olar.

Ensiklopediyadakı coğrafi və tarixi xəritələr "Atlas Editions" nəşriyyatından alınmışdır. Elektron ensiklopediya müxtəlif fondlardan maliyyə dəstəyi alır, eyni zamanda kompakt-disklərin satışından və saytda yerləşdirilmiş reklamlarda əldə edilən gəlirlər hesabına maliyyələşir

### *7.2.11. All Music Guide*

"All Music Guide" ifadəsi Azərbaycan dilinə tərcümə olunduqda, bütün musiqilər üzrə bələdçi mənasını verir. Ən böyük on-line musiqiyə aid verilənlər bazasıdır (http://wm05.allmusic.com/). Ensiklopediya 1991-ci ildə Maykl Erlevayn tərəfindən yaradılmışdır və All Media Guide şirkətinə aiddir (şəkil 70).




*Şəkil 70. All Media Guide virtual ensiklopediyasının veb-saytı*



### *7.2.12. Ensiklopediyalar dünyası*

Ensiklopediyalar dünyası (http://www.encyclopedia.ru/) İnternetdə ən çox müraciət olunan ensiklopediyalar siyahısına daxil edilmiş layihədir. Ensiklopediya saytının əsas xüsusiyyəti ondan ibarətdir ki, buradan digər virtual ensiklopediyalara müraciət etmək mümkündür (şəkil 71).




*Şəkil 71. All Media Guide virtual ensiklopediyasının veb-saytı*

## 7.3. Virtual ensiklopediyalar akademik portallara çevrilməkdədirlər

Ensiklopediyaların virtual məkanda dəyərini ilk olaraq bu məhsulların yaradıcıları və fəal İnternet istifadəçiləri anladılar. Nəzərə alsaq ki, ən populyar "kağız" ensiklopediyalar artıq kompakt disklərdə də mövcuddurlar, onların İnternet şəbəkəsində yerləşdirilməsi o qədər də böyük vəsait tələb etmirdi və ensiklopediyanın İnternet məkanında nəşrindən sonra onların istifadəçi auditoriyası bir-neçə dəfə artdı.

İnformasiyanın xarakterinə görə ensiklopediyalar digər məlumatlarla müqayisədə İnternetdə nəşr olunmağa daha uyğundurlar. Belə ki, virtual ensiklopediyalara müraciət edənlər yalnız ensiklopedik məqalələr əldə etmirlər, onlar eyni zamanda bu məqalələrə daxil edilmiş media-fayllar, animasiyalı sxemlər, üçölçülü obyektlər, interaktiv panoramlar, cədvəllərlə tanış olurlar. Bu da ensiklopediyanın İnternet variantının daha zəngin olmasına şərait yaradır. Virtual ensiklopediyaya müraciət hər-hansı predmetin öyrənilməsində ilkin addımdır. Bu baxımdan ensiklopedik resursların yaradıcıları fakültətiv servislərin yaradılmasında maraqlıdırlar, yəni virtual ensiklopediyalardakı bir çox məqalələrdə digər İnternet resurslarına və uyğun mövzulu elmi, ədəbi-bədii əsərlərə istinadlar mövcuddur.

Virtual ensiklopediyaların tam variantlarını yalnız kommersiya əsasında əldə etmək mümkündür ki, bu da həmin resursların nə qədər qiymətli olduğunu bir daha sübut etmiş olur. Ödəniş o qədər də böyük deyil, məsələn, "Rubrikon" ensiklopediyasına bir aylıq abunə haqqı 1 dollardır. Ən baha abunə haqqı "Britannica" resurslarınadır ki, illik ödəniş 60 dollardır. "Kirill və Mefodiy" şirkəti isə öz ensiklopedik resurslarına müraciət üçün istifadəçi qarşısında xüsusi tələblər qoymuşdur. Belə ki, ensikopediyanın ən yeni və tam variantını yalnız "Kirill və Mefodiy mediatekaları" (mediateka.km.ru) saytının kliyentləri əldə edə bilərlər. Hibrid İnternet texnologiyasından istifadə edən bu proqram məhsulu ensiklopediyadakı multimediya dəstəyi problemini tam həll etməyə imkan yaratmışdır. 30 Gb həcmində olan multimediya məhsulları lokal şəbəkənin serverində yerləşdirilir. İnternet-serverdə ensiklopediyadakı məqalələrə müraciət zamanı mediyaobyektlər avtomatik olaraq lokal şəbəkənin serverindən kliyentə ötürülürlər [42].

Gələcəkdə şəbəkə ensiklopedik nəşrlərinin daha da inkişafı gözlənilir. Gələcək evalyusiyanın istiqamətləri isə göz qabağındadır. Bu əsasən yeni çoxölçülü obyektlərin növləri ilə zənginləşən və artan, əsasən də flash-texnolojiyasında yerinə yetirilən ensiklopedik resursların multimediya hissəsidir [43].



Məqalələrdəki mətnlərin operativ olaraq (gündəlik və ya həftəlik) aktuallaşdırılması isə real vəziyyətdən geriləmənin qarşısını alır və virtual ensiklopediyaların kağız üzərindəkilərdən üstünlüyünü təmin edir. Virtual ensiklopediyaların digər elmi mənbələrlə əlaqələri də İnternet şəbəkəsi sayəsində artmaqdadır. Ensiklopediyaların xüsusi təşkil olunmuş elektron kitabxanalarla əlaqələri isə İnternet resurslarında axtarışın məhdudiyyətsiz aparılmasına şərait yaradır [45].

Artıq bu gün digər növ təhsil resurslarını ətrafında cəmləməklə, virtual ensiklopediyalar rəqəmsal dövrün elm və təhsil fəaliyyəti ilə sıx inteqrasiya olunaraq fundamental akademik portallara çevrilməkdədirlər.

## ƏDƏBİYYAT


1. *Əliquliyev R.M., Ələkbərova İ.Y., Qasımova R.T.,* İnternetdə kollektiv bilik və viki texnologiyasi // İT Maqazin jurnalı (İnformasiya-Kommunikasiya Texnologiyaları Jurnalı), 02(53), 2008, səh. 5-7
2. *Алгулиев Р.М., Алекперова И.Я., Касумова Р.Т.,* Коллективное знание в Интернете // Шестая международная конференция "Интернет - Образование - Наука -2008". Том1. Винница. 2008. стр. 5-7
3. *Əliquliyev R.M., Ələkbərova İ.Y., Qasımova R.T.,* Vikipediya və onun imkanlari // Azərbaycan Məktəbi jurnalı. 6(622), 2007, səh. 9-22
4. *Буров Д.,* Меньше текста – больше ссылок // CMS MediaWiki, 2007, http://masterhost.ru
5. *Bobbie Johnson,* "Companies and party aides cast censorious eye over Wikipedia", BBC News, 2007
6. *Bobbie Johnson,* Wikipedia approaches its limits // Article history, The Guardian , 2009, http://www.guardian.co.uk
7. *Белков А., Смирнов Д.,* Инструмент созидания // Домашний компьютер, №5, 2006
8. *Рыбаков А.,* Википедии подарили $3 миллиона // М.: "Вебпланета", 2007, стр. 11
9. *Albert R., Barabási A.* Statistical mechanics of complex networks. // Reviews of Modern Physics, pp. 47–97 (2002)
10. *Silviu Cucerzan.* Large-Scale Named Entity Disambiguation Based on Wikipedia Data // Proc. 2007 Joint Conference on EMNLP and CNLL, pp. 708–716, Prague, 2007
11. *Strube M., Ponzeto S. P.* WikiRelate! Computing semantic relatedness using Wikipedia.// Proc. of AAAI, 2006
12. *Christopher Thomas, Amit Sheth.* Semantic Convergence of Wikipedia Articles // Proc. of the 2007 IEEE WIC International Conference on Web Intelligence, 2007
13. *Ланде Д.В.* Поиск знаний в Интернет // Издательский дом "Диалектика-Вильямс", 2005, стр. 272





14. *Сергеев А.* Как устроена «Википедия» – самая большая энциклопедия в мире, http://svobodanews.ru
15. *Ализар А.,* Википедия теперь больше, чем энциклопедия, http://webplanet.ru
16. *Жигало Е.,* "Самая известная интернет-энциклопедия: феномен или ошибка?" // "Моби", №5 2007, http://www.mobi.ru
17. *Крупин А.,* Один на один с "Викой", http://www.computerra.ru
18. *David Milne,* Computing Semantic Relatedness using Wikipedia Link Structure // Proc. of New Zealand Computer Science Research Student Conference NZCSRSC, 2007
19. *Ollivier Y., Senellart P.* Finding Related Pages Using Green Measures: An Illustration with Wikipedia // Proc. of the 22nd National Conference on Artificial Intelligence (AAAI'07), Vancouver, Canada, 22-26 July 2007
20. *Voß J.* Measuring Wikipedia // Proc. of 10th International Conference of the Society for Scientometrics and Informetrics, Stockholm, 2005
21. *Maciej Janik, Krys Kochut.* Wikipedia in action: Ontological Knowledge in Text Categorization // UGA Technical Report No. UGA-CS-TR-07-001, November 2007
22. *Gabrilovich, E., S. Markovitch.* 2007. Computing semantic relatedness using Wikipedia-based explicit semantic analysis // Proc. of IJCAI, pp.1606-1611
23. *Джимми Уэльс,* «Знание – людям», http://www.habrahabr.ru
24. *Веро Киви,* Шпионы в стране Wikipedia // Компьютерра, № 35, 2007
25. Publishing: "Monsters and Critics", "Magazine hails German Wikipedia as better than encyclopaedia", Dec 5, 2007, http://tech.monstersandcritics.com

26. *Багиров А.* Википедия - открытая интернет-энциклопедия XXI века и ее значимость для Азербайджана, http://www.echo-az.com
27. *Virgil Griffith.* Scanner Tracks Who's Changing What on Wikipedia // California Institute of Technology, 2007
28. *Хуан Карлос Перес*, Основатель Википедии намерен превзойти Google // "IDG", Маями, 2008
29. *Петрова Э.*, Русскоязычная "Википедия" вошла в ТОП-10, 2008, http://spb.dp.ru
30. *Баловсяк Н.*, Википедия: использовать нельзя запретить, http://telnews.ru
31. *Гриняев С.Н.* Поле битвы – киберпространство: Теория, приемы, средства, методы и системы ведения информационной войны. Мн., 2004, стр. 112
32. *Химиашвили П.,* Wikipedia назвала редакторов // «ГАЗЕТА», №151, 2007
33. *Хевенштейн X.*, Его правило — «никаких правил» // Computerworld, http://www.osp.ru
34. *Devid Xarrison* "When Languages Die", USA, Pensillvaniya, 2007
35. *Кристал Д.*, Английский язык как глобальный // Перевод с английского, "Весь мир", М., 2001
36. *Казарин В.*, "Современный мир: глобализация и проблемы языкового многообразия", 2002, http://russedina.ru
37. *Kərimova S.*, Avqust Azərbaycan əlifbası və Azərbaycan dili günüdür, "Azərbaycan müəllimi" qəzeti, № 29. 2008. http://www.az-muallimi.com
38. *Щуров И.*, "Образование будущего: в ожидании революции", "Компьютерра", № 43, 2005
39. The edition "Monsters and Critics", "Magazine hails German Wikipedia as better than encyclopaedia". http://tech.monstersandcritics.com
40. *Удмуртов К.*, Из «Википедии» вырвали страницы «Взгляд», 2007



41. *Гуриев В.*, Цифровая Вселенная Ларри Сэнгера // "Компьютерра", №7, 2006
42. *Степанов В.К.*, Энциклопедические ресурсы Интернет: современное состояние и тенденции развития // "Академия переподготовки работников искусства, культуры и туризма", http://www.ict.edu.ru
43. *Вершинская О.Н.* Возникновение идеологии информационного общества // Развитие информационного общества в России. Том 1. М. 2005.

## POPULYAR ENSİKLOPEDİYALARIN İNTERNET ÜNVANLARI

1. http://az.wikipedia.org – Azərbaycan dilində Vikipediya ensiklopediyası,
2. http://absurdopedia.wikia.com – Vikipediyaya satirik parodiya ensiklopediyası,
3. http://bse.sci-lib.com – Böyük Sovet Ensiklopediyası,
4. http://commons.wikimedia.org – VikiXəzinə,
5. http://everything2.com – bilik ensiklopediyası,
6. http://letopisi.ru – tələbə və müəllimlər üçün ensiklopediya,
7. http://meta.wikimedia.org – Vikipediya Fondunun layihə sənədlərinə aid sayt,
8. http://open-site.org – açıq ensiklopediya,
9. http://planetmath.org – riyaziyyat ensiklopediyası,
10. http://plato.stanford.edu – fəlsəfə ensiklopediyası,
11. http://ru.science.wikia.com – elm ensiklopediyası,
12. http://stats.grok.se – Vikipediya haqqında statistik informasiya ilə tanışlıq,
13. http://wapedia.mobi – texniki qurğular ensiklopediyası,
14. http://wiki.elrussia.ru – Rusiya – elektron dövlət ensiklopediyası,
15. http://wikibooks.org – Vikikitablar,
16. http://wiktionary.org – Vikilüğət,
17. http://wikiquote.org – Vikisitat,
18. http://wikimapia.org – xəritələr ensiklopediyası,
19. http://wikinews.org – Vikixəbərlər,
20. http://wikiscanner.virgil.gr – Wikipedia Scanner proqramı,
21. http://wikisource.org – Vikimənbə,
22. http://wikispecies.wikimedia.org –Vikinövlər (bioloji növlər),
23. http://wikitravel.org – turizm ensiklopediyası,
24. http://wikitree.org – səcərə ensiklopediyası,
25. http://wikiversity.org – Vikiversitet,



26. http://www.britannica.com – Britannika ensiklopediyası,
27. http://www.brockhaus-multimedial.de – Brokhaus ensiklopediyası,
28. http://www.en.citizendium.org – Sitizendium ensiklopediyası,
29. http://www.en.wikipedia.org – ingilis dilində Vikipediya ensiklopediyası,
30. http://www.encyclopedia.ru – ensiklopediya dünyası,
31. http://www.eolss.com – UNESCO-nun himayəsi ilə yaradılmış ensiklopediya.
32. http://www.everyday.com.ua – müxtəlif elmi sahələr ensiklopediyası,
33. http://www.kimkimdir.gen.tr – məşhur şəxslər haqqında ensiklopediya,
34. http://www.mega.km.ru – Kirill və Mefodiy ensiklopediyası,
35. http://www.wikiznanie.ru – bilik ensiklopediyası.

## VİKİPEDİYA ÜZRƏ QLOSSARİ

Vikipediya virtual ensiklopediyasının yarandığı vaxtdan başlayaraq onun istifadəçiləri ümumi "Vikipediya terminləri"ndən istifadə edirlər. Vikipediya fəal istifadəçiləri üçün adi sayılan bu termin və ifadələr yeni istifadəçilər üçün çox zaman çətinliklər yaradır və onların müzakirələrdə, səsvermələrdə sərbəst iştirak etmələrinə, Vikipediyanın rəsmi qaydaları və tövsiyələri ilə tanış olmalarına mane olur. Bunları nəzərə alaraq, Vikipediyaya aid qlossaridən istifadə etmək məsləhətdir.

### A

**Adlar fəzası** *(ing. Namespace, rus. Пространство имён)* – Vikipediyadakı səhifələri təsnifatlandırmaq üçün istifadə olunan üsuldur. Müxtəlif təyinatlı xidməti və köməkçi səhifələri bir-birindən və ensiklopedik məqalələrdən ayırmaq üçün nəzərdə tutulmuşdur. Ensiklopedik məqalələr, adətən, adlar fəzasında yerləşir. Digər fəzalar da vardır: Müzakirələr fəzası, Vikipediya fəzası, İstifadəçi fəzası İstifadəçinin müzakirəsi fəzası, Vikipediyanın müzakirəsi fəzası, MediaWiki fəzası, Kateqoriya fəzası və s.

**Admin** *(ing. Admin, rus. Админ)* – Vikipediyada administratorun qısa adı. Vikipediyanın Azərbaycan dili bölməsində administratoru çox zaman idarəçi də adlandırırlar.

**Administrator** *(ing. Administrator, rus. Администратор)* – adi istifadəçilərdən fərqli olaraq, əlavə hüquq və vəzifələrə malik Vikipediya istifadəçisi. Administrator məqalələri silmək, vandalizmdən qorumaq, digər istifadəçiləri bloklamaq və blokdan çıxarmaq hüququna malikdir. Administrator statusu səsvermə yolu ilə, bürokratlar tərəfindən verilir. Administratorun hüquqları yalnız Vikipediyanın arbitraj komitəsinin qərarı ilə stüard tərəfindən ləğv edilə bilər.

**Akkaunt** *(ing. Account, rus. Аккаунт)* – yeni istifadəçinin qeydiyyatı zamanı görünən qeydiyyat yazısıdır.



**Aktiv istifadəçi** *(ing. The active users, rus. Активный участник)* – Vikipediyada məqalələrin redaktəsində və yeni məqalələrin yaradılmasında sistematik iştirak edən istifadəçidir.

**Anonim istifadəçi** *(ing. Anonymous, rus. Анонимус)* – qeydiyyatdan keçməyən və ya özünü təqdim etməyən (imzasını qoymaqla) istifadəçidir. Bu istifadəçilər İP ünvanları ilə tanınırlar.

**Anreq** *(ing. Unregistered, rus. Анрег)* – Anonim istifadəçilərə verilən addır.

**Arbitr** *(ing. Arbitr, rus. Арбитр)* – Vikipediyada Arbitraj komitəsinin üzvü seçilmiş istifadəçidir.

**Arbitraj komitəsi** *(ing. Arbitration committee, rus. Арбитражный Комитет)* – administratorlardan və bürokratlardan təşkil edilmiş xüsusi komitədir. Bütün mübahisəli məsələlər və məqalələr Arbitraj komitəsində müzakirə edildikdən sonra, yekun qərar qəbul edilir.

**Arbkom** *(ing. Arbcom, rus. Арбком)* – "Arbitraj komitəsi" sözünün qısaldılmış formasıdır.

**Arxiv** *(ing. Archive, rus. Архив)* – müzakirə səhifəsində informasiyanın həcmi həddindən artıq böyük olduqda və ya zamana görə köhnəlmiş olduqda, xüsusi arxiv bölməsi yaradılaraq, mətn orada saxlanılır. Arxiv bölməsinə xüsusi keçidlər vasitəsi ilə daxil olmaq olar.

**Azad istifadəçi** *(ing. Fair User, rus. Свободный пользователь)* – müəllif hüquqları ilə qorunan informasiyadan azad istifadə edən istifadəçilərdirlər. Bu zaman onlar müəyyən şərtlərə riayət edirlər.

**Azad keçid** *(ing. Free link, rus. Свободная связь)* – Vikipediyadan kənarda olan səhifələrə və ya onun digər layihələrinə olan keçiddir.

### B

**Ban** *(ing. Ban, rus. Запрет)* – müəyyən vaxt çərçivəsində istifadəçiyə məqalələrin redaktəsini qadağan etməkdir. İstifadəçinin Vikipediyada fəaliyyətinə qadağa qoyulmasına səbəb neytrallıq qaydalarının (NPOV, Neutral point of view)

pozulması, məqalələrə yanlış məlumatların qoyulması və digər istifadəçilərlə kobud rəftar olur.

**Banner** *(ing. Banner, rus. Баннер)* – müzakirə səhifəsində və ya kateqoriya bölməsində mətndən öncə qoyulan şablondur. Banner çox zaman xəbərdarlıq xarakterli olur və istifadəçini Vikipediya qaydaları ilə yaxından tanış olmağa çağırır.

**Layihə rəhbəri** *(ing. The main architect, rus. Главный архитектор)* – Vikipediyanın baş layihəçisinin hüquqları stüardın hüquqları ilə eynidir. Lakin o, sistemi əsaslı dəyişmə hüququna malikdir. Bəzi baş mütəxəssislər Vikipediyanın işlədiyi serverlərə daxil olma hüququna da malikdirlər. Bax: **təkmilləşdirici.**

**BEEL** *(ing. BEED, Brockhaus and Efron Encyclopedic Dictionary, rus. ЭСБЕ, Энциклопедический словарь Брокгауза и Ефрона)* – Brokhauz və Efron ensiklopedik lüğətinin qısaldılmış adıdır. Lüğət 120 mindən artıq məqaləyə malikdir və məqalələr müəllif hüquqları ilə müdafiə olunmurlar. Bir çox vikipediyaçılar tərəfindən köhnəlmiş ensiklopediya kimi tanınır.

**Bugzilla** – Vikipediya layihəsində səhvləri tapmaq üçün saytdır (http://www.bugzilla.org).

**Bloklama** *(ing. Blocking, rus. Блокировка)* – istifadəçilərin Vikipediyadakı məqalələrin redaktəsinə qoyulan qadağadır. Bu əməliyyat administratorlar tərəfindən texniki vasitələrin köməyi ilə yerinə yetirilir. Bloklama Vikipediya qaydalarını ardıcıl olaraq pozmuş istifadəçilərə tətbiq olunur. Bax: **Blok**.

**Blokdan çıxma** *(ing. Unblock, rus. Разблокировка)* – nə vaxtsa tətbiq edilmiş bloklanmanın ləğv edilməsidir. Əməliyyat administratorlar tərəfindən həyata keçirilir.

**Birləşdirmək** *(ing. Merge, rus. Соединять)* – Vikipediyadakı məqalələrin birləşdirilməsini nəzərdə tutur. Əsasən kiçik və mənaca zəif olan məqalələrin birləşdirilməsi daha məqsədəuyğundur. Bax: **Dupe**.



**Blankinq** *(ing. Blanking, rus. Гашение)* – məqalədəki mətnin bütünlüklə silinməsidir. Çox zaman yeni istifadəçilər tərəfindən bilmədən edilir. Əgər bu əməl bilərəkdən edilərsə və sübut olunarsa, o zaman vandalizm kimi qəbul olunur və həmin istifadəçi admin tərəfindən bloklanır.

**Blok** *(ing. Block, rus. Блок)* – istifadəçiyə texniki vasitələrlə Vikipediya məqalələrinin redaktəsində iştirak etməyinə qadağanın qoyulmasıdır. İstifadəçinin bloklanmasına səbəb qaydaların sistematik pozulması və ya vandalizm olur. Blok administrator tərəfindən yerinə yetirilir.

**Bloklamalar müharibəsi** *(ing. War of Block, rus. Война блокировок)* – bu zaman konsensusa gələ bilməyən administratorlar hər-hansı istifadəçini və ya məqaləni növbə ilə bloklayırlar və ya blokdan çıxarırlar.

**BLP** *(Biographies of Living Persons)* – yaşayan məşhur insanlar haqqında yaradılan məqalələrə qoyulan xüsusi şablondur.

**Bot** *(ing. Bot, rus. Бот)* – gündəlik, sadə əməliyyatları yerinə yetirən xüsusi proqramdır. Botlar adətən orfoqrafik səhvlərin düzəlişində, intervikilərin yaradılmasında istifadə edilirlər.

**Bot administrator** *(ing. Admin of Bot, rus. Ботовод)* – bot proqramının sahibidir. Vikipediyada istifadəçilər bəzən vaxta qənaət etmək məqsədilə sadə işləri xüsusi proqramlar (botlar) vasitəsilə yerinə yetirirlər.

**BSE** *(ing. GSE, Great Soviet Encyclopedia, rus. БСЭ, Большая советская энциклопедия)* – Böyük Sovet Ensiklopediyası sözünün qısa yazılışıdır. Vikipediyada hər-hansı məqalədəki mətnin mənbəyinin Böyük Sovet Ensiklopediyasından olduğunu göstərmək üçün mənbəni göstərən hissədə çox zaman BSE yazılır.

**Bürokrat** *(ing. Bureaucrat, rus. Бюрократ)* – Vikipediya istifadəçilərinə administrator və bürokrat hüququnu vermək kimi texniki imkana malik olan istifadəçidir. Lakin bürokrat bu hüquqları ala bilməz. Bunu yalnız stüard və ya layihə rəhbəri edə bilər.

**Bərpa** *(ing. Restory, rus. Восстановление)* – əvvəlcədən silinmiş olan məqalənin (şablon, kateqoriya, şəkil və s.) öz tarixçəsi ilə birlikdə yenidən yaradılmasıdır. Silmə kimi bərpaetməni də administratorlar yerinə yetirirlər.

## Ç

**Çat məqalə** *(ing. Chatty, rus. Болтливый)* – çat xarakterli məqalələrdir. Məqalənin ümumi məzmunu oxucu ilə söhbətləşmə xarakteri daşıyır. Bu cür məqalələrin Vikipediya standartlarına uyğun hala salınmalarına ehtiyac vardır.

**Çatdırmaq** *(ing. Posting, rus. Доставка)* – yeni məqalənin yaranması prosesidir.

**Təftişçi** *(ing. Checkuser, rus. Чекюзер)* – əsaslandırılmış müraciət əsasında istənilən istifadəçinin təkrar qeydiyyatının olub olmamasını İP ünvanlara görə yoxlayan, texniki imkanlara malik istifadəçidir. Çekyuzer bəzi layihələrdə Vikipediyanın arbitraj komitəsi tərəfindən, bəzi layihələrdə isə istifadəçilərin səsverməsi ilə seçilir.

## C

**Cəmiyyət** *(ing. Society, rus. Сообщество)* – Bütün anonim istifadəçilərdən stüardlara qədər Vikipediya istifadəçilərinəzərdə tutulur.

**Cimbo** *(ing. Cimbo, rus. Джимбо)* – Vikipediya yaradıcılarından biri olan Cimmi Uelsə Vikipediya istifadəçiləri tərəfindən verilən ləqəbdir.

**Cimmi Uels** *(ing. Jimmy Wales, rus. Джимми Уэлс)* – amerikalı sahibkar, Vikipediya virtual ensiklopediyasını yaradanlardan biridir.

**Cırtdan və ya vikicırtdan** *(ing. Gnome (wikignome), rus. Гном (викигном))* – məqalələrdə ardıcıl olaraq faydalı düzəlişlər edən istifadəçidir. Bu istifadəçilər Vikipediya cəmiyyətində nəzəri cəlb etməyi xoşlamırlar.

**Commons** *(ing. Commons, rus. Коммонс)* – Wikimedia Commons sözünün qısaldılmış şəkildə deyilişidir. Wikimedia Commons layihəsi Azərbaycan dilində VikiXəzinə adlandırılsa da istifadəçilər arasında Commons deyilir.

**CSD** *(Criteria for speedy deletion)* – məqalənin tez bir zamanda ləğv edilməli olduğunu göstərən şablondur. Bu o deməkdir ki, məqalə müzakirəyə çıxarılmadan ləğv edilməlidir. Çox zaman terrorizmi, düşmənçiliyi və s. təbliğ edən məqalələrə aid edilir.

**CV** – bax: **Kopivio**.

## D

**Dalan səhifə** *(ing. Dead-end page, rus. Тупиковая страница)* – digər səhifələrlə heç bir əlaqəsi olmayan səhifədir ki, buradakı informasiya konkret olur və təkmilləşdirilməyə ehtiyacı vardır.

**Delet həvəskarı** *(ing. Deletionist, rus. Делетионист)* – müxtəlif məqalələrə tez-tez "sil" və ya "db" şablonları daxil edərək onların silinməsini tələb edən istifadəçilərdir. Bu istifadəçilərin fikrincə Vikipediyadakı məqalələrin məzmunu kağız ensiklopediyalarından fərqlənməməlidirlər.

**DB** *(Delete Because)* – silinməsi vacib olan məqalələrə qoyulan standart şablondur. Vikipediyanın Azərbaycan bölməsində {{Sil}} şablonu ilə əvəz olunsa da bəzi hallarda {{db}} şablonundan da istifadə edilir. Məqaləyə bu şablon qoyularkən, mütləq səbəb göstərilməlidir: {{db-advert}}, {{db-nonsense}}, {{db-band}} və s.

**Dəqiqləşdirmə** *(ing. Exact, rus. Уточнить)* – daxilində bir neçə başqa eyniadlı məqalələrin adlarına izah verən və bu məqalələrə keçidi olan Vikipediya səhifəsi. Bu cür səhifələrin sonuna xüsusi {{dəqiqləşdirmə}} şablonu əlavə edilir. Bax: **Disambiq**.

**Diff** – məqalədə edilmiş redaktələr arasında fərqi göstərən səhifələrdir. Redaktələrin tarixini, kim tərəfindən edildiyini və hansı dəyişikliklərin edildiyini göstərir.

**Dicdef** – silinəcək məqalələrə qoyulan xüsusi şablonlardır.

**Disambiq** *(Disambiguation)* – eyni adlı, lakin müxtəlif mövzulu məqalələr (məsələn, Füzuli (şair) və Füzuli (rayon)) arasında fərqi göstərmək üçün istifadə olunan üsuldur. Vikipediyanın Azərbaycan bölməsində bunun üçün {{dəqiqləşdirmə}} şablonundan istifadə edilir. Bax: **Dəqiqləşdirmə.**

**Dupe** – mövzuca yaxın olan məqalələrin birləşdirilməsini tələb edən şablondur. Bax: **Birləşdirmək.**

## E

**Ekzopediyaçı** *(ing. Eczopeding, rus. Экзопедúст)* – Vikipediya cəmiyyətinin həyatında, müzakirələrdə az iştirak edərək, Vikipediyaya ayırdığı bütün vaxtını yalnız məqalələrin redaktəsinə sərf edən istifadəçidir.

**Ensiklonqlar** *(ing. Encyclong, rus. Энциклóнги)* – Vikipediyadakı mətnlərin surətlərini bütünlüklə köçürən saytlardırlar. Mətnlər köçürülərkən bu saytlar GFDL lisenziyasına əhəmiyyət vermirlər.

**Eyni zamanda redaktə** *(ing. Simultaneous editing, rus. Одновременное редактирование)* – eyni bir məqalə üzərində işləyən müxtəlif istifadəçilərin redaktəni eyni zamanda etmələridir. Bax: **Redaktə münaqişəsi.**

**Eponimous** *(ing. Eponymous, rus. Епонимоус)* – eyni adlı məqaləyə malik olan kateqoriyadır və əksinə, eyni adlı kateqoriyaya malik olan məqalələrdir. Çox zaman kateqoriyalara onların eponimous olduqlarını bildirən xüsusi şablonlar da əlavə edilir. Məsələn, {{catmore | məqalənin adı}}.

**Edconf** – Bax: **Redaktə münaqişəsi.**

## F

**FSF** *(Free Software Foundation)* – azad proqram təminatı fondudur və GNU layihəsinin əsas təşkilatçı sponsorudur. Riçard Stollmen tərəfindən yaradılan FSF azad proqram təminatı hərəkatını və GNU layihəsini dəstəkləmək məqsədi daşıyır.



**FAC** *(Featured article candidate)* – Vikipediya ensiklopediyasında ən yaxşı məqalələrə qoyulan xüsusi şablondur.

**FARC** *(Featured article removal candidate)* – silinməsi və ya dəyişdirilməsi təklif olunan məqalələrə qoyulan şablondur.

## G

**GA** *(Good article)* – yaxşı məqalələrə qoyulan xüsusi şablondur. Bax: Yaxşı məqalə.

**Geri qaytarmaq** *(ing. Return, rus. Откáт)* – Məqalənin əvvəlki vəziyyətlərdən birinə qaytarılmasıdır. Əməliyyat Vikipediyanın müəyyən qaydalarına əməl edilməklə aparılır.

**GFDL** *(GNU Free Documentation License)* – azad sənədlərin lisenziyası olub, lisenziyalı razılaşmadır. GFDL lisenziyası Vikipediya materiallarının istənilən şəxs tərəfindən və istənilən şəkildə istifadə etməyə icazə verir, bir şərtlə ki, ilkin müəllif göstərilsin və materiallar bu lisenziyanın şərtləri üzrə yayılsın. GFDL azad proqram təminatı fondu tərəfindən işlənmişdir. Vikipediyaya daxil edilən istənilən informasiya (mətn, şəkil, media-fayl) bu lisenziya əsasında yayıla bilər.

**GNU** *(GNU is Not Unix)* – azad proqram təminatı üçün lisenziyalı razılaşmadır. Azərbaycan dilində GNU Unix deyildir mənasını verir. Sərbəst olan, lakin Unix olmayan fəlsəfənin təməlidir.

**GNU LGPL** *(GNU Lesser General Public License)* – lisenziyası bir çox proqram təminatlarının kitabxanaları üçün nəzərdə tutulmuş GPL-in şəkli dəyişdirilmiş variantıdır.

**GPL** *(General Public License)* – GNU layihəsi çərçivəsində yaradılmış azad proqram təminatına qoyulan lisenziyadır.

## İ

**İnfoboks** *(ing. Infobox, rus. Инфобóкс)* – Vikipediyada məqalələrə daxil ediləcək müxtəlif mövzulu cədvəllər üçün nəzərdə tutulmuş xüsusi şablondur.

**İnterviki** *(ing. Interwiki, rus. Интервики)* – Vikipediyanın digər dil bölmələrində və ya digər viki-layihələrində eyniadlı məqalələrə keçidlərdir. İntervikilər MediaWiki proqramında xüsusi sintaksisin köməyi ilə yaradılır.

**İstifadəçi** *(ing. User, rus. Участник)* – Vikipediyada məqalələrin yaradılması və redaktəsi ilə məşğul olan istənilən fiziki şəxsdir. Bütün Vikipediya istifadəçiləri Vikipediya cəmiyyətinin üzvləridirlər.

**İstifadəçi səhifəsi** *(ing. User page, rus. Страница участника)* – Vikipediyada qeydiyyatdan keçmiş istifadəçi üçün xüsusi ayrılmış səhifədir. Istifadəçi bu səhifəyə fəaliyyəti və maraqları haqqında informasiya daxil edə bilər.

**İstifadəçi müzakirəsi səhifəsi** *(ing. The page user discussion, rus. Страница обсуждение участника)* – istifadəçi ilə əlaqə saxlamaq və şəxsi fikirləri ona çatdırmaq üçün istifadə edilən səhifədir. Yalnız qeydiyyatdan keçmiş istifadəçilər üçün nəzərdə tutulmuşdur. Çox zaman istifadəçinin Vikipediyada fəaliyyətini müzakirə etmək, tövsiyyə və iradları bildirmək üçün istifadə edilir.

**İstiqamətləndirmək** *(ing. Redirect, rus. Перенаправление)* – Vikipediyada müxtəlif adla adlandırılmış, lakin eyni mövzunu əhatə edən məqalələr üçün nəzərdə tutulmuş funksiyadır.

**İkiqat istiqamətləndirmə** *(ing. Double direct, rus. Двойное перенаправление)* – bir məqalənin digər məqalə ilə deyil, ona istiqamətlənmiş olan başqa bir səhifə ilə əlaqə yaratmaq üçün istifadə olunan funksiyadır.

**İnkluzionizm** *(ing. Inclusionizm, rus. Инклузионизм)* – Vikipediya iştirakçıları arasında, əhəmiyyətindən asılı olmayaraq bütün məqalələrin saxlanılmasını tələb edən cərəyandır. Bu cərəyanın əksi (udalizm) cərəyanıdır.

**İnkluzionist** *(ing. Inclusionist, rus. Инклузионист)* – Vikipediyaya daxil edilmiş bütün məqalələrin, qaydalara nə dərəcədə cavab verməsindən asılı olmayaraq, saxlanmasının tərəfdarı olan istifadəçilərdir.



**İstifadəçinin yoxlanması** *(ing. Check of the user, rus. Проверка участника)* – çekyuzer tərəfindən qeydiyyatdan keçmiş istifadəçinin İP ünvanının yoxlanılmasıdır. Əsas məqsəd vandalizmlə məşğul olan istifadəçinin kimliyini, hansı ölkədən olmasını və Vikipediyadakı digər qeydiyyat adlarını müəyyən etməkdir.

## K

**Kat** *(ing. Cat, rus. Кат)* – bax: **Kateqoriya**.

**Kateqoriya** *(ing. Category, rus. Категория)* – xüsusi Vikipediya səhifəsidir və bu səhifəyə əlifba üzrə nizamlanmış eyni mövzulu məqalələrə keçidlər yerləşdirilir. Kateqoriya şablonunu səhifələrə əlavə edildikdə, MediaWiki proqramı şablonda göstərilmiş kateqoriyaya həmin məqalənin adını əlavə edərək avtomatik keçid yaradır.

**Komitə** *(ing. Committee, rus. Комитет)* – Vikipediyanın arbitraj komitəsi nəzərdə tutulur.

**Konsensus** *(ing. Conscientious, rus. Консенсус)* – Vikipediya istifadəçiləri arasında əldə olunan razılıqdır. Məqalədə yazılanlarla razı olmayan istifadəçilər arasında mübahisə yaranarsa, eyni zamanda Vikipediyanın inkişafı, strukturu və funksionallığı sahəsində fikir ayrılığı olarsa, hər-hansı bir razılığa gəlmək tələb olunur. Konsensus əldə edilmədiyi təqdirdə mübahisəyə səbəb olmuş məqalə mühafizə olunur və ya mübahisəni qızışdıran istifadəçilər bloklanırlar.

**Kommons** *(ing. Commons, rus. Коммонс)* – Wikimedia Commons layihəsinin (http://commons.wikimedia.org) Vikipediya istifadəçiləri arasında qeyri-rəsmi adıdır. Bax: **Wikimedia Commons**

**Kopirayt** *(ing. Copyright, rus. Копирайт)* – müəllif hüquqlarının qorunmasıdır.

**Kopivio** *(ing. Copyright Violation (Copyvio), rus. Копивио)* – ingilis dilində "copy version in original" sözlərindən yaranmışdır. Vikipediya qaydalarına əsasən müəllif hüquqları qorunan mənbələrdən hər-hansı informasiyanı, dəyişiklik etmədən, olduğu kimi Vikipediyaya daxil etmək

qadağandır. Bu cür informasiya kopivio adlandırılaraq məqalədən çıxarılır və kopivio ilə məşğul olan Vikipediya istifadəçisinə xəbərdarlıq edilir. Xəbərdarlığı məhəl qoymayan istifadəçilər admistratorlar tərəfindən bloklanırlar.

**Kukla** *(ing. Pappet, rus. Кукла)* – istifadəçinin Vikipediyada bir-neçə dəfə müxtəlif adlarla qeydiyyatdan keçməsi nəticəsində yaranmış olan əlavə niklərdir (qeydiyyat adları).

**Kuklaçılıq** *(ing. Puppet-show, rus. Кукловодство)* – Vikipediyada müxtəlif adlarla qeydiyyatdan keçərək kuklalar yaradan istifadəçiyə verilən addır.

## L

**Larri Sanqer** *(ing. Larry Sanger, rus. Ларри Сангер)* – Ohayo universitetinin fəlsəfə doktoru, Vikipediya virtual ensiklopediyasını yaradanlardan biridir.

**Layihə** *(ing. Project, rus. Проéкт)* – Vikipediya virtual ensiklopediyasına istifadəçilər tərəfindən verilən ad. Çox zaman istifadəçilər müxtəlif müzakirələrdə və məqalələrdə Vikipediyanı qısa şəkildə belə adlandırırlar.

## M

**MediaWiki** – Vikipediya layihələrini idarə edən xüsusi proqramdır.

**Məqalə** *(ing. Article, rus. Статья́)* – Vikipediyada müəyyən obyekt və ya hadisə haqqında yazılı məlumatdır. Məqalə müasir və klassik tədqiqatçıların fikirlərinə istinad etməklə, faktiki məlumatlar əsasında, Vikipediya qaydalarına uyğun yaradılmalıdır.

**Məqalənin bərpası** (*ing. Restoration (restor) of page, rus. Восстановление статьи)* – əvvəllər silinmiş məqalənin (kateqoriyanın, şəklin), düzəlişlər tarixi ilə birgə bərpa edilməsidir. Vikipediyada məqalələrin bərpası yalnız administrator tərəfindən yerinə yetirilə bilər.



**Məqalənin müzakirə səhifəsi** *(ing. The page discussion of the article, rus. Страница обсуждение статьи)* – məqaləyə daxil edilmiş informasiyanın düzgünlüyü barədə müzakirələr aparmaq üçün nəzərdə tutulmuş Vikipediya səhifəsidir. Bu səhifədə informasiyanın düzgünlüyü ilə yanaşı, göstərilmiş mənbələrin etibarlılığı, kateqoriyaların və istinadların məqaləyə nə dərəcədə uyğun gəlməsi müzakirə olunur.

**Məqalənin təmizlənməsi** *(ing. Cleanup of page, rus. Уборка в статье)* – qrammatik səhvlərə, düzgün olmayan informasiyaya malik, ensiklopedik qaydalara uyğun gəlməyən, formatlaşdırılması lazımınca aparılmayan məqalələrin bərpası prosesidir.

**Meta** *(ing. Meta, rus. Мéта)* – MetaViki (http://meta.wikimedia.org) layihəsinin qısaldılmış adıdır. Layihə Vikimedia Fondu tərəfindən yaradılmışdır. Vikipediya istifadəçiləri sual və təklifləri ilə bu sayta müraciət edə bilərlər. Vikipediyanın törəmə layihələri də (Commons, VikiMənbə, VikiSitat və s.) MetaViki tərəfindən idarə olunur.

**MetaViki** *(Meta-Wikimedia)* – İnternetdə viki-layihələrin əsas əlaqələndirmə komissiyasıdır. Bax: **Meta.**

**Metaman** *(ing. Meta-man, rus. Метапеди́ст)* – Vikipediyada məqalə yaratmağa nisbətən, Vikipediya cəmiyyətinə daha çox vaxt sərf edən istifadəçilərə verilən addır. Vikipediya cəmiyyətinə çox vaxt sərf etmək isə metamanizm adlanır.

**Mitpappet** *(ing. Mitpappet, rus. Митпáппет)* – Vikipediyaya yalnız səsvermələrdə və müzakirələrdə iştirak etmək üçün daxil olan istifadəçidir. Mitpapetlər çox zaman sokpappetlər olurlar.

## N

**NPOV** *(Neutral Point of View)* – Vikipediyada istifadəçilər tərəfindən neytrallığın gözlənilməsi qaydasıdır. Məqalə yaradarkən əməl olunması vacib olan qaydalardan

biridir, belə ki, ensiklopedik məqalədə şəxsi mülahizələrə və tərəfli fikirlərə yol verilmir.

## O

**Orden** *(ing. Decorating, rus. Орден)* – Vikipediyada xidmətlərinə görə hər hansı istifadəçiyə digər istifadəçilər və administratorlar tərəfindən təqdim edilən həvəsləndirici mükafatdır. Orden istifadəçinin şəxsi səhifəsində və ya müzakirə səhifəsində qoyulur. Orden verilərkən, onun hansı xidmətlərə görə verilməsi də yazılmalıdır. Bu səbəbdən Ordenlər müxtəlif ola bilərlər.

## P

**PD** *(Public Domain)* – Vikipediyada qəbul olunmuş xüsusi lisenziyadır. Məsələn, "PD-old" lisenziyası ilə köhnə (70 il əvvəl və daha qədim) məqalələri və şəkilləri Vikipediyaya daxil etmək olar.

**POV** *(Point Of View)* – Vikipediyadakı hər-hansı məqalənin neytrallığı pozulmuş olarsa və ya məqalədəki informasiya həqiqətə uyğun olmazsa, həmin məqaləyə qoyulan şablondur.

## Q

**Qalmaqal** *(ing. Cabal, rus. Интрига)* – Vikipediyanın işinə mane olan hallardan biridir. Qalmaqallar çox zaman müzakirələr zamanı, troll tərəfindən yaradılır. Bax: **Troll.**

**Qaralama məqalə** *(ing. Rough Article, rus. Черновик)* Vikipediyada natamam, həddən artıq qısa və ya az informasiya daşıyan məqalədir. Bu cür məqalələrə xüsusi şablonlar qoyulur.

**Qaralama səhifəsi** *(ing. Rough Page, rus. Песочница)* – məqalələrin yaradılması və redaktə edilməsi qaydalarını öyrənmək üçün istifadəçilərin müraciət etdikləri xüsusi səhifədir. Qaralama səhifəsində Vikipediya qaydalarının gözlənilməsi tələb olunmur və istifadəçilər səhifəyə istənilən informasiya daxil edə bilərlər. Bu zaman onlara xəbərdarlıq edilməyəcək və bloklanma qorxusu olmayacaqdır.



**Qaydalar və göstərişlər** *(ing. Rules and İnstructions, rus. Правила и указания)* – Vikipediyanın bütün istifadəçiləri, eləcə də administrator və bürokratlar tərəfindən yerinə yetirilməsi tələb olunan xüsusi qaydalardır. Vikipediya qaydaları istifadəçilərin özləri tərəfindən tərtib edilir və səsvermə yolu ilə qəbul olunur.

**Qeydiyyata alınmış istifadəçi** *(ing. Registered user, rus. Зарегистрированный пользователь)* – Vikipediyada xüsusi ad ilə (nik) qeydiyyatdan keçmiş şəxsdir. Anonim istifadəçi ilə müqayisədə daha çox hüquqa malikdir. Məsələn o, Vikipediyanın interfeysini şəxsən özü üçün quraraq, müzakirələrdə şəxsi imzası ilə çıxış edə bilər, öz şəxsi səhifəsini əldə edərək, bu səhifədə özü haqqında və öz şəxsi fikirləri haqqında söhbət aça bilər və s.

**Qeyri-ensiklopedik** *(ing. Non-encyclopaedic, rus. Неэнциклопедичность)* – Vikipediyaya və ümumiyyətlə ensiklopedik standartlara cavab verməyən məqalələrdir. Çox zaman məqalələrin silinməsini əsaslandırmaq üçün istifadəçilər məqalənin qeyri-ensiklopedik olmasını səbəb kimi göstərirlər.

**Qırmızı keçid** *(ing. Broken link (red link), rus. Красная ссылка)* – mövcud olmayan məqaləyə keçidlərdir. Bu keçidlərin üzərinə mausun göstəricisi ilə vurduqda, həmin adla başlayan məqalənin yaradılmasını təklif edən səhifə (redaktə səhifəsi) açılmış olur. İstifadəçi redaktə səhifəsində məqalə yaradaraq onu Vikipediya serverində saxlamaq hüququna malikdir.

**Qısa məzmun** *(ing. Brief Content, rus. Короткое содержание)* – məqaləyə edilmiş növbəti dəyişiklik haqqında qısa məlumatdır. Bu məlumatı tarixçədə səhifəsində, məqalədə aparılmış bütün redaktələri göstərən siyahının yanlarında görmək olar.

## R

**Redaktə** *(ing. Edit, rus. Правка)* – istənilən məqalədə edilən dəyişikliyin Vikipediyanın verilənlər bazasına daxil edilməsidir.

**Redaktələr müharibəsi** *(ing. Edit war, rus. Войнá правок)* – Vikipediyada istifadəçilər arasında baş verən informasiya müharibəsidir. Mübahisəyə səbəb olmuş məqalə ətrafında konsensusa gələ bilməyən istifadəçilər məqaləni öz istədikləri məzmuna qaytarırlar. Redaktələr müharibəsi adətən məqalə administrator tərəfindən mühafizə edildikdən və ya istifadəçi bloklandıqdan sonra sona çatır. Mübahisəyə səbəb olmuş məqalənin ləğv edilməsi ehtimalı da böyükdür. Müharibəyə cəlb edilmiş administratorun məqaləni mühafizə etməyə və ya ləğv etməyə ixtiyarı yoxdur. Bunu yalnız neytral administrator etməlidir. Bu zaman yalnız bir tərəfin müdafiə etdiyi variantın seçilməsi düzgün deyildir.

**Redaktə tarixi** *(ing. History of editing, rus. Истóрия прáвок)* – hər-hansı məqalədə edilmiş redaktənin kim tərəfindən və nə zaman edildiyini öyrənmək üçün nəzərdə tutulmuş texniki səhifədir. Səhifədə yerləşən keçidlər vasitəsilə redaktələri müqayisə etmək mümkündür.

**Redaktə ilə əlaqəli izahat** *(ing. The description of editing, rus. Комментáрий к прáвке)* – məqalədə hər-hansı düzəliş apararkən istifadəçi düzəlişin nəyə əsasən aparılması haqqında izahat verməlidir və mənbə göstərməlidir. Əks halda onun redaktəsinin digər istifadəçilər tərəfindən ləğv ediləcəyi ehtimalı yaranır. Mübahisəli məqalələrdə apardığı redaktə ilə əlaqəli izahat yazmayan istifadəçinin fəaliyyəti vandalizm kimi qəbul oluna bilər.

**Redaktə münaqişəsi** *(ing. Edit conflict, rus. Конфлúкт редактирования)* – eyni məqalənin bir-neçə istifadəçi tərəfindən eyni zamanda redaktə edilməsidir. Bu halda Vikipediya sistemi redaktələri başa düşmür və nəticədə redaktələr qəbul olunmur. Redaktə münaqişəsi redaktə müharibələrindən fərqlənir. Belə ki, redaktə münaqişəsi redaktə müharibələrindən fərqli olaraq istifadəçilərin bir-birindən xəbərsiz fəaliyyətləri nəticəsində baş verir.

**Redirekt** *(ing. Redirect, rus. Редирект)* – keçid məqalələrə verilən addır. Keçid məqalə dedikdə eyni məzmunlu, lakin müxtəlif adlarla yaradılmış məqalələr nəzərdə



tutulur. Bu məqalənin adını axtarışa verdikdə avtomatik eyni məzmunlu digər məqaləyə keçid edilir. Keçidlər xüsusi şablon vasitəsilə yaradılır.

**Repost** *(ing. Repost, rus. Репост)* – silinmiş məqalənin təkrar yaradılmasıdır ki, yeni yaradılmış məqalədəki mətnin məzmunu praktiki olaraq əvvəlkindən heç nə ilə fərqlənmir.

**Robəm** *(ing. Roboam, rus. Робоам)* – redaktə etdiyi məqalələrinin çoxunda neytrallığı pozmuş olan Vikipediya istifadəçisinə verilən addır. Onları aktiv vikitrol da adlandırırlar. Vikipediyadakı məqalələrin neytrallığını pozarkən yalan məlumatlar yaradan roboamlar vandallar da adlandırılırlar. Bax: **Vikitrol.**

**RB** *(Rollback)* –məqalənin əvvəlki vəziyyətinə qaytarılması əməliyyatıdır. Məqalədə edilmiş sonuncu dəyişikliklər istifadəçini qane etmirsə o, tarixçə bölməsinə daxil olmaqla məqalənin əvvəlki vəziyyətini bərpa edə bilər.

**RV** *(Revert)* – Bax: **RB**.

**RVV** *(Revert Vandalism)* – Vandalizm fəaliyyətinin aşkarlanması və qarşısının alınmasıdır. Nəticədə məqalənin əvvəlki vəziyyəti bərpa edilir, vandalizm fəaliyyəti ilə məşğul olan istifadəçi isə administrator tərəfindən müəyyən müddətə bloklanır.

**Redaktəyə şərh** *(ing. The comment to article, rus. Комментария к статье)* – Məqalədə edilən redaktələrin səbəblərinin izah edilməsidir. Mübahisələrə səbəb olmuş məqalələrdə redaktə şərhinin olması vacibdir. Bax: **Qısa məzmun**.

## S

**Seçilmiş məqalə** *(ing. Selected article, rus. Избранная статья)* – istifadəçilərin fikrinə görə Vikipediyanın tələblərinə tam cavab verən məqalədir. Vikipediyada hər-hansı məqaləyə seçilmiş məqalə adının verilməsi çox zaman istifadəçilər arasında səsvermə aparılmaqla təyin edilir. Bu cür məqalələrin nümunə kimi Ana səhifədə yerləşdirilmə ehtimalı vardır.

**Səhifənin mühafizəsi** *(ing. Protection of article, rus. Защита страницы)* – texniki vasitələrlə səhifənin redaktəsinə qoyulan qadağadır. Mühafizə zamanı səhifə administratorlar tərəfindən qorunur. Səhifənin mühafizəsinə səbəb, baş verən redaktələr müharibəsinə son qoymaq və ya səhifədə edilən sistematik vandalizmin qarşısını almaqdır.

**Səsvermə** *(ing. Voting, rus. Голосование)* – hər-hansı qərarın qəbulu zamanı (məqalənin silinməsi, yeni administratorun təyin edilməsi və s.) həyata keçirilir. Səsvermədə iştirak edənlərdən öz qərarlarını əsaslandırmaq tələb olunur. Odur ki, səsvermələrdə müzakirələr də aparılır. Səsvermədə 200-dən artıq redaktəsi olan və Vikipediya layihəsində 3 aydan artıq fəaliyyət göstərən istifadəçilər iştirak edə bilərlər. Səsvermədə qərarın qəbul edilməsi üçün ⅔ səsin toplanması tələb edilir. Vikipediyada bəzi səsvermələr bir səs çoxluğu əldə etməklə də qəbul olunur.

**Silmə** *(ing. Delet, rus. Удалить)* – Vikipediyada administratorlar tərəfindən məqalənin, kateqoriyanın və ya şəklin silinməsidir. Əsasən Vikipediya qaydalarına uyğun gəlməyən məqalələr silinirlər. Nəzərə almaq lazımdır ki, məqalə silinərkən onunla əlaqəli olan müzakirələr, tarixçə səhifələri də avtomatik silinirlər.

**Sisop** *(ing. Sysop, rus. Сисоп)* – İstifadəçilərin Vikipediyada sistem operatoruna qoyduqları addır. Sistem operatorlarını çox zaman administrator da adlandırırlar. Bax: **Administrator.**

**Sokpappet** *(ing. Socpappet, rus. Сокпаппет)* – qeydiyyatdan keçmiş istifadəçi yenidən başqa bir adla qeydiyyatdan keçərsə, ona verilən addır. İstifadəçinin Vikipediyada bir-neçə adla qeydiyyatdan keçməsində məqsəd, səsvermələrdə və sorğularda çox səs əldə etməklə Vikipediya cəmiyyətini aldatmaqdır. Əgər bu hal aşkar edilərsə həmin istifadəçinin İP ünvanı həmişəlik bloklanır.

**Sorğu** *(ing. Referendum, rus. Опрос)* – müxtəlif məsələlərin həllində istifadəçilərin fikrini öyrənmək üçün keçirilən tədbirdir.



**Stab** *(ing. Stab, rus. Стаб)* – Vikipediyada yarımçıq məqalələri verilən addır. Bu cür məqalələrə yalnız minimal zəruri məlumatlar daxil edilmiş olur. Çox zaman bu məqalələrə {{qaralama}}, {{yarımçiq}}, {{qısa məqalə}} kimi xüsusi şablonlar əlavə edilir.

**Stüard** *(ing. Steward, rus. Стюард)* – xüsusi texniki imkanlara malik istifadəçidir. Stüard Vikipediyadakı istənilən istifadəçini İP ünvana görə yoxlamaq və istənilən administratordan səsvermə aparıldıqdan sonra administrator hüququnu almaq imkanına malikdir. İP ünvana görə yoxlamaya ehtiyac yalnız istifadəçi tərəfindən vandalizm halları artdıqda yaranır.

**Sürətli silmə** *(ing. Fast removal, rus. Быстрое удаление)* – ümumi müzakirəyə çıxartmadan administratorun hər-hansı məqaləni silməsidir. Sürətli silməyə yalnız "sürətli silmə" kriteriyalarına cavab verən məqalələr aiddir. Bu məqalələrə mənasız məzmuna malik, qərəzli, qeyri-etik, spam və reklam xarakterli məqalələr aiddirlər.

## Ş

**Şablon** *(ing. Template, rus. Шаблон)* – tez-tez və müxtəlif məqalələrdə istifadə oluna biləcək mətni hər dəfə yazmamaq üçün, istənilən istifadəçi tərəfindən yaradılan standartdır. Bu standartlar şablonlar kateqoriyasına daxil edilərək, hamı tərəfindən istifadəyə verilir.

**Şərh** *(ing. Comment out, rus. Комментарий)* – məqalələrə daxil edilən, lakin ümumi baxış səhifəsində görünməyən mətndir. Bu mətnlər xüsusi HTML teqləri ilə daxil edilirlər: <!- Mətnin məzmunu->

**Şəxsi məkan** *(ing. Personal of spase, rus. Личное пространство)* – Vikipediyada qeydiyyatdan keçmiş istifadəçinin şəxsi səhifəsi və bu səhifədə yaradılan alt səhifələrdir. Bax: **Şəxsi səhifə.**

**Şəxsi səhifə** *(ing. Personal of page, rus. Личная страница)* – Vikipediyada qeydiyyatdan keçən istifadəçiyə verilən səhifədir ki, burada o, özü və maraqları haqqında

məlumatlar, müxtəlif şablonlar, şəkillər və digər informasiya daxil edə bilər. Bu səhifəni istifadəçi səhifəsi də adlandırırlar.

**Şotkat** *(ing. Shortcut, rus. Шоткат)* – Vikipediyada xidməti səhifələrə verilən addır.

## T

**Təhqir** *(ing. Insult, rus. Оскорбле́ние)* – istifadəçinin redaktə etdiyi məqalələrə və ya şəxsən özünə qarşı digər Vikipediya istifadəçisi tərəfindən göstərilmiş kobud münasibətdir. Təhqir olunan istifadəçi administratorlara müraciət edərək kobudluq edən istifadəçinin müəyyən müddətə bloklanmasına nail ola bilər.

**Troll** *(ing. Troll, rus. Тролл)* – Vikipediya cəmiyyətində provokasiya məqsədilə məqalələr daxil edən və istifadəçilər arasında informasiya müharibəsi yaratmağa cəhd göstərən istifadəçilərə verilən addır.

**Tənha məqalə** *(ing. Orphan, rus. Сирота)* – digər məqalələrlə və kateqoriyalarla əlaqəsi olmayan məqalələrdirlər. Bu məqalə ilə digər məqalələri əlaqələndirmək üçün, onlara xarici və daxili keçidlərin qoyulması vacibdir.

**Tarixçə** *(ing. History, rus. История)* – Səhifəyə edilmiş olan dəyişikliklərin kim tərəfindən və nə zaman edildiyini göstərən texniki səhifədir.

**Təkmilləşdirici** *(ing. Developer, rus. Разработчик)* – MediaWiki proqram təminatında və Vikipediyanın verilənlər bazasında bir başa dəyişikliklər edə bilən mütəxəssislərdir. Adətən Vikimedia Fondunun texnikləri olan bu istifadəçilər ən yüksək səviyyəli statusa malikdirlər. Bax: baş layihəçi

## V

**Vandal** *(ing. Vandal, rus. Вандал)* – Vikipediyada məqalələri və səhifələri bilərəkdən korlayan istifadəçidir.

**Vandalbot** *(ing. Vandalbot, rus. Вандалбот)* – hər-hansı istifadəçi tərəfindən yaradılaraq Vikipediyaya daxil edilən, vandalizm və spamlar yaratmaq üçün nəzərdə tutulan xüsusi proqramdır. Vandalbot yaradan proqramçı, adətən, müəyyən İP



ünvanlar tərəfindən redaktə edilmiş məqalələr üçün nəzərdə tutulursa da, bəzən elə vadalbotlara rast gəlmək olur ki, onlar yüzlərlə məqaləni qısa zamanda korlamaq gücünə malik olurlar.

**Vandalizm** *(ing. Vandalizm, rus. Вандализм)* – istifadəçinin Vikipediyadakı məqalələri və səhifələri bilərəkdən korlanmasına yönəldilmiş fəaliyyətdir. Vikipediya istifadəçisinin digər istifadəçi tərəfindən vandalizmdə təqsirləndirilməsi təhqir hesab edilir.

**Vasitəçilik** *(ing. Mediation, rus. Посре́дничество)* – məqalələrin redaktəsi zamanı yaranan mübahisələrin həllində Vikipediyadakı hər-hansı nüfuzlu istifadəçiyə edilən müraciətdir. Adətən müraciət mübahisə edən tərəflərdən biri tərəfindən edilir.

**Verilənlər tullantısı** *(ing. Data dump, rus. Свалка данных)* – bəzən ensiklopedik məqalə yaratmaq üçün müxtəlif saytlardan informasiya olduqları kimi, yəni dəyişdirilmədən, formatlaşdırılma aparılmadan, ensiklopedik mətnə salınmadan Vikipediyaya köçürülür. Bu cür məqalələr verilənlər tullantısı adlanır və administratorlar tərəfindən silinirlər.

**Viki texnologiyası** *(ing. Wiki-technology, rus. Вики-технология)* – "sürətli informasiya texnologiyası" kimi başa düşülür. Bəzən Viki texnologiyasını "canlı sənədlər texnologiyası" və ya "kollektiv bilik texnologiyası" da adlandırırlar. Hər hansı biliyə malik olan istifadəçi Viki texnologiyasından istifadə edərkən, informasiyanı veb-saytda çap etməklə bu biliyi başqaları ilə bölüşdürmüş olur.

**Vikifikator** *(ing. Wikification, rus. Викифика́тор)* – JavaScript proqramında yaradılmış senaridir. Mətnin Vikifaktor vasitəsi ilə seçilmiş hissəsi Viki proqramının qaydalarına uyğun olaraq emal edilir.

**Vikiləşdirmə** *(ing. Wikifixer, rus. Викифика́ция)* – məqalənin Vikipediya standartlarına uyğun vəziyyətə gətirilməsidir. Belə ki, Vikipediyada məqalələr xüsusi qəbul olunmuş qaydalar üzrə yaradılmalıdır.

**Vikigörüş** *(ing. Wikivisit, rus. Викивстре́ча)* – Vikipediya istifadəçilərinin real həyatda görüşməsidir.

**Vikipəri** *(ing. WikiFairy, rus. Викифея)* – yalnız məqalələrin xarici görünüşünü gözəlləşdirməklə məşğul olan istifadəçilərdirlər. Onlar məqalələrə stil, rəng, şəkil əlavə edərək Vikipediyada xoş niyyətdə olduqlarını göstərməyə çalışırlar, məqalələrin yaradılmasında və redaktəsində iştirak etmirlər.

**Vikiməktub** *(ing. Wiki-mail, rus. Викимейл)* – Vikipediya istifadəçilərinin şəxsi məktublarının birbaşa Vikipediya saytından göndərilməsi üçün istifadə edilən xüsusi texnologiyadır. Məktub göndərmək üçün hər bir qeydiyyatdan keçmiş istifadəçinin səhifəsində xüsusi funksiya mövcuddur.

**Vikimedia Fondu** *(ing. Wikimedia Foundation, rus. Фонд Викимедиа)* – Vikipedia layihələrini idarə edən qeyri-rəsmi təşkilatdır. Vikimediya Fondu qeyri-kommersiya təşkilatı 2003-cü ilin 20 iyun tarixində Cimmi Uels tərəfindən yaradılmışdır.

**Viki-məzuniyyət** *(ing. Wiki-holiday, rus. Вики-отпуск)* – Vikipediya istifadəçisinin könüllü olaraq müvəqqəti Vikipediya saytına daxil olmadığı müddətdir. Viki-məzuniyyətlər bir-neçə gündən başlayaraq, bir neçə aya qədər davam edə bilər.

**Vikipediya xəstəliyi** *(ing. Illness by Wikipedia, rus. Болезнь википедистов)* – bəzi Vikipediya istifadəçilərinə xas olan psixoloji durumdur. Vikipediya xəstəliyi zamanı istifadəçi real həyatdan uzaqlaşaraq gündə 10-12 saat və hətta daha artıq vaxtını məqalələrin redaktəsinə və digər istifadəçilərlə müzakirələrə sərf edir. Bax: **Vikipedist.**

**Vikipedist** *(ing. Wiki-man, rus. Википедист)* – Vikipediyada, məqalələrin redaktəsində fəal iştirak edən qeydiyyatdan keçmiş istifadəçidir.

**Vikistalkinq** *(ing. Wikistalling, rus. Викисталкинг)* – bir və ya bir-neçə istifadəçinin Vikipediyada fəaliyyətlərinin digər istifadəçi tərəfindən nəzarətdə saxlanması və təqib edilməsidir. Bu fəaliyyət çox zaman qərəzli xarakter daşıyır. Təqib olunan istifadəçinin yaratdığı və redaktə etdiyi məqalələr tez-tez yenidən redaktə olunur və ya bu məqalələrə {{Sil}} şablonu daxil edilir.

**Virtual** *(ing. Virtual, rus. Виртуал)* – Vikipediyada qeydiyyatdan keçmiş istifadəçinin yaratdığı əlavə qeydiyyat yazılarıdır. Virtuallar çox zaman sokpapperlər də adlanırlar. Bax: **Sokpapper.**

**VP** *(ing. WP, rus. ВП)* – Vikipediyanın qısaldılmış adıdır. VP: – abbreviatur keçidlər üçün perefiksdir. Xidməti səhifələrin qısaldılmış şəkildə adlandırılmasıdır. Vikipediyada məqalənin adının qarşısında VP işarəsi, bu məqalənin məzmununun Vikipediya ensiklopediyasına aid olduğuna işarədir.

**VikiLüğət** *(ing. Wiktionary, rus. Викисловарь)* – Vikipediyanın 9 layihəsindən biri olub, izahedici məqalələr, tezauruslar və tərcümələrin saxlandığı saytdır (http://az.wiktionary.org/wiki/).

**VikiSitat** *(ing. Wikiquote, rus. Викицитаты)* – Vikipediyanın 9 layihəsindən biri olub, aforizmlər, məşhur şəxslərin söylədikləri ifadələrdən ibarət kataloqdur (http://wikiquote.org/wiki/).

**VikiKitablar** *(ing. Wikibooks, rus. Викикниги)* – Vikipediyanın 9 layihəsindən biri olub, elektron kitabların («e-books») birgə hazırlanması layihəsidir (http://az.wikibooks.org/wiki/).

**VikiMənbə** *(ing. Wikisource, rus. Викитека)* – Vikipediyanın 9 layihəsindən biri olub, müəllif hüquqlarının qorunması haqqında qanunların aid edilmədiyi mətnlərin şəbəkə kitabxanasıdır (http://wikisource.org/wiki/).

**VikiXəbərlər** *(ing. Wikinews, rus. Викиновости)* – Vikipediyanın 9 layihəsindən biri olub, ensiklopediya kontekstində cari hadisələr haqqında məlumat verən İnternet-ensiklopediyadır (http://ing.wikinews.org/wiki/).

**VikiNövlər (ing. Wikispecies, rus. Викивиды)** – Vikipediyanın 9 layihəsindən biridir. Virtual ensiklopediyanın bu layihəsi əsasən təbiət (botanika və zoologiya) elmlərinə aiddir (http://wikispecies.wikimedia.org/wiki/).

**VikiXəzinə (ing. Wikimedia Commons, rus. Викисклад)** – Vikipediyanın 9 layihəsindən biri olub, şəkil, səs, video-fayl və s. bu kimi informasiyanın saxlandığı qlobal xəzinədir (http://commons.wikimedia.org/wiki/).

**VikiVersitet** *(ing. Wikiversity, rus. Викиверситет)* – Vikipediyanın 9 layihəsindən biridir. Virtual məkanda Viki-universitetdir (http://az.wikiversity.org/wiki/).

## Y

**Yalançı məqalə** *(ing. False articly, rus. Пустышка)* – həddən artıq qısa məqalələrə verilən addır. Bir və ya bir-neçə sözdən, yalnız şəkillərdən ibarət olan məqalələr yalançı məqalələr adlanır. Onların ləğv olunması ehtimalı çoxdur.

**Yaxşı məqalə** *(ing. Good articly, rus. Хорошая статья)* – seçilmiş məqalə səviyyəsində olmasa da, kifayət qədər yüksək keyfiyyətə malik məqalədir. Bax: **GA**.

**Yuzerboks** *(ing. Userbox, rus. Юзербокс)* – Vikipediya istifadəçilərinin öz şəxsi səhifələri üçün nəzərdə tutulmuş şablonlardır. Adətən, istifadəçilərin təhsili, maraqları və s. haqqında informasiya çatdırmaq üçün nəzərdə tutulmuşlar.

**Yuzerboksomaniya** *(ing. Userboxmania, rus. Юзербоксомания)* – bəzi Vikipediya istifadəçilərinə zarafatla verilən addır. Bu istifadəçilər müxtəlif yuzerbokslar yaradaraq, onları özlərinin və digər istifadəçilərin şəxsi səhifələrinə daxil edirlər.





**Rasim Məhəmməd oğlu Əliquliyev**

AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor, AMEA İnformasiya Texnologiyaları İnstitutunun direktoru

director@iit.ab.az



**İradə Yavər qızı Ələkbərova**

AMEA İnformasiya Texnologiyaları İnstitutunun sektor müdiri

depart17@iit.ab.az

**Texniki redaktor:** Anar Səmidov

**Korrektor:** Ləman Manahova

**Kompyuter tərtibatı:** Zülfiyyə Hənifəyeva

**Kompyuter dizayn:** Aybəniz Həsənova
Murad Əsədov

Çapa imzalanmışdır: 18.05.2010. Çap vərəqi: 60x84 1/16,
Sifariş № 22, tiraj 500 ədəd.

**Azərbaycan Milli Elmlər Akademiyası**
**İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTU**
**"İnformasiya Texnologiyaları" Nəşriyyatı**

Az1141, Bakı şəh., F.Ağayev, 9
Tel.: (+99412) 510 42 74 Faks: (+99412) 439 61 21
secretary@iit.ab.az, www.ikt.az